Nəriman Mahmud

# Bağ evinin sirri

(roman)

"Təfəkkür"
Bakı-2011

**Redaktor:** Yusif Dirili

Nəriman Mahmud (Mahmudov Nəriman Məhəmməd oğlu). **Bağ evinin sirri** (roman). - Bakı, "Təfəkkür", 2011. - 160 s.

*Mənəvi-əxlaqi mövzuda yazılmış "Sirr qapısı" romanı, povestlər və hekayələrdən ibarət "Qanlı kürsü" kitabı və detektiv janrda qələmə alınmış "Mavi Xəzərdə qətl" adlı romandan sonra oxucuların ixtiyarına verilən bu əsərin əsas qayəsini müəmmalı qətl-qarət hadisələri, bu hadisələrin istintaq axtarışları təşkil edir. İnanırıq ki, tanınmış jurnalist, yazıçı-publisist Nəriman Mahmudun bu romanı da geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaq.*

N $\frac{4702060204-032}{067-2011}$

© Nəriman Mahmud, 2011
© "Təfəkkür", 2011

Gecə yarıdan keçmişdi. O, bir qədər kənarda “Bugattı” markalı avtomobildən düşüb iri addımlarla qarşıdakı evə tərəf tələsdi. Burdan bağ evinin hündür hasarlı həyətinin dəmir darvazasına lap az qalmışdı. Nədənsə ehtiyatlanırmış kimi ətrafına baxdı. Heç kəs görünmürdü. Darvazanın beş-altı addımlığında dayanıb yenidən o tərəf-bu tərəfə boylandı. Bir neçə saniyə ətrafa diqqət kəsildi. Deyəsən, heç kəsin onu görmədiyinə tam əmin idi. Kimsə səs eşitməsin deyə, ayaqlarının ucu ilə irəlilədi. Amma darvazanın hər iki tərəfində boy verən çinar ağaclarının artıq saralıb yerə tökülmüş xəzan yarpaqları çəkmələrinin altında xışıldayırdı.

Gələn adam düz darvazanın ağzına çatıb bir qədər nəfəsini dərdi. Əlindəki ağır çantanı ehmalca yerə qoydu. Cibindən açarı çıxararaq darvazanı açıb həyətə girdi. Elə bil üstündən ağır yük götürüldü. Bayaqkı həyəcandan əsər qalmadı. Bu dəfə şəstlə yeriyib üzü dənizə tərəf baxan ikimərtəbəli evin ikinci mərtəbəsinə qalxdı. Arxa otaqlardan birinə keçib gecə lampasını yandırdı. Əlindəki çantanı kiçik otağın künclərindən birində qoyulmuş seyfin içərisinə boşaldaraq ağzını yenidən qıfılladı. Cibindən mobil telefonunu çıxartdı. Darvazadan xeyli kənarda onu gözləyən sürücüyə zəng vuraraq, artıq qayıtmağa hazırlaşdığını dedi. Boş çantanı da özü ilə götürərək lampanı söndürüb bayıra çıxdı. Qapını arxadan bağlayıb pilləkənlərlə cəld aşağı düşdü. Darvazaya tərəf getməyə başlayırdı ki, həyətdəki avtomobil qarajının yaxınlığında gözlərinə bir qaraltı sataşdı. İnsan kölgəsinə bənzəyən bu qaraltı sürətlə hasara yaxınlaşırdı. Diqqətlə baxsa da bir şey kəsdirə bilmədi.

O, yerində dayanıb yenidən hasara tərəf baxdı. Elə indicə gördüyü qaraltı, bir anın içərisində yoxa çıxmışdı. Əvəzində güclə sezilən hənirti eşitdi. Amma bu səs də gecənin vahimə yaradan sakitliyində bir anda əriyib yox oldu elə bil. Nə qədər fikirləşsə də heç nə anlaya bilmədi. Başına hava gəlmiş adamlar kimi aydın eşidilən uca səslə qəflətən - “deyəsən, məni qara basır” - dedi. Ardınca lap astadan “lənət şeytana” deyib uzaqlaşdı. Həyətdən bayıra çıxıb darvazanı bağladı. Üzünü arxaya çevirib getmək istəyirdi ki, darvazanın sağ tərəfində, bir qədər aralıda yenidən qaraltı gördü. Onun gerçəkdən hansısa canlı olub-olmadığı dəqiq bilinməsə də, nəyinsə təsirindən bərk həyəcanlı olduğu, devikdiyi açıq-aşkar hiss edilirdi.

Əlində çanta olan adama elə gəldi ki, kimsə onun izinə düşüb. Qaraltının yavaş-yavaş darvazaya yaxınlaşması şübhələrini artırdı. Boş çantanı yerə atıb açarı

darvazaya saldı. Elə bil hardansa naməlum ünvandan təhlükə gözləyirdi. Bundan yaxasını qurtarmaq üçün həyətə girmək istədi. Ayağının birini yenicə içəriyə salmışdı ki, kimsə arxadan səsləndi:

- Yavər müəllim, nəsə yaddan çıxıb?

Yavər Əsədli sürücü Tahiri səsindən tanısa da qulaqlarına inanmadı. Geri çevrilib gözlərini səs gələn tərəfə zillədi. Bir an əvvəl vücuduna hakim kəsilən qorxu hissi onu tərk etdi. Deyəsən, artıq lap yaxında olan sürücünü tanımışdı. Sevinc qarışıq əsəbiliklə qeyri-ixtiyari dilləndi:

- Tahir, sənsən?

- Bəli, - deyə onun narahatlığının səbəbini başa düşməyən sürücü elə narahatcasına da  cavab verdi və bir az əvvəlki sualının cavabını gözlədi.

Yavər müəllim sürücünün sualına cavab vermək əvəzinə şübhəli nəzərlərini onun qaranlıqda aydın görünməyən sifətində gəzdirərək soruşdu:

- Bura bax, sən bayaqdan burdasan?

Tahir suçlu adamlar kimi başını aşağı saldı. Bir neçə saniyəlik susqunluqdan sonra nəhayət dilləndi:

- Yox, elə bir az olar ki, gəlmişəm.

Sürücünün cavabı Yavər müəllimi qane etmədi. Əsəbi şəkildə dedi:

- Sənə dedim axı, maşından bayıra çıxmayıb, məni gözləyərsən.

Deyəsən, Tahir Y.Əsədlinin nədənsə narahatlıq keçirdiyini, şübhəli danışdığını hiss eləmişdi. O, müdirin bu şübhələrini dağıtmaq üçün bayaqkından fərqli olaraq ciddi görkəm alıb ötkəmcəsinə cavab verdi:

- Yavər müəllim, daha nə üçün əsəbiləşirsiniz, sizi çox gözlədim, gəlib çıxmadınız, mən də dözə bilmədim, narahat olmağa başladım. Əgər günahım varsa dönə-dönə üzr iştəyirəm.

Yavər bic-bic gülümsəyərək: - yox, yox, nə danışırsan, canım, mən sənin əziyyət çəkməyini istəmirdim - dedi. Və sözlərinə bir qədər ara verib əlavə etdi:

- Deyirsən bir az olar ki, gəlmisən, hə?

- Bəli, Yavər müəllim.

- Bura bax, hasardan kiminsə aşıb bayıra qaçdığını görmədin ki?

Sürücü müdirin nəyə görə narahatlıq keçirdiyinin, şübhəli-şübhəli danışdığının heç də əbəs olmadığını indi başa düşdü. “Aman Allah, bu kişi nə danışır, mən ona nə cavab verim”, - deyə öz-özünə pıçıldayıb susdu. Amma müdirin cavab gözlədiyini yadına salıb dillənməyə məcbur oldu:

- Xeyr müdir, heç kəsi görməmişəm. Nə olub ki?

Sürücünün cavabı Yavər mülləimin narahatlığını bir az da artırdı, amma özünü o yerə qoymayıb: - heç, elə-belə, yəqin gözümə nəsə görünüb - dedi. Və sürücüyə işarə verib maşına doğru irəlilədi…

●●●

Yavər Əsədli şəhərin mərkəzindəki mənzilinə çatanda təxminən gecə saat üç olardı. O, maşından düşüb sürücünün müşayiəti ilə hündürmərtəbəli evin ikinci mərtəbəsinə qalxdı. Evə gec qayıdacağını lap əvvəlcədən hesabladığı üçün tezdən mənzilin açarını da özü ilə götürmüşdü ki, geriyə dönəndə evdəkiləri narahat eləməsin. Açarı çıxarıb lap astadan mənzilin qapısına salaraq yavaşca sol tərəfə burdu. Amma dəstəkdən yapışmağa ehtiyac qalmadı. Arvadı Ceyran xanım ərinin evə dönəcəyi vaxtı son dərəcə dəqiqliyinə qədər bilirmiş kimi qapını özü açdı. Onu başdan-ayağa diqqətlə süzdü. Sanki sifətində, göz-qaşında hansısa böyük bir günahın əlamətlərini axtarırdı. Deyəsən heç nə tapa bilməmişdi. Qolundan tutub dəhlizə, ordan da darta-darta mətbəxə apardı. Nəvaziş göstərib zarafatyana soruşdu:

- Ay kələkbaz, de görüm, bu vaxta qədər hardaydın, hə?

Arvadını, həmişə özü demişkən, dünyalar qədər sevən Yavər də zarafat qarışıq ciddiyyətlə şairanə cavab verdi:

- Adı Ceyran, özü də ceyran, xanım, Yavər olsun canına qurban, canım.

Ərindən eşitdiyi bu duyğulu-sayğılı sözlər Ceyran xanımın canına yağ kimi yayıldı. Onun boynunu qucaqlayıb üzündən öpdü. Stolun üstündə hər şey hazır olsa da, Yavər müəllim ac deyildi. Çay da içmək fikri yox idi. Dedi:

- Canım mənim, içməyə bir şey var?

- Kofe, meyvə şirəsi, - arvadı cavab verdi.

Ceyran xanım sevimli ərinin istəyi ilə soyuducudan şaftalı şirəsini çıxarıb iki stəkan süzdü. Onlar bu dadlı təbii şirədən hərəyə daha bir stəkan içib yataq otağına keçdilər…

Yavər müəllimi səhər yuxusundan, yataq otağına bitişik eyvanın şüşəbəndini döyən payız yağışının şırıltısı oyatdı. Səhərə yaxın yağan yağış, tezdən hava işıqlananda qəflətən sürətlənməyə başlamış, gecədən xeyli keçəndən sonra yatdığına baxmayaraq, onu yuxudan oyada bilmişdi. Əslində Yavər müəllim nə qədər yorğun və yuxusuz olsa da, çox yatmağı xoşlayan adam deyildi. Hər səhər yuxudan erkən oyanar, hətta yüngülvari idmanla da məşğul olardı. Bu dəfə də yuxudan oyanan kimi idman paltarını geyiib eyvana çıxdı. Pəncərəni açıb başını bayıra çıxartdı. Təmiz havaya həsrət adamlar kimi bir neçə dəfə dərindən nəfəs alıb buraxdı. Artıq bir az səngiyən yağış ara-sıra içəriyə düşsə də pəncərəni bağlamadı. Elə eyvandaca başladığı idman hərəkətlərindən sonra əl-üzünü yuyub masa arxasına keçdi.

Yavər müəllim nə qədər təkid eləsə də Ceyran xanım evdə qulluqçunun xidmətindən istifadəyə razı deyildi. O, sevimli ərinin qulluğunda şəxsən özü durmaq istəyir, bundan həzz alırdı. Yavər də arvadının istəyi ilə razılaşmağa

məcbur olmuşdu. Hətta sonralar yalnız onun bişirdiyi xörəkləri yeməyə öyrəşmişdi. Bu, elə bil ona xüsusi ləzzət verirdi. Həmişə olduğu kimi, arvadının hazırladığı səhər yeməyi bu dəfə də onun xoşuna gəldi.

Əslində onu hər şeydən əvvəl üzərinə müxtəlif təamların düzüldüyü masanın xüsusi zövqlə bəzədilməsi doydurmuşdu. Amma Ceyran xanımın süfrəyə yenicə gətirdiyi qara kürü, təbii bal və kərə yağdan dadmamış işə getmək istəmədi. Əlini uzadıb çay qaşığını götürdü, qara kürüdən bir qədər ayırıb ağ çörək kəsiyinin üzərinə yaxdı. Bu vaxt qapı ehmalca döyüldü. Yavər müəllim cəld ayağa qalxıb gözlükdən baxdı. Qapını açaraq: - Gəl, ay qonşu, xoş gəlmisən - dedi. Və təkidlə onu masa arxasına dəvət etdi…

Bəhruz böyük bir müəssisənin rəhbəri olan Yavər müəllimlə ikinci il idi ki, qonşuluq edirdi. Kasıb həyat tərzi keçirən bu adam zahiri görkəmcə eybəcər olsa da, daxili aləminə görə pis adama oxşamırdı. Yalnız qeyri-harmonik quruluşlu sifəti və bir də sol yanağında sonradan yarandığı, yoxsa anadangəlmə olduğu bilinməyən girintili-çıxıntılı, diametri təxminən 8-10 mm ölçülü, üstünü adda-budda uzun tük basmış fır onu qorxunc göstərirdi. Sağ yanağında isə qulağının alt tərəfindən dodağının sağ sərhədinə qədər uzanmış çapığın, hansısa kəsici alətin izi olduğu açıq-aşkar bilinirdi. Bəhruz bir az da qaraqabaq adam idi. Bu təbii və qeyri-təbii qüsurlarla yanaşı çox da iri olmayan yupyumru gözləri də onu görəni ilk baxışdan vahiməyə salırdı.

Əlbəttə, bunlar Bəhruz kişinin zahiri əlamətləriydi. Onun bir xasiyyəti də varıydı ki, qarşılaşdığı adamın gözünün içinə baxıb diqqətlə başdan-ayağa süzərdi. Elə bil onda hansısa müsbət, yaxud mənfi xüsusiyyət axtarar, ya da zəif yerini öyrənməyə çalışardı. Amma onun bu davranışından kiməsə ziyan dəydiyini heç kəs eşitməmişdi. Bir qonşu kimi Yavər müəllim də ondan pislik görməmişdi. Bəhruz əvvəlcə imtina eləsə də onun qolundan yapışıb düz masanın yanına gətirdi. Əyləşmək üçün yer göstərib zarafatla soruşdu:

- Deyəsən qaynanan çox istəyir, hə?

Bəhruz onun nə demək istədiyini başa düşdü. İlk dəfədir ki, Yavər müəllimlə bir masa arxasında əyləşdiyinə baxmayaraq o da zarafata keçdi. Və zahiri görkəminə uyğun gəlməyən təbəssümlə cavab verdi:

- Çox istəsəydi yəqin ki, çəkib öz yanına apardı.

Həmişə qaraqabaq adam kimi tanıdığı və bir dəfə də olsun dodaqlarında təbəssüm görünməyən qonşusunun cavabı Yavər müəllimi təəccübləndirdi. Qeyri-ixtiyari dodaqları qaçdı. Özünü gülməkdən güclə saxladı. - Belə başa düşdüm ki, dünyasını dəyişib, Allah rəhmət eləsin, - dedi. Və əlavə etdi:

- Bəlkə elə çox istədiyi üçün yanına aparmır, hə?

- Bu da ola bilər, yəqin yeri cəhənnəmlikdir, məni orda görmək istəmir.

Yavər müəllim bu dəfə özünü saxlaya bilmədi. Ucadan qəhqəhə çəkib güldü. Tez də söhbəti dəyişməyə çalışdı:

- Hə, di başla görək, mənimlə bir tikə çörək kəsəcəksən, ya yox?

Bəhruz süfrəyə gözaltı nəzər salıb köks ötürdü. Başını qaldırmadan mətbəxi də gözdən keçirdi. Yüngülcə içini çəkdi. Sonra əlini uzadıb lavaşdan bir tikə kəsdi. Çay qaşığı ilə balıq kürüsündən az miqdarda götürüb onun arasına qoyaraq ilk dəfə dadına baxdı. Ancaq bunu ikinci dəfə təkrar etməyə sanki utandı. Əvəzində təmiz beçə balından və kərə yağından bir qədər götürərək təndir çörəyinin üzərinə yaxıb iştaha ilə dişlədi. Bu minvalla masanın üzərindəki təamların hərəsindən bir az daddı. Yediklərinin üstündən bir fincan kofe içməyi də unutmadı. Sonra asta-asta ayağa qalxıb getmək istədi. Yavər müəllim ilk dəfədir ki, evinə ayaq basan qonşunun nə üçün gəldiyini soruşmağa utandı, amma "bəlkə onun nəyəsə ehtiyacı var", - deyə fikirləşdi. Nəhayət çıxa-çıxda, lap qapının ağzında soruşdu:

- Qonşu, bəlkə mənimlə başqa işin var, hə, yoxsa..?

Bəhruz nə cavab verəcəyini bilmədi. Bir qədər duruxdu. Elə qapının ağzındaca mənzili oğrun-oğrun gözdən keçirib cavab verdi:

- Xeyr, Yavər müəllim, başqa işim yoxdur. Bir ildən çox olar ki, qonşuluğumuza köçmüsünüz, amma hələ bir-birimizlə tanış olmağa imkan tapmamışıq. Bu, binada çoxdan yaşayan adam kimi mənim günahımdır...

- Yox, yox, nə danışırsınız, - Yavər müəllim onun sözünü kəsdi. - Qonşuların nə qulluğu olsa imkanımız daxilində həmişə hazırıq.

Bəhruz adəti üzrə onu başdan-ayağa süzərək: - Allah sizdən razı olsun, - deyib mənzili tərk etdi.

●●●

Artıq saat doqquzun yarısı idi. Sürücü Tahir binanın qarşısında gözləyirdi. Yavər müəllim paltarlarını dəyişib qonşusunun arxasınca evdən çıxaraq həyətə düşdü. Ora-bura göz gəzdirdi. Onu gözləyən "Bugattı"dan beş-altı metr kənarda şlyapası az qala gözlərinin üstünə düşən qara eynəkli, orta boylu bir adam asta-asta var-gəl edir, sanki səbirsizliklə kimisə gözləyirdi. Boz rəngli nimdaş gödəkcə geyinmiş uzun qara saçlı həmin adam qəflətən yerində dayanıb cib dəftərçəsini çıxardaraq nəsə kiçik qeydiyyat apardı. Ardınca mobil telefonunu əlinə götürüb gözünün bərabərinə qədər qaldırdı. Kiminsə, yaxud nəyinsə şəklini çəkməyə hazırlaşırmış kimi dayandığı yerdəcə təxminən doxsan dərəcəli bucaq altında yavaş-yavaş fırlanaraq yenidən geri dönüb əvvəlki vəziyyətə qayıtdı.

Bayaqdan bu qəribə və anlaşılmaz səhnəni oğrun-oğrun müşahidə edən Yavər müəllim ilk baxışdan bir az dəlisov adama bənzəyən həmin şəxsi həyətdə ilk dəfə idi ki, görürdü. Əgər zəndi onu aldatmırdısa yaşadığı binada belə görkəmdə adam

yox idi. Onun hərəkətləri də şübhəli adam təsiri bağışlayırdı. Yavər müəllim "Bugattı"ya yaxınlşıb onu gözləyən sürücü ilə görüşdü. Eynəkli adamın şəxsiyyəti ilə maraqlandı. Tahir başını bulayıb astadan, həm də açıq-aşkar hiss olunan həyəcanla dilləndi:

- Bu adamın hərəkətlərinə bayaqdan mən də fikir verirəm, amma sözün düzü, heç nə anlamıram.

Yavər müəllim dedi:

- Bəlkə gedib maraqlanasan, kimdir, nəçidir, nə axtarır?

Sürücü etiraz etmədi. Amma elə bil nədənsə ehtiyatlanırmış kimi tənbəl-tənbəl ona tərəf irəlilədi. Bərabərinə çatıb əl tutuşdu. Təqribən iki-üç dəqiqə ərzində onunla nəsə danışıb geri qayıtdı. Yavər müəllimin sualını gözləmədən sağ əlinin şəhadət barmağını gicgahına qoyaraq:

- Deyəsən, başdan xarabdır, ruhi xəstəyə oxşayır, fikir verməsək daha yaxşıdır, - dedi.

Yavər müəllim daha bir söz deməyib, maşının qapısını açdı. Salona əyləşməzdən əvvəl adəti üzrə yaşadığı mənzilin eyvanına boylandı. Bayaqdan həyətdə baş verənləri izləyən və bundan narahat olan Ceyran xanım eynəkli adamın surətini fotokameranın yaddaşına köçürmüşdü. O, əlini yelləyib əri ilə sağollaşdı. "Bugattı" yavaş-yavaş sürət götürüb gözdən itdi…

Onlar şəhərdən xeyli kənarda yerləşən hündür hasarlı, həyəti istirahət parkını xatırladan güllü-çiçəkli, əsasən küknar, tozağacı və çinar ağaclarından ibarət bir sahəyə çatanda saat 10-nun yarısı olardı. Təxminən beş yüzə yaxın adamın işlədiyi, öz ruzisini tapdığı bu yer Yavər Əsədlinin rəhbərlik etdiyi daş karxanası, daha doğrusu, müəssisənin inzibati binası və onun həyəti idi. Binanın arxa tərəfində, ortaq hasarla iki hissəyə ayrılmış digər geniş sahədə isə karxanının özü yerləşirdi. Karxanada çalışan işçilərin işdən sonrakı rahatlığından ötrü hər cür şərait yaradılmış, karxana ərazisində hamam tikilib istifadəyə verilmişdi. Müəssisədə çalışanlar pulsuz nahar yeməyi ilə də təmin olunmuşdular. Yavər müəllimin tələbkarlığı ilə yanaşı, onun alicənablığı, karxananın hər bir işçisinə qayğı ilə yanaşması, onların problemlərinin həllini diqqət mərkəzində saxlaması hamını ruhlandırır, hər kəsi öz üzərinə düşən vəzifənin öhdəsindən gəlməsi üçün ürəkdən işləməyə həvəsləndirirdi.

İndi də karxanada qızğın iş gedirdi. Yavər müəllim maşından düşərək iş otağına getmədən birbaşa ora yollandı. Hər kəs öz işi ilə məşğul olurdu. Müəssisə rəhbərinin gəldiyini görən iş icraçıları bir-bir ona yaxınlaşıb işin gedişi barədə məlumat verdilər. Onlardan yalnız biri, karxanada ən yaxşı mütəxəssis hesab olunan, elə buna görə də Əsədlinin xüsusi etimadını qazanmış iş icraçısı Cahangir Ağabəyli işə gəlməmiş, bu barədə müəssisə rəhbərinə məlumat verməmişdi. Yavər müəllim bundan çox bərk narahat oldu. Mobil telefonunu çıxararaq müavini Cabir

Tağızadəyə zəng vurdu. İş icraçısının nəyə görə işə gəlməməsinin səbəbini soruşsa da qaneedici cavab almadı. İş icraçılarının telefon nömrələrini siyahısına baxmaq üçün dərhal geriyə - öz iş otağına qayıtdı.

Müavinin kabineti binanın giriş qapısından içəriyə daxil olan kimi lap birinci otaqda yerləşirdi. Yavər müəllimin kabineti isə altıncı otağın tinindən soldakı geniş dəhlizdə iclas zalı ilə üzbəüz otaqda idi. O, giriş qapısını keçib sürətlə öz iş otağına doğru irəlilədi. Altıncı otağı keçib sola baxanda təəccübündən donub qaldı. Kabinetin qapısı tam açıq vəziyyətdə idi. Tələsik içəriyə daxil olub ora-bura nəzər yetirdi. Masanın üzərində heç bir dəyişiklik baş verməmişdi. Kitab rəfində də ilk baxışdan dəyişiklik nəzərə çarpmırdı. Dərhal yadına otağa daxil olanda heç kəsin diqqətini cəlb etməyən yerdə - rəfin sol tərəfi ilə divarın arasında qoyulmuş kiçik həcmli seyf düşdü. Cəld irəli atılıb baxdı. Seyf yerində idi. Bir az sakitləşsə də açıb içərisinə baxdı. Seyfdə saxladığı möhür də, beş min manata yaxın pul da necə qoyulmuşdusa, eləcə də dururdu. Hər şeyin öz yerində olması onu təəccübləndirdi.

Yavər müəllim divanda əyləşib bir qədər nəfəsini dərdi. Əlini uzadaraq yaxınlıqdakı telefon kitabçasını götürdü. Vərəqləyib Cahangirin nömrəsini tapdı. Bir neçə dəfə cəhd göstərsə də iş icraçısının telefonuna zəng çatmadı. Qapını bağlayıb geriyə qayıtdı. Müavinin iş otağına daxil olaraq salam verib əyləşdi. Əvvəlcə həyəcanını boğmağa çalışdı. Amma bacarmadı. Cabir Tağızadə onun təlaş keçirdiyini dərhal hiss edib soruşdu:

- Yavər müəllim, birtəhər görünürsüz. Nəsə baş verib?

- Düzünü deyim ki, hə. İş icraçısı Cahangir Ağabəyli işə gəlməyib, telefona da zəng çatmır. Bilmirəm, nə məsələdir, - deyə müəssisə rəhbəri cavab verdi.

- Sizə bir söz deməyib ki? - Tağızadə soruşdu.

- Doğrusu, məni də təəccübləndirən budur, - Yavər müəllim dedi. - Amma daha təəccüblüsü odur ki, dünən bağlayıb getdiyim iş otağımın qapısı indi açıqdır.

Tağızadə bir anlığa başını aşağı salıb fikrə getdikdən sonra:

- Yəni qapını səhər tezdən özünüz açmamısınız? - deyə soruşdu.

- Yox, - Yavər müəllim qətiyyətlə bildirdi. - Ancaq maraqlıdır ki, heç nəyə əl dəyilməyib.

- Çox maraqlıdır, mən səhər işə gələndə saat 10-a 10-15 dəqiqə işləmiş olardı. Əvvəlcə sizə baş çəkmək istədim. Qapı açıq olsa da içəridə heç kəsi görmədim, fikirləşdim ki, bəlkə karxanada, işçilərin yanında olarsınız. Amma indi siz… Heç bilmirəm nə deyim, bəlkə dünən qapını bağlamağı unutmusunuz? Axı dediniz ki, heç nəyə əl vurulmayıb.

- Yox, yox, əlbəttə yox, nə danışırsız, ola bilməz… - Müəssisə rəhbəri inamsız-inamsız cavab verdi. - Amma siz demişkən, hansısa oğurluq faktının olmaması məni düşünməyə vadar edir.

Bununla da söhbət bitdi. Onlar nə sürücüdən, nə iş icraçılarından, nə də qarovulçulardan bu haqda qaneedici cavab ala bilmədilər. Müəssisə rəhbərinin kabinetinin qapısının müəmmalı şəkildə açıq qalması, amma otaqda hər şeyin öz yerində olması elə müəmma olaraq qaldı. Həmin gün işin sonuna qədər iş icraçısından da səs-soraq çıxmadı…

Cahangir işə hamıdan əvvəl gəlmişdi. O, idarə binasının darvazasından təxminən əlli metr kənarda - avtobus dayanacağında düşüb həyətə, ordan da binanın giriş qapısından içəriyə daxil oldu. Amma çox yubanmadı. Heç on dəqiqə çəkmədi ki, yenidən geriyə qayıtdı. Darvazadan bayıra çıxaraq dayanacağa tərəf üz qoydu.

İş icraçısı on beş-iyirmi addım aralanmışdı ki, şəhər tərəfdən gələn "Mercedes" markalı yaşıl rəngli, qara şüşəli avtomobil düz onun yanında əyləci basdı. Yaxın ətrafda heç kəs gözə dəymirdi. Dayanacaqda da adam yox idi. İki nəfər maskalı şəxs avtomobildən düşüb qarşısını kəsdi. Səsini çıxarmağa imkan verməyib, ağzına dəsmal basaraq maşına oturtdu, qollarını qandallayıb başına torba keçirdi. "Mercedes" bir az irəlidəki dairədən dönüb geriyə qayıtdı. İdarə binasının həyət darvazasının yanında dayandı. İçəridən başqa bir nəfər düşüb həyətə girdi. İti addımlarla binanın giriş qapısından içəriyə daxil olub birbaşa Yavər müəllimin kabinetinə tərəf getdi. Əvvəlcə qapıya güclü bir təpik vurmaq istəsə də ayaq saxladı. Əli ilə yoxladı. Qapı açıq idi. İçəriyə girib diqqətlə o tərəf bu tərəfə baxdı. Birdən ağlına nə gəldisə qaça-qaça geriyə qayıdıb "Mercedes"ə oturdu. Avtomobil dərhal yerindən tərpəndi. Sürətini artırıb şəhərə doğru istiqamət götürdü. Amma bütün bunlardan qarovulçunun xəbəri olmamışdı.

●●●

Karxanada növbəti iş günü başa çatmış, hamı iş yerini tərk etmişdi. Yavər müəllim isə müavinlə birlikdə iş yerində idi. Səhər qarşılaşdıqları mənzərə hələ də gözlərinin qarşısından çəkilməmiş, onları mat qoymuşdu. Bir yandan da Cahangirin yoxa çıxması onların rahatlığını pozmuşdu. Cabir Tağızadə sonuncu dəfə cəhd göstərib iş icraçısına zəng vursa da nəticəsi olmadı. O, Yavər müəllimin məsləhəti ilə şəxsi avtomobilinə oturaraq iş yerini tərk etdi.

Tapşırıq arxasınca şəhərə gedən sürücü Tahir də hələ gəlib çıxmamış, Yavər müəllim tək qalmışdı. O, idarənin həyətində oturub dərin fikrə getmişdi. Kabinetinin qapısının hansı səbəbdən açıq qaldığını yadına salmağa çalışsa da heç nə xatırlaya bilmirdi. Onu xəyaldan sürücünün gur səsi ayırdı:

- Salam, Yavər müəllim. Cahangirdən bir xəbər çıxmadı ki?

- Hələ ki yox, - müəssisə rəhbəri cavab verdi. - Gəl gedək otağa baş çəkək, Cahangirlə əlaqə saxlamağa bir dəfə də cəhd edərik, bəlkə nəsə alındı.

Onlar ikilikdə kabinetə gəldilər. Qapını açıb içəriyə girər-girməz, sürücünün gözü masanın altındakı kağız parçasına bənzər kiçik ölçülü əşyaya sataşdı: - Yerə nəsə düşüb, Yavər müəllim, - deyə müəssisə rəhbərinin üzünə baxdı. Və yeriyib həmin əşyanı qaldırdı. Təşvişlə ona göstərərək:

- Baxın, Cahangirin vəsiqəsidir - dedi.

Yavər müəllim vəsiqəni alıb baxdı. Təəccüb və həyəcanını gizlətməyə çalışdı, amma bacarmadı. Vəsiqə həqiqətən də yoxa çıxan iş icraçısına məxsus idi. - Burda nəsə baş verib, - deyə düşündü. Həmişə etibar etdiyi iş icraçısından ilk dəfə olaraq şübhələnməyə başladı. Tələsik telefonunu çıxarıb sonuncu dəfə cəhd göstərdi. Xəttin o başından son dərəcə əzgin adamın səsini xatırladan zəif səs eşidildi. Maskalı şəxslər Cahangirin telefonunu özünə qaytarıb yenicə azad etmişdilər. Və onu bərk-bərk tapşırmışdılar ki, bu haqda heç kəsə bir söz deməsin. Əks halda hədə-qorxu gələrək yenidən oğurlayıb dəhşətli işgəncələrlə qətlə yetirəcəkcərini demişdilər. Ona görə də iş icraçısı Yavər müəllimin səsini eşitcək narahat oldu. Naməlum quldurların hədəsi öz işini görmüşdü. O, müəssisə rəhbərinə nə cavab verəcəyini kəsdirə bilmədi. Amma öz telefonunu həmişə ona hörmətlə yanaşan bu adamın üzünə qapatmağı da vicdanına sığışdırmadı. Zəif səslə:

- Bəli, Yavər müəllim, eşidirəm sizi, eşidirəm - dedi.

Cahangirin səsinin tonu müəssisə rəhbərinin narahatlığını bir az da artırdı. Səhər tezdən üzləşdiyi qapı müəmmasından və iş icraçısının vəsiqəsinin kabinetdə tapılmasından sonra yaranan həyəcanı artıq başqa hisslər üstələmişdi. Yavər müəllim indi öz işçisinin sağlıq durumundan narahatlıq keçirirdi. Odur ki, elə birbaşa səhhəti ilə maraqlandı:

- Nəsə səsin birtəhər gəlir, naxoş-zad deyilsən ki?

- Bərk xəstələnmişəm, - deyə Cahangir yalan danışmaqla çətin vəziyyətdən çıxmağa çalışdı. - Çox üzr istəyirəm, sizə məlumat vermək imkanım olmadı.

Müəssisə rəhbəri ona inanıb halına acısa da, iş otağından tapdığı vəsiqəni yenidən gözlərinin önünə gətirdi. Şübhələr yavaş-yavaş içini didib-dağıtmağa başladı. Amma bu haqda iş icraçısına bir söz demədi. Eləcə: - özündən muğayat ol, səhhətin tam qaydasına düşəndə işə çıxarsan, - deyib telefonu söndürdü.

Yavər müəllim sürücü ilə birlikdə otaq-dan çıxıb qapını bağladı. Giriş qapısından bayıra çıxhaçıxda dayanıb bir neçə saniyə fikrə getdi. Yaddaşı zəifləmiş adamlar kimi, deyəsən, iş otağının qapısını bağladığını unutmuşdu. Geri qayıdıb əli ilə yoxladı. Tam əmin olandan sonra həyətə çıxıb çinar ağacının altında oturan gözətçilərə ehtiyatlı olmağı tapşırdı. "Bugattı"ya əyləşib karxananı tərk etdi. Onun hərəkətləri, xüsusən də vəsiqə barədə Cahangiri sorğu-suala çəkməməsi sürücüyə qəribə gəlsə də bu haqda heç nə danışmadı.

●●●

Yaşadıqları binanın həyətində səhər tezdən özünü qəribə aparan nimdaş gödəkçəli naməlum adamın hərəkətləri Ceyran xanımı rahat buraxmırdı. O, tez-tez üzü asfalta tərəf baxan eyvana çıxır, həmişəkindən daha böyük səbirsizliklə ərini gözləyirdi. Artıq saat doqquzun yarısı idi. Hava çoxdan qaralmışdı. Adətən axşam saat 8-ə yaxın evdə olan Yavər müəllim hələ də gəlib çıxmamışdı.

Daha yarım saat gözlədikdən sonra Ceyran xanımın səbri tamam tükəndi. Narahatçılığı getdikcə artmağa başladı. Ərini qısqanan bəzi xanımlar kimi tez-tez zəng vurmağı xoşlamasa da, səhər-səhər baş verənləri xəyalında dolandırıb telefonu əlinə götürdü. İlk cəhddə Yavər müəllimin telefonuna zəng çatmadı. Arvadın az qala bağrı yarılacaqdı. İki-üç dəqiqə fasilə verib yenidən zəng vurmağa başladı. Xoşbəxtlikdən budəfəki cəhd nəticə verdi. Yavər Əsədli Ceyran xanımın səsindəki həyəcanı dərhal duyaraq:

- Hə, əzizim, darıxma, çox keçməz ki, evdə olaram, - deyə onsuz da həlim olan səsinə bir az da şirinlik qatdı. Və dərhal da soruşdu:

- Evə nəsə lazımdır? Nəsə almağa ehtiyac var?

- Yox, yox, əzizim, evdə çatışmayan təkcə sənsən, - deyə Ceyran xanım eyni şirinliklə cavab verdi.

Onların söhbəti burda bitdi. Əri ilə əlaqədən sonra Ceyran xanımın narahatlığı müvəqqəti də olsa ötüb keçdi. Yavər müəllim isə, ağlına nə gəldisə yolda qəflətən fikrini dəyişib dəniz kənarındakı bağ evinə baş çəkmək istədi. Sürücü bir az irəlidəki dairəyə çatıb istiqaməti dəyişdi.

"Bugattı" şəhərdən kənara çıxıb yüksək sürət götürmüşdü. Yolda çox seyrəklik idi, nəqliyyatın hərəkətində sıxlıq müşahidə olunmurdu. Müəssisə rəhbərinin istəyilə Tahir sürəti bir az da artırdı. Mənzil başına yetişməyə cəmi bir neçə kilometr qalırdı. Yavər müəllim nə qədər çalışsa da səhər-səhər karxanada gördüklərini, Cahangirlə bağlı anlaşılmazlığı başından çıxara bilmirdi. Üstəlik, arvadıyla telefon əlaqəsindən sonra yaşadığı binanın qarşısındakı eynəkli adamın şübhəli hərəkətləri yadına düşmüşdü. Sürücünün onu anormal adam kimi təqdim etməsinə də artıq şübhə ilə yanaşmağa başlamışdı.

Avtomobilə əyləşəndə həmişə ətrafı xüsusi zövqlə seyr edən Yavər müəllim indi tamam fərqli əhval-ruhiyyədə idi. Gözləri bayıra baxsa da fikrini başqa yerə cəmləmişdi. Yalnız bugünkü günün uğursuzluğu barədə düşünürdü. Bu fikirlər xəyalını o qədər məşğul etmişdi ki, sürücünün arabir ona müraciətini də eşitmirdi. Onu dərin fikirlərdən Tahirin asfalt yolda sürətlə şütüyən maşını qəflətən yolun sağına çıxararaq əyləci basması nəticəsində yaranan tükürpədici səs ayırdı. "Bugattı" 3-4 metr sürüşərək dayandı.

Nə baş verdiyini anlamayan Yavər müəllim sanki yerində donub qalmışdı. Tahir başını pəncərədən bayıra çıxarıb bir az irəlidə dayanan "Mercedes" markalı

avtomobilin sürücüsünün qarasınca ucadan deyindi. Yalnız bundan sonra Yavər müəllim hər şeyi başa düşdü. Yerə düşüb “Mercedes”ə tərəf gedərək:

- Bu nə oyundu çıxarırsan, a bala? - deyə sürücünün üstünə qışqırdı.

“Mercedes”dən bazburutlu, iri başlı, ölçüsünə görə boynu başından o qədər də fərqlənməyən, saçı dibdən qırxılmış, təxminən 33-35 yaşlarında bir kişi çıxdı. Ağır-ağır ona tərəf gəldi. Yavər müəllimin sözləri onu möhkəm əsəbiləşdirsə də, nədənsə səbrini basdı. Ədalı-ədalı yalnız: - Bir az ehtiyatlı danış, ağsaqqal, - dedi. Sonra da sanki heç nə olmayıbmış kimi istehza ilə əlavə etdi:

- Nə olub ki, belə səsini başına atmısan, ölən var, yoxsa maşın əzilib?

Tahir özünü saxlaya bilmədi:

- Daha bundan artıq nə olmalıdır, öz yolunla gedə bilmirsən? - deyə cavab verdi.

“Mercedes”dən düşən adam bu dəfə özündən çıxaraq:

- Sən sus, kişi, görürsən ki, mən ağsaqqalla danışıram, - dedi. Və dərhal da səsinin tonunu aşağı salaraq Yavər müəllimdən bir neçə dəfə üzr istədi.

Yavər müəllim qarşısındakı adamın davranışının müəmmalı dəyişikliyindən bir şey anlamasa da qaranlıqda başını bulayıb astadan güldü. - Yaxşı, yaxşı, lənət şeytana, get - deyərək geriyə dönüb maşına əyləşdi. Sürücü də dərhal sükan arxasına keçərək “Bugattı”nı işə saldı. On beş dəqiqədən sonra onlar artıq bağ evinin lap yaxınlığında idilər. Yavər müəllim adəti üzrə maşını xeyli kənarda saxlatdırıb yerə düşdü. Ordan evə qədər təxminən 60-70 metr olardı. Sürücüyə elə ordaca gözləməyi tapşırıb yoluna davam etdi.

Müəssisə rəhbəri bağ evinə bu dəfə əli boş gəlmişdi. Bərk-bərk kilidlənmiş darvazanı açıb həyətə girdi. Bu dəfə yan-yörəsinə baxmadan iti addımlarla evin birinci mərtəbəsinin əsas qapısını açıb içərini əlüstü nəzərdən keçirdi. Hər şey yerində idi. Qapını bağlayıb ikinci mərtəbəyə qalxdı. Otaqları yüngülcə bir-bir yoxlasa da dəyişiklik hiss etmədi. Ardınca seyfin yerləşdiyi kiçik otağa keçdi. Seyfin qapısını açıb diqqətlə baxdı. Orda da hər şey ötən dəfə qoyub getdiyi vəziyyətdə idi.

Artıq nigarançılığı arxada qalan Yavər müəllim bir-iki dəqiqə kresloda oturub rahat nəfəs aldı. Ayağa qalxıb seyfin qapısını bərk-bərk bağlayaraq ikinci mərtəbənin giriş qapısına qədər getdi. Birdən bu səhər iş otağının qapısı ilə bağlı qarşılaşdığı və hələ də araşdırıb bir tərəfə çıxarmadığı mənzərə yadına düşdü. Qayıdıb seyfin qapısını təkrar yoxladı. Bağladığına əmin olub geriyə döndü. Giriş qapısını da bağlayıb əlləri ilə bir neçə dəfə yoxladı. Eyni qayda ilə birinci mərtəbənin də girişini təkrar nəzərdən keçirdi. Saatına baxdı. - İndi Ceyran xanım yəqin ki, bərk narahatdır, - deyə fikirləşdi. Sürətlə darvazaya doğru getdi. Həyət qapısına çatmağa az qalmış o qədər də parlaq olmayan Ay işığında gözünə yenə də

qaraltı sataşdı. Amma qaraltı bu dəfə çox kiçik, həm də tamam hərəkətsiz vəziyyətdə idi.

Yavər müəllim yaxınlaşıb bir neçə saniyə baxdı. Əyilib gecə vaxtı ilk baxışdan əsgi parçasını xatırladan bu əşyanı əlinə götürdü. O tərəf bu tərəfə çevirib diqqətlə nəzərdən keçirdi. Üstündə ağ-qara zolaqları olan tünd göy rəngli dimdikli papağı görəndə diksindi. Eynilə sürücü Tahirin papağına bənzəyirdi. Gözlərinə inanmadı. Özünü danlayaraq: - Papaq papağa oxşayar da, bir gör mən nə fikirləşirəm, - deyə öz-özünə deyindi. Ani fikrə gedib qəti qərara gəlməyə çalışdı: - Çox qəribədir, Tahirin papağı həmişə ya maşında, ya da başında olardı, amma mən bu gün onu heç görməmişəm - dedi.

Şübhələr Yavər müəllimi rahat buraxmırdı. O, papağı büküb gödəkcəsinin cibinə basdı. Həyət qapısını bağlayıb sürətlə maşına tərəf götürüldü. "Bugattı"ya çatanda narahatlığını gizlədib özünü şən göstərməyə çalışdı. Maşına əyləşdi. Getdik, - deyə sürücüyə göstəriş verdi. Amma papaq barədə ona heç nə bildirmədi.

●●●

Yavər müəllimin yolunu gözlədiyi hər bir dəqiqə Ceyran xanıma saat, hətta gün qədər uzun gəlirdi. Vaxt ötdükcə ağlına pis fikirlər gəlir, ərinin hansısa qorxunc hadisə ilə üzləşdiyini düşünür, tez-tez eyvana çıxıb yola baxırdı. Artıq səbri tükənmişdi, gecə saat 11-ə qalırdı. Telefonu götürüb nömrəni yığsa da, fikrindən daşındı, qaytarıb yerinə qoydu. Başı qarışsın deyə, fotokameranı götürüb yaddaşındakı şəkillərə baxmağa başladı. Özünü qəribə aparan nimdaş gödəkcəli adamın səhər tezdən çəkdiyi şəklinə rast gələndə onu tər basdı. Fotokamera əlindən divanın üstünə düşdü. Bu anda qapı astadan döyüldü. - Yəqin Yavərdir, - deyə sevincək qapıya cumdu.

Ceyran xanım yanılmamışdı. Gələn Yavər müəllim idi. Qapını açıb yenə də zarafat qarışıq ciddiliklə onu məzəmmət etməyə başladı:

- Hardasan, a balam, gəl çıx da, ürəyimiz üzüldü ki.

Bu gün üzləşdiyi xoşagəlməz hadisələr həmişə şən ovqatlı Yavər müəllimin əhvalında ciddi dəyişiklik yaratsa da bunu arvadından gizlətməyə çalışdı. Elə qapının ağzındaca cavab verdi:

- Sən nigaran qalma, əzizim, mənə heç nə olmaz, bir də ki, iş adamıyıq də, harasa getməli olur, nəticədə işə də, evə də - Yavər müəllim sonuncu sözü xüsusi intonasiya ilə dedi - gecikməli oluruq.

Ceyran xanımın deməyə sözü olsa da söhbəti çox uzatmaq istəmədi. O, axşam yeməyini çoxdan hazırlasa da, hələ şam eləməyib, ərini gözləyirdi. Yavər müəllim də bərk acmışdı. Gödəkcəsini çıxarıb divanın üstünə atdı. Yüngülcə yuyunub mətbəxə keçdi. Yeməkdən dərhal sonra süfrəyə çay gəldi. Ceyran xanım elə masa

arxasındaca bayaqkı söhbətini davam etdirmək, nahaq yerə nigaran qalmadığını ərinə bildirmək istədi:

- Bilirsən, ay Yavər, mən narahatam. Həm də elə iş adamı olduğun üçün narahatam, - dedi. - Bura bax, səhər işə gedəndə həyətdə özünü qəribə aparan qara eynəkli, boz gödəkcəli adam kim idi?

Yavər müəllim arvadının nahaqdan narahatçılıq keçirmədiyini indi anladı. Onu sakitləşdirmək istədi. Bu məqsədlə guya həmin adamı şəhərin ayrı-ayrı yerlərində də tez-tez gördüyünü, ağıldankəm olduğunu, hərəkətlərinə nəzarət edə bilmədiyini dedi. Amma Ceyran xanımı tam inandırmaqdan ötrü onun özü də bu anda nə edəcəyini dəqiqləşdirə bilmədi. Arvadının eynəkli adamın müəmmalı hərəkətlərini dəqiq izləməsi onu çaşqın vəziyyətə salmışdı. O, özünü toparlayıb daha inamlı izahat verməyə çalışdı. Əvvəlcə:

- Bura bax, o adamı ilk dəfədir ki, görürsən? - deyə soruşdu.

- Hə, hə, birinci dəfə görürəm. Nəyə görə soruşursan ki? - Ceyran xanımın narahatçılığı bir az da artdı.

Yavər müəllim sonuncu sualı nahaq yerə verdiyini indi anladı. Düşdüyü çətin vəziyyətdən çıxmağa çalışdı. Qəflətən qəh-qəhə çəkib elə güldü ki, arvadı da qeyri-ixtiyari ona qoşuldu. Yavər istəyinə nail olduğunu düşünüb, pis fikirləri Ceyran xanımın başından birdəfəlik qovmaq üçün gülüşünə ara verib asta-asta söhbətinə davam etdi. Dedi:

- Ay sağ olmuş, ömrümdə hələ bu qədər gülməmişdim. O adam doğrudan da ağıldan seyrəkdir. Əgər izləyirdinsə yəqin görmüş olarsan, Tahir də onunla məzələnirdi. Allah səni saxlasın, gör kimə görə narahat olursan…

Yavər müəllim sözünə bir az ara verib əlavə etdi:

- Öz aramızdır, hərəkətləri adamı əyləndirir, buralara tez-tez gəlsəydi…

Ceyran xanım daha bir söz demədi. Deyəsən, ərinin izahatı, eynəkli adam barədə uydurduqları öz işini görmüş, arvadı inandırmış, xeyli sakitləşdirmişdi. Amma Yavər müəllimin özü hələ də narahatlıq içərisində idi. Eynəkli adamın səhər tezdənki hərəkətlərinə əhəmiyyət verməsə də, həmin gün üzləşdiyi mənzərələr onda bu adam haqda artıq başqa fikirlər oyadır, müəssisə rəhbəri həmin hadisələr arasında hansısa əlaqə axtarmağa çalışırdı.

Ərinin gerçəkdən hansı ovqatda olduğunu bilməyən Ceyran xanım onu üzücü fikirlərlə baş-başa qoyub otaqlardan birinə keçdi. Bir azdan əlində rəqəmsal fotokamera geri qayıtdı. Arvadına gözaltı nəzər salan Yavər müəllim onun yaxşı fotoqraf və rəssam olduğunu, ən müxtəlif vəziyyətlərdə şəkil çəkməyi xoşladığını, hələ gənclik illərində bir neçə dəfə mükafat aldığını, təltif edildiyini bilirdi. O, özünü görməzliyə vurdu, necə oturmuşdusa eləcə də dayanıb gözlədi. Amma Ceyran xanım onun şəklini çəkmək fikrində deyildi. Fotokameranın yaddaşındakı şəkillərdən birini ekrana gətirdi. Ərinə göstərərək:

- Bu adam sənə tanış gəlir? - deyə soruşdu.

Yavər müəllim ayağa qalxıb fotokameraya tərəf əyildi. Qara eynəkli, nimdaş gödəkcəli adamın surətini görəndə onsuz da bayaqdan gərginlik içərisində olan vücudu bir az da mənfi enerji ilə yükləndi. Fotokameranı əlinə aldı. Ceyran xanımın səhər tezdən çəkdiyi kadrları bir-bir dəyişdikcə iç dünyası təlatümlü dəniz kimi çalxalandı sanki. Bədənini soyuq tər basdı. O, özünə deyil, bayaqdan güclə sakitləşdirdiyi arvadına görə narahatlıq keçirirdi. Nəhayət birtəhər özünə gəldi. Rahat nəfəs alaraq təmkinlə soruşdu:

- Bu nədir, ay Ceyran, fotokameranın yaddaşını tanımadığımız hansısa bir zırramanın şəkilləri ilə yükləmisən? Yəni o ağıldankəmi doğrudanmı bu qədər təhlükəli hesab edirsən, yoxsa..?

- Elə şəklini də tanımadığımız üçün çəkmişəm, - deyə Ceyran xanım cavab verdi. - Fikir vermədin, özünü necə aparırdı? Necə deyərlər, şər deməsən, xeyir gəlməz, birdən lazım olar. Zərər yoxdur, qoy dursun kameranın yaddaşında.

Yavər müəllim arvadı ilə razılaşmalı oldu. Ceyran xanım fotokameranı qaytarıb yerinə qoydu. Ərinin gödəkcəsi hələ də divanın üstündə idi. Götürüb paltar şkafına qoymaq istədi. Təsadüfən gödəkcənin ətək tərəfi əlinə keçdi. Qəflətən yuxarı qaldıran kimi yan cibdən nəyinsə döşəməyə düşdüyünü gördü. Əyilib götürdü. Papaq olduğunu görüncə uğunub getdi. Lap hündürdən gülə-gülə mətbəxə qayıtdı. Papağı ərinə göstərərək təəccüblə soruşdu:

- Bu nədir, ay Yavər, indi də cibində papaq gəzdirirsən?

Ceyran xanımın, papağı bu vəziyyətdə tapması Yavər müəllimin heç də ürəyindən olmadı. O, sürücünün papağını arvadına göstərmək istəmirdi. Amma artıq gec idi. Ceyran xanım da həmin məşhur papağı bir neçə dəfə Tahirin başında görmüşdü. Yavər müəllimin isə arvadına qarşı səmimi münasibəti onu aldatmasına imkan vermədi. Üstəlik qara eynəkli naməlum adamın fotosurətinin kameranın yaddaşında saxlanması ilə bağlı Ceyran xanımın verdiyi təklif ağlına batmışdı deyə, papaq məsələsini açıb ona danışmağı üstün tutdu. Və onunla məsləhətləşərək bu barədə sürücüyə heç nə bildirməyib, papağı bir müddət evdə saxlamaq qərarına gəldi.

●●●

Naməlum adamlar tərəfindən oğurlanan Cahangir, həmin hadisədən sonra güclü sarsıntı keçirimişdi. Bir neçə gündən sonra onun sağlıq durumu yavaş-yavaş qaydasına düşsə də işə çıxmağa tələsmirdi. Səhhətində ciddi problemlər olmasa da son vaxtlar özünü çox qəribə aparırdı. Nahar yeməyindən sonra evdən çıxar, payız fəslinin mülayim havasında dəniz kənarına gedər, şər qarışanda evə dönərdi. Bəzən

səhhəti ilə maraqlanan iş yoldaşlarının telefon zənglərinə də cavab vermir, onlarla münasibətləri yavaş-yavaş, tədricən kəsməyə çalışırdı.

Günlər keçdikcə iş icraçısının qəribə davranışı, xarakterindəki nəzərəçarpan müəmmalı dəyişiklik onun iş yoldaşlarında şübhə oyadır, hamını bunun səbəbləri maraqlandırırdı. Ancaq heç kəs indiyə qədər həlim xasiyyətli, səmimi, mehriban insan kimi tanıdığı bu adamın xəyanətinə, hansısa günah işlədəcəyinə inanmaq istəmirdi. Hətta bir çoxları bunu psixi pozğunluq kimi qəbul edir, ona yazığı gəlir, halına acıyırdı. Hər şeydən xəbərsiz olan Cahangir isə öz işində idi. Artıq səhhəti də tam normallaşmışdı.

İş icraçısı növbəti həftənin bazar günü yenə də dəniz kənarına çıxmışdı. O, yenicə istifadəyə verilmiş karuselin çox maraqlı hərəkətinə tamaşa edən kütlənin içərisinə girdi. Qəflətən ağlına nə gəldisə, nədənsə ehtiyatlanan adamlar kimi təkliyə çəkildi. Adətən bağlı saxladığı telefonunu açıb kiminləsə əlaqə saxlamağa çalışdı. Amma ardıcıl gələn zənglər buna imkan vermədi. Diqqətlə telefonun displeyinə baxdı. Yavər müəllimin adını görüncə halı dəyişdi. İxtiyarsız olaraq əlləri titrədi. Telefonu qapatmaq istəsə də fikrini dəyişdi. Artıq gec idi. Şəhadət barmağını “yes” düyməsinə sıxıb sakit-sakit dinləməyə başladı. Ancaq heç nə eşitmədi. Telefonu qulağından götürüb baxdı. Təəccübünü gizlədə bilmədi. Telefon qapanmışdı. - Zəng eləmisən, danış də, daha telefonu nə üçün qapadırsan? - deyə Yavər müəllimin qarasınca o ki var deyindi. Telefonu söndürüb cibinə qoydu. Qayıdıb yenidən hələ də karuselə tamaşa edən kütləyə qarışdı…

Cahangir həmin gün gecə yarıdan keçənə qədər telefonu bağlı vəziyyətdə saxlamışdı. Təxminən gecə saat birə on beş-iyirmi dəqiqə işləyəndə dənizkənarı parkda kiminləsə əlaqə qurmaq istədiyi yadına düşdü. Telefonu götürüb açdı. Cibindən kiçik bir dəftərçə çıxarıb vərəqlədi. Adətən heç kəsin girib-çıxmadığı qonaq otağına çəkilib qapını bağladı. Zəng etmək istədiyi nömrəni tapıb yığdı. İlk zəngdəcə xəttin o biri başından kiminsə zəif səsi eşidildi. Sanki səsini həmin adamın səsinə uyğunlaşdırırmış kimi o da lap astadan:

- Eşidirsən? Mənəm, danışan Cahangirdir - dedi. - Tezliklə gələcəyəm, görüşərik, yəqin bizi başa düşərlər, sən necə fikirləşirsən, elə deyilmi?

- Sən heç də narahat olma, işlər qaydasındadır, hər şey bizim istədiyimiz kimi olacaq, - deyə həmsöhbəti ona təskinlik verməyə çalışdı.

Naməlum adamla söhbətdən əvvəl narahat görünən iş icraçısının çöhrəsinə çökən təbəssümdən, artıq onun rahatlıq tapdığı hiss olunurdu. - Sağ ol, görüşərik - deyib telefonu qapatdı. Gözlərindən yuxu tökülürdü. İşığı söndürüb yataq otağına tərəf getdi. Otağın qapısını açmaq istəyirdi ki, ağlına nəsə gəldi. Əl saxlayıb geri qayıtdı. Ehmalca hamama daxil olub əl-üzünə soyuq su vurdu. Yenidən qonaq otağına qayıdıb işığı yandırdı. Telefonu açıb masanın üstünə qoydu. Gözlərini otağın küncünə zilləyib bir müddət hərəkətsiz qaldı. Handan-hana telefonu

götürüb mesaj qutusuna daxil oldu. Nəsə yazıb yeindən qapatdı. - Hə, indi yatmaq olar, - deyib işığı söndürdü. Yataq otağının qapısını azca aralayıb içəri girdi. Öz yatağına uzanıb dərin yuxuya getdi…

Səbirə xanım yuxudan səhər erkən oyanmışdı. O, dünən gecə ərinin yataq otağına girdiyini hiss eləsə də səsini çıxarmamış, onu sorğu-suala tutmaq istəməmişdi. Əslində Səbirə xanım, necə deyərlər, vasvası, kişinin hər hərəkətinə reaksiya verən arvadlardan deyildi. Ərini çox sevirdi. Amma son vaxtlar Cahangirin davranışında, hərəkətlərində baş verən qeyri-adi dəyişikliklər onu narahat edirdi. Səhər saat 11-in yarısı olsa da əri hələ yuxudan oyanmamışdı. Səbirə bir xeyli dayanıb ona baxdı. Arxası üstə uzanmış, üstü bədəninin yalnız qarın hissəsindən dizlərinə qədər yorğanla örtülmüşdü. Ona baxanda adamı vahimə basırdı. Nəfəsalma da hiss edilmirdi. Sanki meyitə bənzəyirdi. Elə bil kimsə onun qollarını dümdüz yanına salmış, ayaqlarını sona qədər uzatmışdı. Səbirə həyəcandan özünü itirdi. Bu soyuq payız günündə bədənini başdan ayağa, lap barmaqlarının ucuna qədər tər basdı. Yalnız iki kərə: - Cahangir! Cahangir! - deyə həyəcanla qışqıra bildi.

Cahangir bu dünya ilə vidalaşmışdı sanki. Heç qımıldanmadı da. Səbirənin həyəcanı bir az da artdı. Elə bil yüksək voltlu elektrik gərginliyi keçdi bədənindən. Çığırmaq istəsə də dili tutuldu, bir kəlmə də danışa bilmədi. Heç olmasa əlləri ilə onu yoxlamaq, silkələyib vəziyyətin nə yerdə olduğunu öyrənmək istədi. Ancaq ayaqları da sözünə baxmadı. Otaq başına fırlandı elə bil, gözlərinə qaranlıq çökdü, nəhayət tab gətirməyib huşunu itirərək yerə yıxıldı. Elə bu vaxt qapı əvvəl lap asta-asta, sonra isə getdikcə çox bərkdən, həm də aramsız döyülməyə başladı.

Bayaqdan arvadının qışqırığına oyanmayan Cahangir yuxudan hövlnak ayıldı. Onu başdan-ayağa qan-tər basmış, gözləri dumanlanmışdı. Yerindən dik qalxıb çarpayıda otursa da arvadının döşəmədə huşsuz vəziyyətdə uzandığını görmədi. Şalvarını tələsik əyninə keçirib qapıya tərəf cumdu. Gələn ailənin yeganə övladı Ruslan idi. Birinci sinfə bu il qədəm qoyan Ruslan dərsdən yenicə qayıtmışdı. Atası qapını açıb içəriyə buraxan kimi ayaqqabılarını cəld çıxarıb yataq otağına qaçdı. Sanki ağlına nəsə dammışdı. Otağa daxil olar-olmaz, cikkə çəkib qışqırdı. Arxasınca Cahangir nəfəsi tıncıxmış halda: - Aman Allah, bu uşağa nə oldu? - deyə özünü içəri təpdi. Ruslan bayılmış anasının üstünə sərilib hönkürürdü.

Cahangir çaşıb qalmışdı. Nə baş verdiyini anlamırdı. Yuxudan durub dərhal qapını açmış, elə o anda da oğlunun arxasınca geriyə qayıtmış, bütün bunlara cəmi bir neçə saniyə vaxt sərf etmişdi. Üstəlik, yataq otağına gedən yol mənzilin qapısının ağzından keçirdi. Bu müddət ərzində arvadının hardansa çıxıb ona əhəmiyyət vermədən otağa keçməsini isə ağlına sığışdıra bilmirdi. - Bəlkə elə Səbirə lap əvvəldən yataq otağında idi? - deyə fikirləşdi. - Bəs necə olub ki, mən onu görə bilməmişəm?

Oğlunun ah-naləsinə dözməyib özü də hönkürməyə başlayan Cahangir, vücudunu təlatümə gətirən bu fikirlər içərisində cəld hamama qaçıb iri bir qabda su gətirərək arvadının ağarmış sifətinə çilədi. Sonra yüngülcə bir neçə dəfə şillələdi. Elə buna bənd imiş kimi Səbirə gözlərini açdı. O tərəf bu tərəfə nəzər salıb təəccüblə soruşdu:

- Mən hardayam? Siz kimsiniz? Məni bura niyə gətirmisiz?

Cahangir bayılıb sonradan ayılan insanların huşunun dərhal özünə qayıtmadığını, hətta ən yaxın adamlarını belə tanımaqda çətinlik çəkdiyini eşitmiş, bunun şahidi də olmuşdu. O, cib dəsmalını gətirdiyi suyun içərisinə salıb, bir neçə dəfə arvadının alnını və gözlərini isladaraq:

- Mənəm, əzizim, Cahangirəm, bu da bizim oğlumuzdur, - dedi.

Səbirə gözlərini bir neçə dəfə yumub açdı. Qəflətən dikəlib oturdu. Sağ tərəfində çöməlib oturan Ruslanın göz yaşlarını görüncə nə baş verdiyini anladı. Onu sinəsinə sıxıb başını tumarladı. Gözündən axan yaş damcıları süzülə-süzülə oğlunun onsuz da ağlamaqdan nəmlənmiş sifətini islatdı. Ruslan artıq sakitləşsə də, bir azdan anasının, atası ilə bağlı gördüyü dəhşətli səhnənin vahiməli təsvirini verməsi gözlərini yenidən nəmləndirdi.

●●●

Yavər müəllim ətrafında baş verən qəribə və anlaşılmaz hadisələri unutmağa çalışsa da bacarmırdı. Hətta gecələr də yata bilmir, yuxusu ərşə çəkilirdi. Yalnız səhərə yaxın gözlərinin acısını alır, bu isə normal iş qabiliyyətini pozurdu. Hər gün idarədə, öz ofisində olsa da, daha əvvəlki kimi işçilər arasında tez-tez görünmürdü. İş gününü adətən öz kabinetində keçirər, yalnız günün sonunda, hamı karxananı tərk edəndən sonra iş yerinə baş çəkər, son nəticə ilə maraqlanardı. Artıq müavini də, sürücü də, hətta iş icraçıları və bəzi fəhlələr də onun özünü qəribə apardığını hiss edirdi. Amma Yavər müəllim nə qədər həlim xasiyyətli, həssas qəlbli, tabeliyində olan işçilərin qayğıları, dərd-səri ilə yaxından maraqlanan adam olsa da, heç kəs onun narahatlığının səbəbini soruşmağa cəsarət etmirdi. Ancaq sürücü Tahir bir az sırtıq, həm də hiyləgər adam idi. Həmişə müəssisə rəhbəri ilə açıq danışırdı.

İşin sonunda Yavər müəllim müavini Cabir Tağızadə ilə birlikdə karxanaya baş çəkdi. Artıq orada heç kəs yox idi. İş vaxtı başa çatdığı üçün hamı evə qayıtmışdı. Onlar karxananı başdan-ayağa gəzərək görülən işlə yaxından tanış oldular. Bu gün dünənkindən daha çox iş görülmüşdü. Sabah isə işçilərin əmək haqları verilməli idi. Yavər müəllim yaxşı işə görə əlavə məvacib də verməyi nəzərdə tutmuşdu. Bu işlə məşğul olmağı müavininə tapşırıb kabinetinə qayıtdı. Sürücünü çağırıb maşını hazırlamağı tapşırdı. Bu dəfə də birbaşa evə

getməyəcəkdi. Bunu Tahirə də demişdi. Sürücü maşını sazlayıb düz idarə binasının giriş qapısına sürdü. Bir azdan Yavər Əsədli də gəlib çıxdı. Onlar "Bugattı"ya əyləşib müəssisənin həyətini tərk etdilər.

Neçə gündən bəri ürəyi dolu olan Tahir Yavər müəllimin müəmmalı narahatlığının səbəbini öyrənmək istəsə də buna nail ola bilməmişdi. Amma özünə söz vermişdi, bu dəfə fürsət tapıb sözünü deyəcəkdi. "Bugattı" həyət darvazasından çıxıb yola düzələn kimi sürücü Yavər Əsədliyə tərəf baxaraq çox ehtiyatla:

- Yavər müəllim, deməyə də utanıram, sizdən bir söz soruşmaq olar? - dedi.

Müəssisə rəhbəri bu sualla onun nəyə işarə vurduğunu təxmin eləmişdi. Özünü tam ciddi göstərməyə çalışsa da, xasiyyətinə rəğmən bunu bacarmadı. İstehza ilə gülüb yarızarafat, yarıciddi, həm də qeyri-müəyyən, qırıq-qırıq cavab verdi:

- Bəlkə də olar.., bəlkə də olmaz… Nəyi soruşmaq istəyirdin ki? Yəni bu qədər vacibdir?

Sürücü bununla müəssisə rəhbərinin əslində razılıq vermədiyini başa düşsə də, özünü o yerə qoymayıb, lazım gələndə, necə deyərlər, ilanı yuvasından çıxaran şirin dilini işə saldı. Dedi:

- Bəlkə də sizin üçün əhəmiyyətli deyil, amma sağlıq durumunuz, əhval-ruhiyyəniz bizdən ötrü çox vacibdir, Yavər müəllim.

Tahirin cavabı Yavər Əsədlinin eynini açdı. Dodaqları azca aralandı. İnadkar sürücünü başdan-ayağa süzüb bığaltı gülümsündü. Qeyri-ixtiyari razılıq verdi:

- Hə, de görüm, məndən nə istəyirsən, ay şeytan?

Sürücünün nəzərləri ani olaraq müəssisə rəhbərinin gözlərinə yönəldi. Elə bil onun nurani gözlərindən nəsə oxuya bilmişdi. Kələyinin baş tutduğuna sevindi. Gözlərini yoldan çəkmədən asta-asta mətləb üstünə gəldi. Dedi:

- Yavər müəllim, neçə gündür ki, kefiniz yoxdur, narahat görünürsünüz. Allah eləməsin, nəsə baş verib?

Müəssisə rəhbəri belə vəziyyətlərdən adətən ucadan, özü də lap ucadan gülməklə çıxardı. Bu dəfə də adətinə xilaf çıxmadı. Bərkdən gülüb cavab verdi:

- Elə bunu demək istəyirdin?

- Bəli, Yavər müəllim, elə bunu - deyə Tahir sədaqətli işçi olduğunu sübut etməyə çalışdı. - Məgər sizin kimi qayğıkeş rəhbərin əhvalı ilə maraqlanmaq olmaz?

- Yox, yox, əlbəttə, mən belə demək istəmirdim. Heç bir problem yoxdur, ola bilsin ki, sadəcə sənə belə gəlir, - deyə müəssisə rəhbəri qətiyyətlə bildirdi.

Sürücü Yavər Əsədlinin səmimiliyinə qəti şəkildə şübhə etsə də, daha bir söz demədi. Söhbət elə burda da bitdi. Onlar yol boyu bir kəlmə də kəsmədilər. Yalnız şəhərin mərkəzinə gəlib çatanda Yavər müəllim dəniz kənarındakı bağ evinə

gedəcəklərini sürücünün yadına saldı. Tahir şəhərdən çıxıb hava limanı istiqamətində gedən yola düzəldi. Artıq yolda seyrəklik idi. Sürücü müəssisə rəhbərinin göstərişi ilə “Bugattı”nın sürətini artırdı. Maştağaya tərəf ayrılan yolda sürəti qəflətən kəskin azaldıb üç dəfə siqnal verərək yoluna davam etdi. Bu dəfə avtomobilin sürətini daha da artırdı. Onsuz da neçə gündən bəri əsəbləri tarıma çəkilən Yavər Əsədli Tahirə baxaraq bir qədər əsəbi tonda:

- Bu nə hərəkətdir? - deyə soruşdu.

Sürücü suçlu adamlar kimi udqunub qızardı, bir söz demədi. Amma müəssisə rəhbərinin bunu hörmətsizlik kimi qəbul etməsindən ehtiyatlandı, qurumuş boğazını arıtlayıb cavab verdi:

- Üzr istəyirəm, Yavər müəllim, yol ayrıcındakı “Mercedes”ə söykənən iki-üç nəfərin hərəkətlərinə fikir verdinizmi?

Sürücünün sualından heç nə anlamayan Yavər Əsədli başını bulayıb təəccüb içərisində:

- Yox! Onlar kim idi ki? Nə edirdilər? Onları tanıyırsan? - deyə soruşdu.

- Elə bil onlardan birini hardasa görmüşəm. Nədənsə mənə elə gəldi ki, o da bizi tanıyır. Həmin adam yəqin ki, “Mercedes”in arxasında gizlənmişdi. Bir neçə dəfə başını qaldırıb barmağını bizim maşına tərəf tuşladı. Sanki bizi yanındakı adamlara göstərirdi…

- Hə, nə olsun ki? - Müəssisə rəhbəri sürücünün sözünü kəsərək istehza ilə gülümsündü.

- Deyirəm bəlkə…

Yavər müəllim yenə də Tahirin sözünü kəsdi:

- Yaxşı, yaxşı, sür, özün bilirsən ki, mən tələsirəm.

Müəssisə rəhbəri bu sözlərlə özünü tox tutmağa çalışır, həyəcanını gizlətmək istəyirdi. Amma Tahirin sözləri onu bərk qorxutmuşdu. Sürücü də bunu hiss elədi. Ancaq özünü o yerə qoymadı. Kirimişcə avtomobilin sürətini artırdı.

Onlar bağ evinə yetişəndə qaranlıq yenicə düşmüşdü. Yavər Əsədli adəti üzrə “Bugattı”nı həyətdən bir qədər kənarda saxlatdırdı. Özü ilə gətirdiyi iri bağlamanı da götürüb yerə düşdü. Sürücüyə elə ordaca gözləməyi tapşırıb bağ evinə tələsdi. Darvazaya yaxınlaşanda qonşu evlərdən birinin həyət qapısının ağzında gözlərinə yenə də insan kölgəsinə bənzəyən bir cüt qaraltı sataşdı. Başını çevirib təxminən iki-üç saniyə ərzində çox diqqətlə baxdı. Onlardan birini şəhərdəki qonşusu Bəhruza oxşatsa da, digər qaraltını görə bilmədi. Elə bil qeybə çəkilmişdi.

Yavər müəllim geriyə qayıdıb hər şeyi dəqiqləşdirmək istəsə də fikrini dəyişdi. Darvazanı açıb həyətə daxil oldu. Arxadan həyət qapısının siyirtməsini keçirib sürətlə irəlilədi. İkinci mərtəbəyə qalxıb əlindəki bağlamanı seyfin içərisinə qoyaraq dərhal da geri qayıtdı. Həyətə düşər-düşməz, evin sağ küncündə gözlərinə yenə də insan kölgəsi göründü. Və elə həmin andaca uzaqlaşıb yox oldu. Yavər

müəllim kölgənin ardınca qaçdı. Kimsə gözünə dəymədi. Qayıdıb həyətdən çıxdı. Darvazanı bağlayıb sürətlə uzaqlaşdı. "Bugattı"ya oturub, artıq neçənci dəfədir vahiməyə düşdüyü, müəmmalı hadisələrlə üzləşdiyi bu ərazidən kənarlaşdı...

Ceyran xanım yenə də eyvana çıxıb ərinin yolunu gözləyirdi. Amma kimsə görünmürdü. Mənzildə tək olduğundan bərk darıxdı. Başını qarışdırmaq, Yavər müəllim gələnə kimi vaxtını keçirmək üçün otağa qayıdıb fotokameranı götürərək bir-bir yaddaşındakı şəkillərə baxmağa başladı. Növbə özünü qəribə aparan nimdaş gödəkcəli adamın bir neçə gün əvvəl çəkdiyi fotosuna çatanda həyəcanlandı. İxtiyarsız olaraq əlləri əsdi. Bir xeyli dayanıb tamaşa elədi. Sonra ərinin cibindən tapdığı dimdikli papağı gizlətdiyi yerdən çıxarıb diqqətlə baxdı.

Vaxt uzandıqca Ceyran xanımın ağlına qorxulu fikirlər gəlirdi. Hətta cəmi bir neçə gün qabaq yaxından gördüyü, səhər-səhər onlara qonaq gələn qonşusu Bəhruz kişinin kələ-kötür siması da gözlərinin önündə canlandı. Cansıxıcı, darıxdırıcı tənhalığın təsirindənmi, ya nədənsə qonşusunun zahiri görkəmi, onun təsəvvüründə bu adamın cinayətkar obrazını yaratdı. Fotokameranı da, papağı da divanın üstünə atıb dəhlizə çıxdı. Qeyri-ixtiyari mənzilin giriş qapısını açaraq asta-asta həyətə düşdü. Blokun ağzında dərindən nəfəs alıb mülayim payız havasını ciyərlərinə çəkdi. Başını qaldırıb yola tərəf baxmaq istəyirdi ki, qarşıdan ona tərəf gələn avtomobilin gur işığı gözlərini qamaşdırdı. Bir dəqiqə keçmədi ki, "Bugattı" qarşısında dayandı.

Gələn Yavər Əsədli idi. Maşından düşüb Ceyran xanımla hal-əhval tutaraq onunla birlikdə mənzilə qalxdı. Xasiyyətinə zidd olsa da otağa daxil olan kimi arvadını sorğu-suala tutdu:

- Bilmirsən, Bəhruz hardasa işləyir?

- Bəhruz kimdir? - Ceyran xanım təəccüblə ərinin sifətinə baxdı. - Niyə soruşursan ki?

- Qonşunu deyirəm. Bu gün hava qaralanda onu bizim bağ evinin yaxınlığında gördüm. Özü də qonşuluqdakı bağın sahibi ilə bir yerdə idi. Darvazanın ağzında dayanmışdılar.

- Hə, nə olsun ki? Burda maraqlı nəsə var? - Ceyran xanım təəccübünü gizlədə bilmədi.

- Hə, düz deyirsən, maraqlı heç nə yoxdur. Amma bağ sahibi özünü çox qəribə aparırdı. Məni görcək gizlənmək istədi.

Elə bil Ceyran xanımın içində nəsə qırıldı. Ancaq bunu ərinə hiss etdirmədi. Ucadan gülərək: - Belə şeylərə baş qoşma, yaxşısı budur ki, hamamda yaxalanıb rahatlan, sonra gələrsən danışarıq, görək indiyə kimi hardaydın, ay fırıldaq - dedi

Ceyran xanım bunu deyib ərinə göz vurdu. Yavər müəllimin dodaqları qaçdı, kefi duruldu. Durub hamama keçdi...

●●●

Cabir Tağızadə iş yerinə lap səhər tezdən gəlmişdi. İdarədən lazımi sənədləri götürüb yenidən şəhərə qayıtmalı, Yavər müəllimin tapşırığı ilə müəssisənin hesabında olan məbləği bankdan çıxarmalı idi. O, sənədləri qaydaya salıb özünün şəxsi avtomobilinə oturdu. Şəhərin mərkəzinə gəlib, öz gəlirləri ilə ölkədə şöhrət qazanmış bankların birinin qarşısında maşını saxladı. Adətən növbə yaransa da bu dəfə seyrəklik idi. Yaxınlaşıb sənədləri təqdim etdi. Bank işçisi lazımi əməliyyat aparıb göstərilən məbləği ona verdi. Tağızadə təşəkkür edib çıxdı. Avtomobilə əyləşib yola düzəldi. Şəhərdən çıxandan sonra nə fikirləşdisə, istiqaməti dəyişdi. Karxanaya gedən ikinci yolu seçdi. Bu yol o qədər rahat olmasa da adətən çox seyrəklik olurdu…

Dünənki narahatlığına baxmayaraq, Yavər Əsədli gecəni rahat yatmış, səhər isə çox gec oyanmışdı. Gözlərini ovub üzü ona tərəf asılmış divar saatına baxdı. Artıq saat 11-ə qalırdı. Cəld yerindən qalxıb yuyundu. Sürücü ilə əlaqə yaradıb onu təcili binanın həyətinə çağırdı. Yüngülvari qəlyanaltı edib evdən çıxdı.

Yavər müəllim idarəyə çatanda saat 12-ni keçmişdi. İçəriyə daxil olan kimi Cabir Tağızadəyə baş çəkmək, karxanada işin gedişi haqda məlumat almaq istədi. Qapını döysə də içəridən səs gəlmədi. Əli ilə itələdi. Qapı bağlı idi. - Yəqin orada, işçilərin yanındadır, - deyə fikirləşdi. Əvvəlcə öz kabinetinə baş çəkib karxanaya yollandı. Həmişəki kimi qızğın iş gedirdi. İş icraçılarının adəti üzrə toplaşdığı yerə yaxınlaşdı. Elə o dəqiqə nəzərləri ona tərəf gələn adama yönəldi. Gələn Cahangir idi. Gözlərinə inanmadı. Ayaq saxlayıb gözlədi. İş icraçısı ürkək-ürkək yaxınlaşıb Yavər Əsədli ilə əl tutuşdu. Utana-utana dedi:

- Yavər müəllim, deməyə də xəcalət çəkirəm, siz Allah, bağışlayın…

Yavər Əsədli onun sözünü kəsərək:

- Yox, yox, nə danışırsan, axı bizim söhbətimiz olmuşdu, naxoşluğundan hamının xəbəri var - dedi. - İndi necəsən, yaxşısanmı?

- Çox sağ olun, Yavər müəllim, Allah razı olsun, indi özümü yaxşı hiss edirəm, - deyə Cahangir minnətdarlıq elədi.

Yavər Əsədli öz otağından tapdığı vəsiqə barədə iş icraçısına hələlik heç nə bildirmədi. Daha doğrusu, bunu onun öz dilindən eşitmək istədi. Amma nədənsə Cahangirdən də səs çıxmadı. Müəssisə rəhbəri səbr edib məsələni daha münasib vaxta saxladı. Cahangirlə birlikdə iş icraçılarının toplaşdığı yerə gəldi. Orabura baxdı. Cabir Tağızadə gözünə dəymədi. İlk dəfə müavinin işə bu qədər gecikməsindən şübhəyə düşdü. İş icraçılarından soruşsa da qaneedici cavab ala bilmədi. Telefonunu çıxarıb onunla əlaqə yaratmaq istədi. Əl saxladı. Qəflətən yadına düşdü ki, dünən müəssisənin bank hesabından müəyyən edilmiş məbləğdə pul götürüb işçilərin əmək haqlarını ödəmək üçün onunla razılığa gəliblər. - Yəqin

ki, hələ pulu götürə bilməyib, harda olsa bir azdan gəlib çıxar, - deyə telefonu qaytarıb yerinə qoydu. Karxananı başdan-başa gəzib işlə tanış oldu. Sürətli və keyfiyyətli işə görə iş icraçılarına da, fəhlələrə də təşəkkürünü bildirərək özünün iş otağına qayıtdı.

Son aylar müəssisənin gəlirləri artdığı üçün Yavər müəllim əmək haqlarında da dəyişiklik etmək fikrinə düşmüşdü. Amma bunu biriki aydan sonra gerçəkləşdirmək niyyətində idi. Bu gün isə əmək haqlarına hələlik 15-20 manat əlavə edəcəkdi. Kabinetində oturub səbirsizliklə Cabir Tağızadənin yolunu gözləyirdi. Ancaq vaxt sürətlə ötür, müavini gəlib çıxmaq bilmirdi.

Artıq saat ikinin yarısı idi. İşçilər nahar fasiləsinə çıxmışdılar. Yavər müəllim də idarənin həyətindəki kafedə nahara oturmuşdu. Nahardan sonra bir-iki stəkan çay içib yenidən iş otağına qayıtdı. Saat yarım da səbr edib dözdü. Ancaq Cabirdən hələ də səs-soraq yox idi. Yavər müəllimin səbri tükəndi. Telefonu götürüb müavinin nömrəsini yığdı. Bir neçə dəfə cəhd eləsə də "Telefon ya söndürülüb, ya da əhatə dairəsindən kənardadır" sözlərindən başqa heç nə eşidə bilmədi. Şübhələr içini didib-dağıtdı. Qorxu canına oturdu, əl-ayağı titrədi. - Aman Allah, başımıza nələr gəlir, bəlkə bu kişi qaçaq-quldura tuş gəldi, bəlkə əlindəkini alıb özünü də öldürdülər, - deyə iç dünyasında səs-səmirsiz fəryad qopardı. Sonra da özünə təsəlli verərək: - Yox, yox, ola bilməz, gör mən nə fikirləşirəm - dedi.

Müəssisə rəhbəri tamamilə çaşqın vəziyyətə düşmüş, özünü itirmişdi. Ağlına hər cür fikirlər gəlirdi. Səbirsizliyinə görə gah özünü danlayır, gah da gecikdiyi üçün Cabir Tağızadəni yamanlayırdı. Hətta müavini barədə pis fikirlərə düşür, ondan şübhələnirdi. Hərdən "öz aramızdır, az məbləğ deyil ha, bəlkə Cabir pulları da götürərək harasa əkilib" deyir, hərdən onun naməlum taleyini düşünərək halına acıyır, hərdən də heç nə olmamış kimi sakitləşirdi.

Artıq iş vaxtı başa çatmışdı. Hava yavaş-yavaş qaralmağa başlayırdı. Amma Yavər müəllim hələ də oturub müavinin yolunu, sürücü isə onun zəngini gözləyirdi. Vaxt bir az da keçdi. Onsuz da müəssisə rəhbərinin halının neçə gündən bəri dəyişdiyini hiss edən Tahir nəhayət dözməyib onun dalınca getdi. Qapını döyüb içəriyə keçdi. Yavər müəllim onu görcək ayağa qalxaraq: - Get hazırlaş, gəlirəm, - dedi. Telefonu götürüb daha bir cəhd göstərdi. Amma bu dəfə də alınmadı. Əsəbi halda qapını bağlayıb otaqdan çıxaraq avtomobilə əyləşdi...

Yavər müəllim yol boyu fikirləşir, müavini ilə tez-tez əlaqə yaratmağa çalışır, lakin hər dəfə eyni sözləri eşidirdi: "Telefon ya söndürülüb, ya da əhatə dairəsindən kənardadır". O, idarədən çıxanda Cabir Tağızadənin yaşadığı mənzilə baş çəkməyi planlaşdırsa da, ailənin təşvişinə səbəb olmasın deyə, fikrindən daşınmışdı. Amma bu, sonuncu vasitə idi. Asfalt yolda sürətlə şütüyən "Bugattı" şəhərin mərkəzinə yetişər-yetişməz, Yavər Əsədli sürücüyə göstəriş verə-verə maşını, inşası yeni başa çatmış hündürmərtəbəli binalardan birinin qarşısında

əyləndirdi. Avtomobildən düşüb dördüncü mərtəbəyə qalxdı. Cabirin yaşadığı mənzilin qapısının zəngini bir neçə dəfə basıb gözlədi. İçəridən səs çıxmadı. Qapını bərk-bərk, həm də aramsız döyməyə başladı. Bu dəfə də heç nə alınmadı. Qanı qaraldı. Qayıdıb avtomobilə əyləşərək buradan birbaşa öz mənzilinə yollandı…

Yavər Əsədli yaşadığı binanın həyətinə çatanda axşam saat 9-un yarısı olardı. Yaxın-lıqda yaşayan sürücü düz bir saatdan sonra yenidən binanın qarşısında onu gözləməli idi. Yavər müəllim "Bugattı"dan düşüb mənzilə qalxdı. Qanı bərk qaralsa da özünü sakit göstərməyə çalışdı. Amma həmişəki kimi onu qapının ağzında qarşılayan Ceyran xanım elə o dəqiqə ərinin narahatlığını hiss elədi. Fəqət bunu büruzə verməyib, şam yeməyindən sonraya saxladı. Onlar şamdan sonra otağa çəkilib divanda əyləşdilər. Ceyran xanım ərinin qoluna girib nəzərlərini onun gözlərinə yönəltdi. Bir xeyli baxıb soruşdu:

- Bura bax, gözlərimə birtəhər dəyirsən, ey, sənə nəsə olub?

Arvadının intuisiyasına bələd olan Yavər müəllim əvvəlcə boynuna almaq istəməsə də, onun əl çəkməyəcəyini görüb həqiqəti deməyə məcbur oldu. Bir yandan da durub bağ evinə gedəcəkdi deyə, onu nigaran qoymaq, şübhəyə salmaq istəmədi. Həm müavini, həm də indiyə qədər üzləşdiyi digər qəribə hadisələrlə bağlı nə varsa hamısını Ceyran xanıma danışdı. Arvadını sakitləşdirməyə çalışdı:

- Sən narahat olma, əzizim, inanıram ki, hər şey yaxşı olacaq. İndi isə mən bağ evinə getməliyəm. Tezliklə qayıdacağam.

Yavər müəllim bunu deyib, mənzildən çıxaraq həyətdə onu gözləyən avtomobilə oturdu. Çox keçmədi ki, "Bugattı" bağ evinin yaxınlığına, həmişə sürücünün gözlədiyi yerə çatıb dayandı. Yavər Əsədli maşından düşüb yan-yörəsinə baxmadan evə tələsdi. İkinci mərtəbəyə qalxaraq, sabah işçilərin əmək haqqını özünün şəxsi büdcəsindən ödəmək üçün seyfə yaxınlaşdı. Bu vaxt qulaqlarına ayaq səsi gəldi. Durub xeyli dinləsə də heç nə kəsdirə bilmədi. Yaxınlaşıb seyfi açdı. Xeyli pul götürərək əlindəki çantaya qoyub geri döndü…

●●●

Gecə saat 12-ni keçmişdi. Yavər müəllim tezliklə qayıdacağına söz versə də, hələ gəlib çıxmamışdı. Ceyran xanım tez-tez eyvana çıxaraq yola baxır, ərini gözləyirdi. Qadın gah neçə gündən bəri Yavər müəllimin üzləşdiyi qəribə hadisələri xatırlayaraq təşvişə düşür, gah da özünə təsəlli verərək, ağlına gətirdiyi pis fikirləri qovmağa çalışırdı. Amma vaxt ötdükcə bir tərəfdən amansız tənhalığın vahiməsi, bir tərəfdən də ərinin naməlum taleyinin doğurduğu nigarançılıq onu üzürdü. Gözləri saatın əqrəblərində qalmışdı. Kəfkirli divar saatının aramsız taqqıltısını eşitdikcə sanki kimsə ağır bir çəkiclə başına döyəcləyirdi. Ceyran

xanım ayağa qalxıb otaqda o baş-bu başa gəzindi, vaxtı bir az da bu sayaq "xərcləmək" istədi. Ancaq nə saatın əqrəbləri, nə də Yavərsiz mənzildə var-gəl eləməsi onun köməyinə çatmadı.

Ceyran xanım gecənin bu vaxtı həyətə düşməyə qorxurdu. Amma ərinin yoxluğu bu qorxunu tamam unutdurmuşdu. Qadın mənzilin giriş qapısına yaxınlaşıb zərblə açdı. Həyətə düşüb xeyli gözlədi. Payız gecəsinin yenicə əsməyə başlayan soyuq küləyi iliyinə işlədi. Yenidən mənzilə qayıtdı. Mobil telefonu əlinə götürdü. Nömrəni yığsa da "yes" düyməsini basmaq istəmədi. Sonuncu ümidinin öləcəyindən qorxdu. Əlləri ilə başını tutub bir neçə dəqiqə bu vəziyyətdə dayandı. Nəhayət bütün səbri tükəndi. Nömrəni yenidən yığdı. Canını dişinə tutub ürəyi döyünə-döyünə düyməni basdı. Ərinin səsi əvəzinə, "telefon ya söndürülüb, ya da əhatə dairəsindən kənardadır" sözlərini eşitdi. Bərk həyəcanlandı. Telefon əlindən yerə düşdü. Ardınca özü də döşəməyə sərildi.

Ceyran xanım bayılmışdı. Təxminən 20-25 dəqiqədən sonra ayılıb özünü döşəməyə sərilmiş xalçanın üstündə gördü. Bütün qüvvəsini toplayıb güclə ayağa qalxdı. Divardan tuta-tuta özünü birtəhər hamama çatdırdı. Əl-üzünü soyuq su ilə tamam isladıb özünə gəldi. Otağa qayıdıb divanda oturdu. - Mənə nə olub, niyə bu qədər səbirsiz olmuşam, hər halda kişi xeylağıdır, bəlkə kiminləsə bir yerdədir, - deyə təsəlli tapmağa çalışdı. - Kaş ki belə olaydı - dedi. Və elə pal-paltarlı divana uzandı. Yalnız səhərə yaxın yuxuya getdi...

Artıq səhər açılmışdı, saat 8-in yarısı idi. Ceyran xanım yuxudan oyanıb yan-yörəsinə baxdı. Yavər müəllim bəzən evə çox gec gələndə qapını açıb səssiz-səmirsiz öz yatağına uzanardı. Arvadı da ən sonuncu ümidini buna bağlamışdı. O, çarpayıya nəzər salanda elə bil dünya başına fırlandı. Özünü birtəhər toparlayıb telefonu götürdü. Nömrəni yığıb gözlədi. Amma bu cəhd də ona göz yaşlarından, qorxu, təlaş və həyəcandan başqa heç nə vermədi. Durub mətbəxə keçdi. Yüngülvari səhər yeməyindən sonra otaqdan çıxdı. Birbaşa polis idarəsinə yollandı. Gəlişinin məqsədini növbətçi polislərdən birinə izah edib məsləhət aldı. Növbətçi onu birbaşa rəisin otağına apardı. Polkovnik Cəmşid Əlibəyli qadını diqqətlə dinləyib onu iki polis işçisi ilə birlikdə bağ evinə göndərdi.

"Tofaş" markalı polis maşını iyirmi dəqiqədən sonra hündür hasarlı həyətin darvazası ağzında dayanmışdı. Ceyran xanım cəld yerə düşüb darvazanı açdı. Həyətə daxil olub yaşına yaraşmayan cəldliklə mənzilə tərəf qaçdı. Əvvəl birinci mərtəbədəki otaqlara baxdı. Kimsə gözünə dəymədi. Bayıra çıxıb polislərlə birgə ikinci mərtəbəyə qalxdı. Açarı salıb qapını açdı. Böyük zalda kimsə yox idi. Otaqları bir-bir gəzdi. Seyf qoyulan otağa daxil olan kimi tükürpədici səs mənzili başına götürdü. Qadın dərhal huşunu itirib yerə yıxıldı.

Yavər Əsədlinin soyumuş cəsədi otağın lap yuxarı başında qoyulmuş divana sərilmişdi. İlk baxışdan yatan adamı xatırlatsa da, sifətinin rəngindən dünyasını

dəyişdiyi açıq-aşkar hiss olunurdu. Həmişə geyindiyi gödəkcəsi səliqə ilə divanın yan tərəfindəki kreslonun üstünə atılmışdı. Ayaqqabıları cütlənərək ikinci mərtəbənin giriş qapısının ağzında, içəri tərəfdən sağ kənarda qoyulmuşdu. Meyitin üzərində ilk baxışdan zorakılıq əlamətləri də müşahidə olunmurdu. Nə baş verdiyini anlamayan polis əməkdaşlarından biri yaxınlaşıb onun nəbzini tutdu, digəri isə qulağını ağzına dayayıb tənəffüsünü yoxladı. Çoxdan keçindiyinə əmin olub geri çəkildilər…

Polis işçilərinin çağırışı ilə bağ evinə göndərilən operativ qrup, özləri ilə təcili tibbi yardım maşını da gətirmişdilər. Onlar tez-tez bayılıb özünə gələn Ceyran xanımı və Yavər Əsədlinin cəsədini götürüb şəhər xəstəxanasına apardılar. Xəstəxanada meyitə baxış keçirən məhkəmə-tibb ekspertləri onun üzərində boğulma əlamətlərinin olduğunu təxmin eləsələr də konkret nəticəyə gələ bilmədilər. Polis İdarəsinin rəisi polkovnik Cəmşid Əlibəyli dərhal istintaq-əməliyyat qrupu yaradaraq, cinayət işinin qaldırılması barədə göstəriş verdi. İstintaqın aparılması təcrübəli müstəntiq Turan Ələsgərliyə tapşırıldı.

Dəqiq müayinə edilməsi üçün Yavər Əsədlinin dünən gecədən soyumuş cəsədi meyitxanaya yerləşdirilmişdi. Amma Ceyran xanımın ah-naləsi, aramsız tökdüyü göz yaşları, xəstəxanada qopardığı fəryadın tükürpədici sədaları hamının - həkimlərin də, Əlibəylinin də, polis əməkdaşlarının və müstəntiqin də ürəyini ox kimi deşirdi elə bil. Ən çox narahat olan isə işin məsuliyyətini öz üzərinə götürən Turan Ələsgərli idi.

Müstəntiq Yavər Əsədlinin nəşinin mümkün qədər tez dəfn edilməsi üçün dərhal meyitə təkrar baxışın keçirilməsinə, üzərində yenidən ekspertiza aparılmasına başladı. Nəticə elə həmin gün saat 3-ə yaxın bəlli oldu: Yavər Əsədli əl-üz, yaxud hamam dəsmalı, şərf, ya da ona bənzər hansısa yumşaq əşya ilə boğulmuşdur. Ekspertiza eyni zamanda mərhumun boğaz nahiyəsində o qədər də nazik olmayan kəndirin olduqca zəif izini aşkarlamışdı. Yalnız bundan sonra Polis İdarəsi tərəfindən Yavər Əsədlinin nəşinin torpağa tapşırılmasına icazə verildi...

Cəmşid Əlibəyli dəfndən iki gün sonra müstəntiqi öz kabinetinə çağırmışdı. Polis rəisi Yavər Əsədlinin qətli ilə bağlı istintaq prosesinin gedişi haqda məlumat almaq istəyir, indiyə qədər az-az təsadüf edilən bu müəmmalı cinayət işinin tezliklə başa çatmasına çalışırdı. O, zəhmli baxışlarını müstəntiqin sifətinə tuşladı. Cinayətin açılmasının baş leytenant Turan Ələsgərlidən ötrü çətin olub-olmadığını öyrənmək istəyirmiş kimi soruşdu:

- Cənab baş leytenant, sizcə qatilin şəxsiyyətini 7-8 günə müəyyən etmək olar?

Rəisin sualı həmişə onun inamını doğruldan müstəntiqi çətin vəziyyətə saldı. Elə bil boğazı qurudu. Bir-iki kərə udqunub çətinliklə cavab verdi:

- Cənab rəis, işlə bağlı ilkin araşdırma göstərdi ki, qatil cinayəti çox ustalıqla hazırlayaraq həyata keçirmiş, asanlıqla aşkara çıxarılması mümkün olan iz buraxmamışdır.

Cinayət işi ilə elə həmin gün tanış olan Əlibəylinin dodaqları qaçdı. Ayağa qalxıb otaqda bir neçə dəfə o baş-bu başa gəzinərək qayıdıb yerində oturdu. Müstəntiqin üzünə baxaraq qətiyyətlə:

- Hə, düz deyirsiniz, cənab müstəntiq, bunu mən də bilirəm - dedi. - Amma iş təcrübənizə bələdəm, inanıram ki, tezliklə öhdəsindən gələ biləcəksiniz.

Turan Ələsgərli məsuliyyətin ağırlığını dərk eləsə də özünü sındırmadı. Eyni qətiyyətlə cavab verdi:

- Çalışarıq, cənab rəis, çalışarıq ki, ümidləri doğruldaq.

Söhbət burda da bitdi. Müstəntiq icazə alıb otağına qayıtdı. O, uzun illər istintaq orqanlarında çalışsa da, belə qəliz, müəmmalı qətl hadisəsinə rast gəlməmişdi. Hadisə yerində də heç bir maddi subut tapılmamışdı. Qatilin, cinayəti çox peşəkarcasına törətməsi işi çətinləşdirirdi. Ancaq Turan Ələsgərli rəisin ona olan inamını qırmaq istəmir, nəyin bahasına olursa olsun, istintaqı qısa müddətdə uğurla başa çatdırmağa çalışırdı. O, iki gün əvvəl məhkəmə-tibb ekspertizasının rəyini şkafdan çıxarıb masanın üzərinə qoydu. Rəylə artıq bir dəfə tanış olsa da, yenidən nəzərdən keçirməyə başladı. Elə bu vaxt qapı asta-asta döyüldü. Gələn Ceyran xanım idi. Qadın müstəntiqin icazəsi ilə onun göstərdiyi yerdə əyləşib işin gedişilə maraqlansa da qaneedici cavab ala bilmədi. Turan Ələsgərli qadının məyusluğunu, istintaq işinin gedişindən narazı qaldığını dərhal anladı. Üzünü ona tuturaq:

- Ceyran xanım, bu itkinin nə qədər ağır olduğunu dərk edirik, ancaq inanın ki, cinayətin üstünün açılması bizi heç də sizdən az maraqlandırmır, - dedi. - Bəzi məsələləri aydınlaşdırmaq üçün biz onsuz da sizdən ətraflı məlumat almalıyıq.

- O nə məsələdir, - qadın maraqlandı.

- Mərhumun indiyə qədər kimlərlə yaxınlıq etməsi, özünün və şəxsən sizin şübhələndiyiniz adamlar, onların hərəkətləri barədə məlumat verməli, əgər hansısa maddi sübutlar varsa, onu istintaqa təqdim etməlisiniz, - müstəntiq izahat verdi. - Sabah tezdən gələ bilərsinizmi?

- Gələrəm, - Ceyran xanım bunu deyib otağı tərk etdi…

●●●

Turan Ələsgərli növbəti gün işə səhər erkən gəlmişdi. Ceyran xanım gələnə qədər mərhumun qətlə yetirildiyi bağ evi ilə qonşuluqda yaşayan bir neçə nəfərdən dünən axşama yaxın alınan izahatları nəzərdən keçirmək istəyirdi. Qovluğu açıb veirilən ifadələrin hamısını bir-bir diqqətlə oxudu. Amma izahatların heç biri

cinayət işinin araşdırılmasında əhəmiyyətli rol oynamırdı. Ona görə də əlavə izahatlara, mərhumla yaxın və uzaq əlaqələri olan adamlarlın dindirilməsinə, onların ifadələrinə ehtiyac duydu. İşə başlamaq üçün ümidini Ceyran xanıma bağladı. Başını əlləri arasına alıb dərin fikrə getdi. Bu vaxt qapı bərk-bərk döyüldü. Qapının bu sayaq döyülməsindən gələn adamın həddən artıq ədalı olduğu hiss edilirdi.

Qara şlyapa, boz rəngli gödəkcə geyinmiş orta boylu həmin adam, müstəntiqin icazəsini gözləmədən qapını açıb özündən razı halda içəri təpildi. Onun özünü belə ərköyün aparması Ələsgərlini qəzəbləndirsə də səbrini basıb soruşdu:

- Cənab, sizə kim lazımdır, nədən ötrü gəlmisiniz?

Gələn adam ədasından qalmadı. İcazə gözləmədən keçib stullardan birində əyləşərək gəlişinin məqsədini açıqladı:

- Cənab müstəntiq, məgər xəbəriniz yoxdur? Şəhərdən kənarda, bağ evlərinin birində tanınmış iş adamlarından biri müəmmalı şəkildə qətlə yetirilib…

Müstəntiq bu dəfə gələn adamın ədasına dözməyib onun sözünü kəsdi:

- Axı siz kimsiniz? Sizə nə lazımdır?

- Bir az səbirli olun, cənab, mən sizə öz xidmətimi təklif etmək istəyirəm, yəqin Araz Nicati barədə eşitmisiniz, - şlyapalı adam dilləndi.

- O kimdir elə?

- Xəfiyyədir, cənab.

Turan Ələsgərli bir neçə saniyə fikrə getdi. Nə vaxtsa haqqında eşitdiyi bu adamı xatırlamağa çalışdı. Nəhayət yadına salıb dilləndi:

- Bəli, bəli, cənab, deyəsən mən sizi artıq tanımağa başladım. Təklifinizi isə qəbul edirəm. Ancaq biz hələlik məlumat toplamaqla məşğuluq.

- Yəni heç bir məlumat yoxdur? - xəfiyyə soruşdu.

- İlkin məlumatlar var, amma bunlar çox xırda detallardır, - deyə müstəntiq cavab verdi. - Ancaq bu gün mərhumun arvadından ümidverici izahat, həm də cinayətin üstünün açılmasına köməklik göstərən maddi sübutlar gözləyirik, yəqin ki, bir azdan o da gəlib çıxar.

Xəfiyyə gülümsündü:

- Siz elə indicə xırda detallara toxundunuz. Əlbəttə, bunlar ilk baxışdan əhəmiyyətsiz görünə bilər. Amma xırda hesab etdiyimiz detallar çox vaxt maraqlı olur və həlledici əhəmiyyət daşıyır.

- Hə, hə, siz düz deyirsiniz, - müstəntiq istehza ilə dilləndi. - Nə məsləhət görürsünüz, indi biz nədən başlayaq?

Nicati cavab verməyə macal tapmamış qapı yenidən döyüldü. Ceyran xanım əlində sellafon torba otağa daxil oldu. İçəridə yad adam görüncə, bayıra çıxmaq istədi. Üzünü müstəntiqə tutaraq:

- Bağışlayın, sonra gələrəm, - dedi.

- Yox, keçib əyləşin, xanım, - deyə müstəntiq onu otaqdan çıxmağa qoymadı. - Narahat olmayın, bizim adamdır, işi birlikdə araşdıracağıq.

Ceyran xanım keçib otursa da, heç vaxt görmədiyi bu adamın zahiri görkəmindən xoşu gəlmədi. Xəfiyyəni oğrun-oğrun başdan ayağa süzdü. Başına qoyduğu şlyapa, ona yaşadığı evin qarşısında özünü qəribə aparan naməlum adamı xatırlatdı. İxtiyarsız olaraq ürpəndi. Başını qaldırıb təkrar baxdı. Elə bil onun sifətində hansısa şübhələndiyi adamın əlamətlərini tapmışdı. Özünü saxlaya bilmədi, doluxsundu, gözlərindən axan yaş süzülüb saralmış yanaqlarını islatdı. Turan Ələsgərli ömür-gün yoldaşını yenicə itirmiş qadının birdən-birə bu vəziyyətə düşməsini təbii hal kimi qarşılasa da, bu, Nicatidə müəyyən şübhələr doğurdu. Dərhal onu sorğu-suala tutmaq istədi. Amma bunu müstəntiqə hörmətsizlik əlaməti kimi qəbul edib səbrini basdı, Turan Ələsgərlinin sualını gözlədi. Müstəntiq bunu hiss edirmiş kimi, dərhal üzünü qadına tutaraq:

- Ceyran xanım, yəqin ki, ərinizin qətli ilə bağlı müəyyən şübhələriniz var, elə deyilmi? - deyə soruşdu. Və onun əlindəki sellafon torbaya işarə edərək: - Bir də çox güman ki, dünən danışdığımız kimi özünüzlə nəsə gətirmisiniz, - dedi.

- Bəli, nə varsa hamısını özümlə gətirmişəm.

Ceyran xanım bunu deyib özü ilə gətirdiyi torbanın içərisindəkiləri bir-bir çıxarıb masanın üzərinə düzməyə başladı. Elə bu vaxt xəfiyyə söhbətə müdaxilə edib əvvəlcə qadının kimliyi barədə məlumat aldı. Daha sonra üzünü ona tutdu:

- Ay xanım, ərinizin qətlində şübhəli bildiyiniz şəxslərin içərisində təsadüfən şlyapalı adam yoxdur ki?

İşin araşdırılmasına yenicə başlayan müstəntiq, Nicatinin bu sualını yersiz hesab edib dodaqaltı mızıldansa da, Ceyran xanım heyrətə gəldi. Təəccüblə soruşdu:

- Bura baxın cənab, siz kimsiniz, bunu hardan bilirsiniz?

Xəfiyyə lovğa-lovğa sualını təkrarladı. Ceyran xanım bu dəfə konkret cavab verməyə məcbur oldu:

- Bəli, belə bir adam var, amma xahiş edirəm, deyin, siz onu hardan tanıyırsız?

- İndi bunun əhəmiyyəti yoxdur, xanım - deyə xəfiyyə cavab verdi. - Yəqin ki, onu görsəniz tanıyarsınız, deyilmi?

Nicatinin sualdan yayınması Ceyran xanımı şübhəyə saldı. Əlini elə indicə masanın üzərinə qoyduğu sellafon torbaya saldı. Amma torbada bir şey qalmamış, hamısını boşaltmışdı. Əsas maddi sübut hesab elədiyi əşyalardan birini unudaraq evdə qoyub gəldiyinə heyfsiləndi. Özünü huşsuzluqda ittiham elədi. Birdən əl çantası yadına düşdü. Açıb baxdı, deyəsən axtardığını tapmışdı. Əlini salıb kağız paketlərdən birini götürərək içərisindən bir neçə fotoşəkil çıxartdı. Öz-özünə: -

şlyapalı adam, şlyapalı adam, - deyə dodaqaltı pıçıldadı. Tez-tez gah fotoşəklə, gah da Nicatiyə baxdı. Yanıldığını başa düşdü. Oxşarlıqdan heç bir əlamət yox idi. Sifəti qızardı, bərk həyəcanlandı, başını aşağı saldı. Bu vəziyyətdə Nicatiyə tərəf döndü:

- Üzr istəyirəm, cənab, mən…

Xəfiyyə ona imkan vermədi:

- Üzülməyin, xanım, üzrxahlığa ehtiyac yoxdur, mən sizi başa düşürəm.

Qadının hərəkətindən, onun Nicati ilə qısa dialoqundan heç nə anlamayan müstəntiq çaşıb qalsa da, izahat istəməyi özünə sığışdırmadı. Nəzərlərini masanın üstündəki əşyalara dikdi. Orda bir ədəd fotokamera, dimdikli papaq və vəsiqədən başqa heç nə yox idi. Artıq sakitləşmiş Ceyran xanıma tərəf baxaraq:

- Gətirdikləriniz elə bunlardır? - deyə soruşdu.

Qadın içərisində fotoşəkil olan kağız paketi əldən-ələ ötürərək başının işarəsi ilə müstəntiqin dediklərini təsdiqlədi. Amma Turan Ələsgərli əlavə nəsə gözləyirmiş kimi nəzərlərini ondan çəkmədi. Bu anda əlindəki fotoşəkil Ceyran xanımın yadına düşdü. Dərhal ayağa durub paketi masanın üzərinə qoyaraq:

- Bağışlayın, cənab müstəntiq, bu paketin içərisində şübhələndiyim adamlardan birinin fotoşəkilləri də var.

Müstəntiq paketi açıb fotoşəkillərə baxdı. Qadınla xəfiyyənin qısa dialoqunun sirrini yalnız indi başa düşdü. Soruşdu:

- Xanım, bu adam kimdir belə, şübhəli hesab etdiyiniz adamlardandır?

- Bəli, cənab müstəntiq, - qadın cavab verdi.

- Siz onu şəxsən tanıyırsız, yoxsa..?

- Yox, yox, onu tanımıram, - Ceyran xanım müstəntiqin sözünü kəsərək tələsik dilləndi.

- Bəlkə eyni binada yaşayırsız, ya da həmin adam qonşu evlərdən birində olur, yaxud mərhumla bir yerdə işləyir?

- Xeyr, cənab müstəntiq, bunların heç birisi deyil. Məsələ bundadır ki…

Ceyran xanım sözünü sona çatdıra bilmədi. Xəyalında həmin günlərə qayıtdı. Qəhər onu boğsa da, bunu gizlətməyə çalışdı. Başını aşağı salıb qeydiyyat aparan Turan Ələsgərliyə elə gəldi ki, qadın nələrisə ondan gizlədir. Dedi:

- Hə, hə, deyin, heç nəyi gizlətmək lazım deyil, rica edirəm danışın. Əgər bunların heç biri deyilsə, bəs onda…

Fotoşəkillərlə artıq tanış olan xəfiyyə, müstəntiqin sözünü sona çatdırmasına imkan vermədi:

- Bu adam kimdirsə, ola bilsin ki, mərhumla qapşılaşarkən özünü qeyri-adi aparıb. Və nəticədə Ceyran xanımı, ya da mərhumun özünü şübhəyə salıb.

Xəfiyyənin dəqiqliklə verdiyi sonuncu izahat qadını heyrətə gətirdi. Öz-özünə: - bu adam kimdirsə, ya onu yaxşı tanıyır, ya da elə onun özüdür, - deyə

yenidən şübhəyə düşdü. - Kim bilir, bəlkə də qiyafəsini dəyişib ki, heç kəs tanımasın, - dedi. Başını qaldırıb Nica-tinin sifətinə baxdı, amma onun nurani çöhrəsində şübhəli bir şey tapmadı. Tamamilə çaşıb qaldı. Nəhayət özünü toparlayıb, dediklərinə aydınlıq gətirmək üçün Nicatiyə müraciət etdi:

- Cənab, rica edirəm, şlyapalı adam barədə bildiklərinizi açıq danışın. Bayaq da onu hardan tanıdığınızı demədiniz. İndi də həmin şəxsi tanıyan adamlar kimi qeyri-adi hərəkətlərindən danışırsınız. Mən çox üzülürəm axı.

- Bəli, bəli, xanım doğru deyir, əgər doğrudan da köməyinizi təklif edirsinizsə, onda bu barədə bizə məlumat verməlisiniz, yəni siz onu tanıyırsız? - müstəntiq Nicatini qabaqladı.

- Əlbəttə yox, mən bu adamı tanımıram. Bir də ki, şəhərdə şlyapalı adam çoxdur, məsələn, biri mən, ilin bu fəslində həmişə şlyapa geyinirəm, - deyə xəfiyyə cavab verdi. - Ancaq bu o demək deyil ki, bütün şlyapalılar bir-birini tanyır.

- Burası mənə aydındır, amma siz nə üçün bu qənaətə gəldiniz ki, Ceyran xanım, yaxud onun mərhum əri həmin adamla qarşılaşanda özünü şübhəli aparıb? - müstəntiq sual verməkdə davam etdi. - Bəlkə bu adamlar arasında nəyə görəsə lap əvvəldən ədavət olub, hə?

- Xeyr, cənab müstəntiq, mən dedim axı, biz bu adamı tanımırıq, onu yalnız bircə kərə yaşadığımız binanın qarşısında görmüşük, özünü də çox şübhəli aparır, o baş-bu başa gəzinir, ora-bura baxaraq şlyapasını gah gözünün üstünə qədər endirir, gah da yuxarı qaldırırdı, - deyə Ceyran xanım dilləndi. - Bundan sonra biz həmin adamı heç vaxt görməmişik.

- Deməli, cənab Nicatinin ehtimalları doğrudur? - Turan Ələsgərli təəccüblə soruşdu.

- O kimdir elə? - qadın maraqlandı.

Müstəntiq barmağı ilə işarə edərək:

- Bayaqdan məsələni birlikdə müzakirə etdiyimiz bu adamı deyirəm, - deyə cavab verdi. - Cənabın soyadı Nicatidir, özü də çox bacarıqlı adamdır.

- Çox yaxşı, - qadın dilləndi. - Açığını deyim ki, bu cənab doğru buyurur, amma sizin ona verdiyiniz sonuncu sualın cavabı məni də maraqlandırır.

- Mən sizi, sizin hisslərinizi yaxşı başa düşürəm, xanım, - xəfiyyə ağır-ağır sözə başladı. - Bilirsiniz, şlyapalı adamla bağlı gəldiyim qənaət, əlbəttə, elə həmin adamın hərəkətləri qədər şübhəli və həm də maraqlı görünə bilər. Ancaq inanın ki, bunlar hamısı sadəcə mənim ehtimallarımdır.

Araz Nicati bu dəfə də müstəntiqi və Ceyran xanımı düşündürən sualdan yayınmağa çalışdı. Amma müstəntiqin, başını bulayaraq, istehza ilə gülümsəməsi nəzərindən qaçmadı. Verdiyi izahatın Turan Ələsgərlini qane etmədiyini başa düşdü. Onun reaksiyasını eyni ironiya ilə cavablandırdı. Sözünə bir qədər ara verib tənəli-tənəli dedi:

- Elə məsələlər var ki, onu yalnız istintaq başa çatandan sonra, həm də lazımi şəraitdə açıqlamaq lazım gəlir. Əks halda işin obyektiv və təcili araşdırılması ciddi şəkildə əngəllənər. Yəqin bu sadə proseduru cənab müstəntiq də bilir.

- Tamamilə haqlısınız, mən də sizinlə şərikəm, - deyə Turan Ələsgərli düşdüyü çətin vəziyyətdən çıxmağa çalışdı. - Yaxşı, bəs indi neyləyək?

- Etirazınız yoxdursa, icazə verin Ceyran xanım evinə qayıtsın, yəqin çox yorğundur.

Söhbət burda da qapandı. Qadın ayağa qalxıb müstəntiqin otağını tərk etdi.

●●●

Turan Ələsgərli gecəni çox narahat keçirmişdi. Elə bil yatağına qarışqa dolmuşdu. Səhərə qədər yerində o tərəf-bu tərəfə aşaraq, beynində sabah görəcəyi işin planını hazırlamağa çalışır, lakin uğurlu nəticə almaq üçün ipucu tapa bilmirdi. Hara baş vururdusa uğursuzluğa düçar olur, hətta Ceyran xanımın dünən istintaqa təqdim etdiyi əşyalar da köməyinə yetmirdi. Müstəntiqin ümidi yalnız Nicatinin şlyapalı adamla bağlı hələ təsdiq olunmamış ehtimallarına qalırdı. O, yalnız səhərə yaxın yuxuya gedə bildi. Bir-iki saat gözünün acısını alıb yatağından qalxdı. Yüngülvari qəlyanaltıdan sonra dərhal iş yerinə yollandı.

Ceyran xanımın gətirdiyi dimdikli pa-paq, vəsiqə, fotokamera və şlyapalı adamın fotoşəkilləri dünəndən elə masanın üstündəcə qalmışdı. Müstəntiq onları bir-bir götürüb baxdı. Vəsiqə və dimdikli papaq barədə ona yalnız dolğun olmayan şifahi məlumat verilmişdi. Dünənki razılaşmaya görə qadın dəqiq məlumatı bu gün verməli idi. Ona görə də həmin əşyalara ötəri nəzər salıb kənara qoydu. Daha sonra şlyapalı adamın fotoşəkillərini qarşısına qoyub xeyli fikirləşdi. Heç bir qərara gələ bilmədi. Xəfiyyənin dünənki mühakiməsini yadına saldı. - Qəribədir, görəsən dünən bu adam nəyə görə oxunu atıb, yayını gizlətdi, - deyə bunun səbəblərini araşdırmağa çalışdı. - Bəlkə şlyapalı adamı, onun xarakterini doğrudan da tanıyır.

Müstəntiq onu üzən bu fikirlər içərisində ayağa qalxıb otaqda var-gəl elədi. Qaydıb yenidən masa arxasında üzü qapıya tərəf əyləşdi. Gözü ixtiyarsız olaraq qapının yuxarısında asılmış divar saatına sataşdı. Dünən Nicati ilə aralarındakı razılaşma yadına düşdü. Saat 10-da elə bu otaqdaca görüş təyin edildiyinə baxmayaraq, xəfiyyə hələ gəlib çıxmamışdı. Turan Ələsgərli bu adamın şəxsiyyəti, bacarığı barədə məlumatlı olsa da, onunla şəxsi tanışlığı yox idi. Nicatinin bir tərəfdən görüşə gecikməsi, bir tərəfdən də şlyapalı adam və onun hərəkətləri haqda qeyri-müəyyən açıqlaması Ceyran xanım kimi onda da şübhə oyatdı. Vaxt ötdükcə hövsələsi daraldı. Qapını açıb bayıra çıxmaq istəyirdi ki, xəfiyyə otağa daxil oldu. Müstəntiq qaşqabağını tökərək açıq-aşkar hiss olunan ironiya ilə:

- Mən heyran qalmışam, sizdə alman dəqiqliyi var, cənab Nicati! - dedi. - Şübhəli hesab etdiyiniz şlyapalı adam kimi qeyri-adi hərəkətlərinizi də bura əlavə eləsək, dəqiqliyinizə şübhə yeri qalmaz.

Xəfiyyə müstəntiqin atmacalı sözlərinin mənasını dərhal başa düşsə də özünü o yerə qoymadı. Ancaq onun ironiyasını cavabsız da buraxmadı. Dedi:

- Əlbəttə, dəqiqlik çox yaxşı vərdişdir. Əsas odur ki, şlyapalı adamın qeyri-adi hərəkətlərinin səbəbi dəqiqliklə aşkara çıxarılsın. Amma bunun üçün bəzən gecikmək lazım gəlir.

- Yəni nəsə aşkarlaya bilmisiz? - deyə müstəntiq nigarançılıqla soruşdu.

- Yetərli olmasa da, artıq müəyyən məlumatlar əldə edilib, - Nicati cavab verdi. - Amma bunun üçün Ceyran xanımla görüşməyimiz vacibdir.

- Həmin qadın tezliklə gəlməlidir, ancaq mənə elə gəlir ki, şlyapalı adam barədə bildiklərinizi indi də danışmaq olar.

- Bəlkə də haqlısınız, cənab müstəntiq, amma mənim ehtimallarımın sizdə şübhə doğuracağından ehtiyatlanıram. Lap elə Ceyran xanım kimi. Ona görə qadının gəlişini gözləməyin daha münasib seçim olduğunu yəqin siz də təsdiqləyərsiniz. Bir də ki, dediyiniz kimi qadın tezliklə gəlməlidirsə, onda gözləməyə dəyər. Yəni təkrar izahata ehtiyac varmı?

Xəfiyyənin həssaslığına heyran qalan Turan Ələsgərli onun nəyə işarə vurduğunu başa düşsə də, yersiz mübahisəyə nöqtə qoydu. - Yaxşı, yaxşı, siz deyən olsun, məsləhətdirsə gözləyə bilərik - dedi. Və qadının dünən gətirdiyi rəqəmsal fotoaparatı şkafdan çıxarıb Nicatiyə uzatdı. Xəfiyyə onu müstəntiqdən alıb o tərəf-bu tərəfə çevirərək diqqətlə nəzərdən keçirdi. Turan Ələsgərliyə göstərib dedi:

- Öz aramızdır, çox bahalı maldır, cənab müstəntiq, deyilmi?

Xəfiyyənin yersiz sualı müstəntiqin xoşuna gəlmədi. Əsəbindən az qaldı ki, fotokameranı alıb yerə çırpsın. Canını dişinə tutub dözdü. Yalnız öz-özünə: - heç hənanın yeridir? - deyib gülümsündü. Nicati bu gülüşdəki istehzanı dərhal başa düşdü. Deyəsən, müstəntiq onun "yersiz sual"ının mənasını anlamamışdı. Ona görə də xəfiyyə açıqlama verməyə məcbur oldu:

- Yəqin bu kameranın yaddaşındakı fotoşəkillərlə tanışsınız. Elə deyilmi, cənab müstəntiq? Fotoaparatın dəyərini yüksəldən də elə həmin şəkillərdir və biz buna görə şlyapalı adamla bağlı məsələyə son qoya bilərik.

Müstəntiq heyrətini gizlədə bilmədi:

- Hə, hə, düz deyirsiniz, fotolar çox qiymətlidir, mən onlarla tanışam, - deyə ilk dəfə görürmüş kimi xəfiyyəni başdan-ayağa süzdü. - Bəs siz necə, fotoşəkillərə artıq tanışsınız?

- Hələ ki yox - Nicati qısa cavab verdi.

- Aman Allah, bəs siz bunları hardan bilirsiniz? Bəlkə Ceyran xanım fotokameranı sizə məndən əvvəl göstərib?

Xəfiyyə cavab verməyə macal tapmamış qapı döyüldü. Ceyran xanım otağa daxil oldu. Deyəsən, o, söhbətin ondan getdiyini eşitmişdi. - Hə, doğrudur, bir az gecikmişəm, cənab müstəntiq, amma bunun əhəmiyyətli səbəbi var, - deyə üzr istədi. Müstəntiq qadının sözlərindən, onun nəyə işarə vurduğunu başa düşdü. Dedi:

- Yox, yox, söhbət sizin gecikməyinizdən getmir, amma…

Turan Ələsgərli sözlərinə bir az ara verdi. Bu zaman xəfiyyə nə hiss elədisə bayıra çıxmaq üçün icazə istədi. Deyəsən, müstəntiqə də elə bu lazım idi. Yaranmış fürsətdən istifadə edərək yarımçıq qalmış sözlərini sona çatdırmaq istədi. Qadının yanında heyrət və təəccübünü gizlətməyə çalışdı. Fotokameranı göstərərək:

- Bura baxın, Ceyran xanım, bunun yaddaşındakı fotoşəkilləri məndən əvvəl kiməsə göstərmisinizmi? - dedi.

Qadın gözləmədiyi sualı eşidən kimi mərhum əri yadına düşdü. Kövrəldi, gözləri yaşla doldu. Müstəntiq bunun səbəbini anlayıb özünü qınadı. Verdiyi yersiz suala görə peşman oldu. Amma artıq gec idi. Ceyran xanım özünü ələ alıb dedi:

- Xeyr, cənab müstəntiq, rəhmətlikdən başqa kimsə görməyib. Onu ilk dəfədir ki, sizə göstərirəm.

- Yəni Yavər müəllimi nəzərdə tutursunuz? - deyə Turan Ələsgərli dəqiqləşdirmək istədi.

- Bəli - qadın qısa cavab verdi.

Ceyran xanımla müstəntiqin dialoqu bitən kimi Nicati qapını açıb otağa daxil oldu. Masanın üzərindəki fotoaparatı əlinə götürüb üzünü qadına tərəf tutaraq:

- Xanım, sizin istintaqa təqdim etdiyiniz hazır fotoşəkillərlə artıq tanışıq, bəs yaddaşda necə, şlyapalı naməlum adamla bağlı maraq doğuran qeyri-adi fotolar varmı? - deyə soruşdu. - Bizi əsasən belə şəkillər maraqlandırır.

- Bəli, bəli, cənab, fotokameranın yaddaşında şlyapalı adamla bağlı maraqlı fotolar çoxdur, mən yalnız onlardan bir neçəsini hazır şəkildə təqdim etmişəm.

- Deyə bilərsinizmi, şlyapalı adam nəyinsə, yaxud kiminsə, lap elə deyək mərhum ərinizin surətini telefonun yaddaşına köçürməyə cəhd edibmi? Yəni fotoaparatın yaddaşında belə bir təsvir var?

Təəccübünü gizlədə bilməyən Ceyran xanımla, artıq kələfin ucunun ələ keçdiyini düşünən müstəntiq ikisi də birdən dilləndi:

- Hə, hə, yaddaşda şlyapalı adamın belə bir təsviri var.

Qətldə şübhəli bilinən şlyapalı adamın qeyri-adi hərəkətləri, ətrafda nəyinsə, yaxud kiminsə surətini telefonun yaddaşına köçürməyə cəhd göstərməsi barədə Nicatinin son dərəcə dəqiqliklə izahat verməsi Turan Ələsgərlini də, Ceyran

xanımı da “şoka” salmışdı. Müstəntiq bunu heç olmasa zərərçəkən qadına hiss etdirməmək, özünü sındırmaq istəməsə də bacarmadı. Son iki gündə xəfiyyənin izahatları onu o qədər dəhşətə gətirmişdi ki, heç nəyin fərqinə varmadan, bacarıqlı müstəntiq imicinə vurula biləcək zərbəyə əhəmiyyət vermədən açıq-aşkar duyulan həyəcan qarışıq təəccüblə soruşdu:

- Bura baxın, cənab, siz öncə görməyi bacarırsız?

Nicatinin dodaqları qaçdı, azca gülümsəyib cavab verdi:

- Yox, yox, nə danışırsız, mən də hamı kimi adi adamam.

- Çox maraqlıdır, fotokameranın yaddaşını nə Ceyran xanım, nə də mən sizə göstərməmişəm. Belə olan halda siz bunları hardan bilirsiniz?

Artıq üçüncü dəfədir ki, müstəntiqin eyni mahiyyətli sualı ilə üzləşən xəfiyyə cavabdan yayınmağa çalışdı. Dedi:

- İndi bunların heç bir önəmi yoxdur, cənab müstəntiq. Yəqin siz də mənimlə razılaşarsınız ki, biz bununla yalnız vaxt itirə bilərik. Bəlkə mühakimələrimizlə hansısa nəticəyə daha tez gələ bilərik, hə?

- Ola bilsin ki, siz deyən kimidir, amma mühakimənizdə əminliyinizin və dəqiqliyinizin səbəbləri istintaqın gedişini sürətləndirməkdən ötrü bizim üçün çox maraqlıdır, - deyə müstəntiq izahat verdi. - İndi isə deyin görək, ilkin nəticəyə gəlmək üçün siz nə təklif edirsiniz?

- Ehtimallar, əlbəttə,  çoxdur, - xəfiyyə dedi. - Amma düşünürəm ki, ilk növbədə şlyapalı adamla bağlı başladığımız işi başa çatdırmalı, şübhələrə son qoymalı, daha sonra maddi sübut kimi təqdim olunan başqa əşyalar üzərində işləməliyik.

- Hə, hə, tamamilə haqlısınız - müstəntiq onun fikirlərini təsdiqlədi. - Mən də elə şlyapalı adamın məsələsini nəzərdə tuturam, bunu tezliklə sona çatdırmalıyıq.

- Hə, bax bu başqa məsələdir, axır ki, razılığa gələ bildik - xəfiyyə dedi. - İndi biz başqa bir məsələyə aydınlıq gətirməyə çalışmalıyıq.

- O nədir elə? - müstəntiq soruşdu.

Xəfiyyə üzünü qadına tərəf çevirərək:

- Xanım, zəhmət olmasa, həmin vaxt mərhumun hansı avtomobildə olduğunu deyə bilərsinizmi?

- Rəhmətlik həmişə “Bugattı”dan isti-fadə edərdi. Həmin gün səhər tezdən sürücü ilə birlikdə işə getməyə hazırlaşırdı...

Nicati qadının sözünü kəsdi:

- Çox güman ki, dediyiniz şlyapalı adam avtomobilin surətini də telefonun yaddaşına köçürməyə çalışıb. Necə fikirləşirsiniz, bu belədir?

- Bunu dəqiq deyə bilmərəm, amma hər halda mobil telefonunu avtomobilə tərəf tuşladığı aydın görünürdü. Mənzilin eyvanından onun hər bir hərəkətini izləyirdim. Səhv etmirəmsə həmin kadr fotokameranın yaddaşında da olmalıdır.

Turan Ələsgərli qadının cavabını eşitcək dilləndi:

- Yox, yox, Ceyran xanım, siz səhv etmirsiniz. Təsvir etdiyiniz vəziyyət həqiqətən də fotokameranın yaddaşındadır. Hətta “Bugattı”nın seriyası və nömrə nişanı da aydın görünür.

Müstəntiq sözünü bitirib masanın üzərindən fotokameranı götürdü. Yaddaşdakı fotoların hamısını bir-bir displeyə gətirib Nicatiyə göstərdi. Xəfiyyə ən müxtəlif vəziyyətlərdə çəkilmiş şəkilləri nəzərdən keçirib dərindən nəfəs alaraq:

- Cənab müstəntiq, ola bilsin ki, bizim şlyapalı adam haqqında fikirlərimiz yanlışdır, - dedi. Amma…

Müstəntiq xəfiyyənin sözünü kəsdi:

- Yəni bu o deməkdir ki, indiyə qədər şübhəli hesab etdiyimiz şlyapalı adam barədə araşdırmalarımıza heç bir əsas olmadan son qoymalıyıq?

- Əlbəttə ki, yox, mən belə demək istəmirdim, amma hər halda yaddaşdakı fotoşəkilləri çıxarmaq pis olmazdı.

- Hə, cənab Nicati, sözsüz ki, şəkillər çıxarılmalı, bununla yanaşı, kameranın yaddaşında da saxlanmalıdır, - deyə Turan Ələsgərli öz fikrini bldirdi. - Elə deyilmi?

- Hə - xəfiyyə başını qaldırmadan saymazyana cavab verdi.

- Amma açığını bildirim ki…

Müstəntiq sözünü axıra çatdırmayıb susdu. Onun bu müəmmalı susqunluğu xəfiyyəyə qəribə gəldi. Soruşdu:

- Lütfən, siz nəyi bildirmək istəyirdiz?

- Doğrusu, biz yaddaşdakı şəkillərin hamısını artıq çıxarmışıq.

Xəfiyyə bic-bic gülümsündü:

- Bəs onda kameranın yaddaşını qurdalamağa nə ehtiyac vardı? Biz elə hazır şəklə də baxa bilrdik.

Turan Ələsgərli tutuldu. Artıq bacarığına şübhə eləmədiyi bu adamın qarşısında yalan uydurmağın mənasız olduğunu anladı. Düşdüyü vəziyyətdən çıxmaq üçün zarafata salıb elə xəfiyyənin özü kimi cavab verməyə məcbur oldu. Bir dəfə udqunub astadan dedi:

- İndi bunun o qədər də əhəmiyyəti yoxdur, - deyb gülümsündü.

Nicati Turan Ələsgərlinin eyhamını başa düşsə də özünü o yerə qoymadı. Əslində fotokağıza köçürülmüş şəkillərin ondan gizli saxlanmasının səbəbləri xəfiyyəyə bəlli idi. Müstəntiq bununla onun güclü mühakimə və məntiqinə, intuisiyasına və bacarığına əmin olmaq istəyirdi. Artıq buna şübhə etməyən müstəntiq, cinayət işinin araşdırılmasını qeyri-rəsmi olaraq Nicatiyə həvalə etməyə hazır idi...

●●●

Xəfiyyə polis idarəsini tərk etdikdən sonra otaqda qadınla tək qalan müstəntiq, fotokameranı və hazır şəkilləri bir tərəfə qoyub istintaqa təqdim edilən digər əşyaları şkafdan çıxararaq masanın üzərinə düzdü. O, cinayətin törədilməsində şübhəli bilinən bütün epizodlar üzrə izahat almaq istəyirdi. Üzünü qadına tərəf tutaraq:

- Xanım, sizin ümumi şəkildə şifahi olaraq verdiyiniz ifadədən aydın olur ki, müxtəlif hadisələr üzrə bir neçə nəfərdən şübhələnirsiz, - dedi. - Bunlardan biri isə sürücü ilə birlikdə bağ evində olarkən mərhumun gecə vaxtı həyətdə tapdığı dimdikli papaqla bağlıdır.

- Elədir - Ceyran xanım müstəntiqin dediklərini təsdiqlədi. - Amma daha çox şübhəli hesab etdiyimiz başqaları da var.

- Hə, xanım, bu barədə şifahi məlumatımız var, - deyə Turan Ələsgərli bir az əvvəl dediklərini təkrarladı. - İndi isə bütün şübhələndiyiniz adamlar və onların hərəkətləri haqda yazılı izahat verməyiniz lazımdır. Yəqin ki, biz bunu bu gün başa çatdıra biləcəyik.

- Əlbəttə ki, bu məndən ötrü daha vacibdir, cənab müstəntiq - qadın incik halda dilləndi. - Sizə elə gəlmirmi ki, biz çox gecikirik?

Müstəntiq qadının səsindəki incikliyi dərhal başa düşərək ona təsəlli verdi:

- Mən sizin narahatlığınızın səbəbini başa düşürəm, xanım. İnanın ki, qatilin tezliklə aşkarlanıb ələ keçirilməsi bizim üçün də çox vacibdir. İstintaq sirri olduğuna görə hər şeyi olduğu kimi açıqlamaq mümkünsüzdür. Amma hər halda onu deməliyəm ki, əməliyyatçılarımız heç də sakit oturmayıblar. İnanıram ki, biz tezliklə kələfin ucunu tapa biləcəyik.

Turan Ələsgərlinin təsəllisindən sonra Ceyran xanım bir qədər sakitləşib izahat yazmağa başlasa da, bütün fikri Nicatinin dəqiq analizləri, güclü məntiqi və mühakiməsində qalmışdı. O, izahatı birtəhər başa çatdırıb otaqdan çıxdı…

İş otağında tək qalan müstəntiq, Ceyran xanımın xüsusi səliqə ilə yazdığı izahatı qarşısına qoyub diqqətlə oxumağa başladı. İzahatda, baş verən hadisələr ardıcıllıqla yazılmış, Yavər müəllimin bağ evinin həyətindən tapdığı papaq məsələsindən tutmuş müavini Cabir Tağızadənin yoxa çıxmasına qədər Ceyran xanıma danışdığı hər bir şübhəli hadisə orda öz əksini aydın şəkildə tapmışdı.

Turan Ələsgərli izahatı oxuyub başa çatdırdıqdan sonra onu səliqə ilə qovluğa yerləşdirib masanın siyirtməsinə qoydu. Orda qeyd olunanlar cinayət işinin araşdırılması üçün əməlli-başlı başlanğıc verirdi. Bu, müstəntiqin əhval-ruhiyyəsini yüksəltmiş, neçə gündən bəri korlanmış ovqatını yaxşılaşdırmışdı. O, ayağa qalxıb sevincindən əllərini bir-birinə vurdu. Otaqda bir-iki dəfə dövrə vuraraq qayıdıb yerində oturdu. Kefi birdən-birə duruldüğu kimi qəflətən də bulandı. Qətldə

şübhəli bilinən, yazılı izahatda adları qeyd olunan adamlardan yalnız bir nəfərin - iş icraçısı Cahangir Ağabəylinin yerini müəyyən etmək asan olacaqdı.

Yavər Əsədlinin qətlindən üç gün keçdiyinə baxmayaraq, şübhəlilərdən heç biri dindirilməmişdi. Yoxa çıxan sürücü Tahir və mərhumun müavini Cabir Tağızadə haqqında hələ də məlumat yox idi. Bu isə işi xeyli çətinləşdirirdi. Ceyran xanımın şübhəlilər sırasına daxil etdiyi qonşusu Bəhruz kişinin və Cahangirin dəqiq ünvanı, iş icraçısının işə gəlib-getdiyi dəqiq məlum olsa da, izahatda yazılanlar bu adamların o qədər də şübhəli olmadığını göstərirdi. Amma Polis İdarəinin rəisi Cəmşid Əlibəylinin cinayət işini tezliklə başa çatdırmaq barədə verdiyi göstəriş müstəntiqi təcili tədbirlərə məcbur edirdi.

Turan Ələsgərli əvvəlcə Bəhruzun və Cahangirin dindirilməsi üçün onları şübhəli şəxs kimi Polis İdarəsinə çağırmaq qərarına gəldi. Artıq üç gündür ki, mərhum Yavər Əsədlinin bağ evinin həndəvərində mülki geyimdə gizli keşik çəkən səkkiz nəfər polis işçisindən üçünü - leytenant Ceyhun Cəfərovu iki nəfər baş çavuşla birlikdə təcili geri çağırdı. Onlar Polis İdarəsinə çatanda axşam saat 6 olardı. Cəfərov otağa daxil olan kimi müstəntiq soruşdu:

- Leytenant Cəfərov, deyin görək, bu üç gün ərzində nəsə öyrənə bildinizmi?

- Cənab baş leytenant, açığını deyim ki, səhərdən axşama qədər evin yaxınlığından çox adamın gəlib-getdiyini müşahidə eləsək də, özünü şübhəli aparan bir kimsəyə hələ rast gəlməmişik, - deyə leytenant cavab verdi.

- Bəs gecələr necə, evin həndəvərində kimsə gözə dəymirdi ki?

- Xeyr, cənab müstəntiq, gecə vaxtı heç kəsi görməmişik.

- Bəlkə özünüzü yaxşı gizlədə bilməmisiniz və nəticədə ərazidə polisin keşik çəkməsindən duyuq düşən olub?

Cəfərov bir az fikrə gedib dedi:

- Dəqiq deyə bilmərəm, amma hər halda son dərəcə ehtiyatlı olmağa, heç kəsi duyuq salmamağa çalışmışıq. Və düşünürəm ki, bunun öhdəsindən gələ bilmişik. Fikrimcə, mülki geyimdə olan əməkdaşlarımızın ərazini tək-tək, həm də çox ehtiyatla kənardan müşahidə etməsi kimsəni şübhəyə sala bilməzdi.

- Bəs yaxınlıqda təmir-tikinti işləri getmirdi ki?

Cəfərov təəccübləndi:

- Bunu nəyə görə soruşursunuz, cənab müstəntiq?

- Orda işləyən fəhlələrdən, yaxud ustalardan da kimlərsə şübhəli ola bilər. Yəni siz belə düşünmürsünüz?

- Bəli, siz haqlısınız, - leytenant cavab verdi. - Yaxınlıqdakı bağ evlərinin birində təmir-tikinti işləri gedirdi.

- Necə fikirləşirsiz, bəlkə həmin ərazidə diqqəti cəlb edə biləcək ən gözəl bağ evi olduğu üçün kimlərinsə marağına səbəb olub? Bir də ki, yeri gəlmişkən, mərhum vaxtaşırı bağ evinə gələrkən onu izləyə də bilərdilər.

- Tamamilə doğrudur, ola bilsin kimsə mərhumun imkanlarına bələddir, - deyə Cəfərov dilləndi. Və bir az fikrə gedib əlavə etdi: - Cənab müstəntiq, mən elə indicə xatırladım, dünən tikintidə işləyənlərdən biri bağ evinin yanından keçəndə özünü çox qəribə aparır, tez-tez ora-bura boylanır, sanki kimisə axtarırdı…

Leytenant Cəfərovun verdiyi məlumat, üç gündür ki, heç nəyə nail ola bilməyən Turan Ələsgərli üçün yayın istisində ucsuz-bucaqsız səhrada tapılan soyuq su qədər sevindirici oldu. Elə bil hansısa gözəgörünməz qüvvə leytenantı oğurlayıb aparacaqmış kimi, onun sözünü kəsərək tələsik soruşdu:

- Bura bax, leytenant, sən onun əlamətlərini söyləyə bilərsən? Həmin adamın zahiri görkəmi necə idi?

Polis leytenantı əlini alnına qoyub bir qədər fikrə getdi. Xəyalında özünü şübhəli aparan adamın əlamətlərini təsvir etməyə çalışdı. Handan-hana cavab verdi:

- Hə, hə, cənab baş leytenant, uzaqdan da olsa həmin adamın əlamətlərini müşahidə edə bilmişik. Məsələn, zahiri görkəmcə eybəcərdir, gözləri yupyumrudur, qeyri-harmonik sifəti və bir də sağ yanağında çapığı var. Sol yanağında isə diametri təxminən bir santimetr ölçülü, üstünü tük basmış fır müşahidə etmişik.

- Şəklini necə, çəkə bildiniz? - deyə müstəntiq leytenantdan müsbət cavab gözlədi. - Bundan sonra onu nəzarətə götürmək lazımdır.

Cəfərov təəssüflə bildirdi:

- Əfsuslar olsun ki, şəklini çəkmək mümkün olmadı.

Turan Ələsgərli təəccübləndi:

- Bəs bu əlamətləri necə təyin edə bilmisiniz?

- Özümüzlə durbin götürmüşdük, cənab müstəntiq.

- Hə, bax, bu yaxşı oldu - müstəntiq dedi. - Amma həmin adamın surətini fotokameranın yaddaşına köçürmək daha yaxşı olardı.

- Yəqin, buna da fürsət tapılar - Cəfərov mızıldandı.

Müstəntiq istehza ilə gülərək:

- Hə, cənab leytenant, ola bilsin ki, nə vaxtsa fürsət tapılacaq - dedi. - Ancaq o da mümkündür ki, şübhələndiyiniz adam bir daha işə gəlməsin.

Cəfərov başını aşağı salıb susdu. Müstəntiq masanın üzərindəki vərəqlərdən bir neçəsini götürüb ona uzadaraq:

- Zəhmət olmasa, orda gördükləriniz, müşahidə edə bildikləriniz, xüsusilə də şübhələndiyiniz adamın hərəkətləri, zahiri əlamətləri barədə hər şeyi olduğu kimi bu vərəqə köçürün - dedi. - Sabah isə işimiz çox olacaq, siz iki nəfər çavuşla birlikdə mərhum Yavər Əsədlinin karxanasına getməli, şübhəli hesab olunan başqa birisini bura gətirməlisiniz.

Cəfərov vərəqləri alıb Turan Ələsgərlinin tapşırığını yerinə yetirmək üçün, onun icazəsi ilə otaqdan çıxdı. O, müstəntiqin dediyi kimi sabah karxanaya yollanmalı, iş icraçısı Cahangir Ağabəylini tapıb özü ilə Polis İdarəsinə gətirməli idi.

●●●

Ceyran xanım ərinin üç mərasimini verəndən sonra müstəntiqlə görüşmək qərarına gəlmişdi. Ancaq istintaqın çox ləng aparılması, qətl hadisəsinin üstündən artıq dörd gün keçdiyinə baxmayaraq, heç olmasa yer-yurdu bəlli olan şübhəlilərin dindirilməməsi qadının Turan Ələsgərliyə olan inamını getdikcə azaldır, əvəzində məntiqinə, bacarığına heyran qaldığı Nicatiyə rəğbətini artırırdı. Amma yalnız Polis İdarəsində, müstəntiqin otağında gördüyü, indiyə qədər tanımadığı həmin adamı tapmaq imkanında deyildi. Onunla görüşmək ümidi ilə səhər tezdən durub müstəntiqin yanına yollandı. Polis İdarəsinin lap yaxınlığındakı dayanacaqda avtobusdan düşüb yolu o tərəfə keçən kimi diqqətini 10-15 metr irəlidə gedən bir kişi cəlb etdi. Addımlarını yeyinlədib ona yaxınlaşdı. Lap bərabərinə çatıb oğrun-oğrun baxdı. Deyəsən zəndi onu aldatmamışdı. Salam verib soruşdu:

- Üzr istəyirəm, cənab, əgər səhv etmirəmsə, siz…

Kişi ayaq saxlayıb qadının düz sifətinə baxdı. Onun sözünü yarımçıq kəsərək:

- Yox, yox, siz səhv etmirsiniz, Ceyran xanım, biz artıq tanışıq, - dedi. - Mənim adım Arazdır. Amma siz məni Nicati kimi tanıyırsınız, deyilmi?

- Bəli, cənab Nicati, elədir, mən sizin yaddaşınıza və məntiqinizə lap heyran qalmışam, - deyə qadın cavab verdi. - Mən çox istərdim ki…

Qadın utandığındanmı, ya nədənsə sözünün ardını gətirmək istəmədi. Başını aşağı salıb susdu. Amma son dərəcə həssas olan xəfiyyə, onun nə demək istədiyini dərhal başa düşdü. Və dəqiqləşdirmə aparmaq üçün bunu qadının öz dilindən eşitməyə ehtiyac duysa da fikrindən daşındı. Onun nədənsə ehtiyatlandığını görüb çətin vəziyyətdən çıxarmağa çalışdı:

- Narahatlığa heç bir əsas yoxdur, xanım, mən sizi anladım, ümid edirəm ki, başladığımız işi çox tezliklə və uğurla başa çatdıra biləcəyik.

Nicatinin sonuncu sözləri Ceyran xanımın qəlbində ümid çırağı yandırdı. Cəsarətə gəldi. Bayaq deyə bilmədiklərini bu dəfə açıq şəkildə dilə gətirərək dedi:

- Bilmirəm, sizi müstəntiqlə nə birləşdirir, amma onu etiraf edim ki, mənim bu adamın çox ləng işləməsindən heç xoşum gəlmir. Yəni olmazmı ki, işi elə birbaşa özünüz aparasınız?

- Bilirsiniz, xanım, Turan Ələsgərli təcrübəli müstəntiqdir, həm də biz birlikdə işləyəcəyik - deyə özünün xəfiyyə olduğunu bildirmək istəməyən Nicati, qadını inandırmağa çalışdı. - Amma istənilən halda mən sizə tam qətiyyətlə söz

verirəm ki, qatil tezliklə tapılacaq. Və düşünürəm ki, müstəntiqlə rəsmi görüşlərdən əlavə bizim ikilikdə söhbətlərimizin də çox faydalı nəticələri ola bilər.

- Mən sizi anladım, cənab Nicati, çox təşəkkür edirəm - qadın dedi.

- Təşəkkürə ehtiyac yoxdur, xanım, bu bizim peşəmizdir - xəfiyyə özündən razı halda dilləndi.

Nicati ilə ayaqüstü söhbətdən məmnun qalan qadın ondan ayrılıb lap yaxınlıqdakı Polis İdarəsinin inzibati binasına daxil oldu. Müstəntiqin qapısını döysə də içəridən səs gəlmədi. Turan Ələsgərli səhər tezdən mərhum Yavər Əsədlinin bağ evinin yaxınlığındakı təmir-tikinti işlərinin getdiyi əraziyə yollanmış, hələ geri qayıtmamışdı. Ceyran xanım dəhlizdə qoyulmuş oturacaqlardan birində əyləşdi. Beş dəqiqə keçmədi ki, Nicati ilə müstəntiq də birlikdə gəlib çıxdılar.

Turan Ələsgərli qadına salam verib otağa dəvət etdi. Özü də keçib kresloda əyləşdi. Gödəkcəsinin döş cibindən yığcam bir fotokamera çıxarıb masanın üstünə qoydu. Çöhrəsindəki təbəssümdən əhvalının şən olduğu hiss edilirdi. Ceyran xanımı yaxına çağırıb fotokameranı açdı. Qadın ekrana baxıb çox təəccübləndi:

- Maraqlıdır, bu adamı siz hardan tanıyırsız? - deyə soruşdu. - Bu ki mənim qapı qonşuma oxşayır, elə bil, necə deyərlər, bir almanı iki yerə bölüblər.

Müstəntiq qadından bu sözü eşitcək onun yazdığı izahatın mətni yadına düşdü, kefi bir az da duruldu. Fotokameranın yaddaşına köçürdüyü şəkli Nicatiyə göstərib lovğalandı:

- Bu adamı görürsən? Deyəsən biz artıq cinayətin izinə düşə bilmişik…

Xəfiyyə onun sözünü kəsdi:

- Hə, bu adamı mən də tanıyıram. Səhv etmirəmsə fəhlə işləyir, özünün də çox qəribə, şübhəli baxışları var.

- Doğru buyurursunuz, cənab, - deyə Ceyran xanım Nicatinin dediklərini təsdiqlədi. - Sizə bildirim ki, elə bizim qonşu da fəhlədir, özü də kasıb adamdır.

- Deməli, mən yanılmamışam, sizin yazılı izahatda göstərdiyiniz elə bu adamdır, deyilmi? - müstəntiq maraqlandı.

- Hə, özüdür - qadın cavab verdi.

- Bəs, bu adamın şübhəli olduğunu təsdiqləyən konkret əməlləri var? - deyə xəfiyyə müdaxilə etdi.

Müstəntiq cavab verdi:

- Hər halda zərərçəkən öz izahatında onun şübhəli hərəkətlərinin yazılı təsvirini verib. Üstəlik bizim əməkdaşlar da, siz dediyiniz kimi, bu adamın qəribə və şübhəli baxışlarının şahidi olublar. Özü də mərhumun bağ evinin lap yaxınlığında.

- Hə, hə, düz deyirsiniz, o adam təmir-tikinti işlərinin getdiyi bağ evlərinin birində fəhlə işləyir - xəfiyyə Turan Ələsgərlinin dediklərini təsdiqlədi.

Müstəntiqin də, Ceyran xanımın da qaşları çatıldı. Hər ikisi birdən:

- Çox maraqlıdır, bəs bunu siz hardan bilirsiniz? - deyə soruşdu.

Nicati özünəməxsus inamla dedi:

- Bu o qədər də vacib deyil, cənab müstəntiq, indi əsas odur ki, biz həm şlyapalı adamla, həm də qəribə baxışlı həmin o kişi ilə bağlı məsələsini elə bu gün başa çatdıraq. Fikrimcə, onların qatil olduğu ən az ehtimalladır. Bizi qarşıda daha əhəmiyyətli və məsuliyyətli təhqiqat gözləyir. Ona görə də tələsməliyik.

- Amma tələsmək istintaqın obyekiv aparılmasına əngəl törədə və günahsızların həbsi ilə nəticələnə bilər. Yəni siz hər şeyi dəqiq hesablamısız? - müstəntiq soruşdu.

- Mən dəqiqliyi sevən adamam, cənab müstəntiq, əgər icazə versəydiniz və şübhəsiz ki, zərərçəkən də razı olsaydı, həmin adamlarla bağlı şübhələrə elə bu gün mən özüm tam aydınlıq gətirərdim, - deyə xəfiyyə cavab verdi.

Turan Ələsgərli əlini çənəsinə dayayıb gözlərini məchulluğa zillədi. Xəyalında nəyisə götür-qoy edib qəti fikrini bildirdi:

- Hə, cənab Nicati, mən sizə inanıram. Bilirəm ki, sizin özünəməxsus fərqli medotlarınız var. İşə başlaya bilərsiniz.

Müstəntiq daha sonra üzünü qadına tərəf tutaraq:

- Xanım, şübhəm yoxdur ki, siz nəticə ilə maraqlanmaq üçün gəlmisiniz, artıq bizdə bəzi məlumatlar var - dedi. - Bu cənabın - Nicatini deyirəm - dəstəyi ilə işimizin sürətlənəcəyinə əminəm. Sizdən isə xahişim budur ki, bir zərərçəkən kimi bəzi məsələlərdə Nicatiyə yardımçı olasınız.

Xəfiyyə ilə qadın müstəntiqə təşəkkür edib birlikdə otaqdan çıxdılar…

Otaqda tək qalan Turan Ələsgərli oturub, bu gün səhərdən mərhum Yavər Əsədlinin daş karxanasına göndərdiyi leytenantın yolunu gözləyirdi. O, Ceyran xanımın yazdığı izahatı qovluqdan çıxarıb qarşısına qoyaraq yenidən nəzərdən keçirdi. Bu gün tezdən bağ evinin ətrafında keşik çəkən polis əməkdaşlarının müxtəlif vəziyyətlərdə gizli çəkdikləri fotoşəkillər qadının izahatındakı yazılı təsvirlərlə tam üst-üstə düşürdü. - Deməli, qadın öz şübhələrində yanılmır, bu adam doğrudan da mərhumun qonşusu Bəhruzdur, hər halda onu nəzarətə götürmək lazımdır, amma qoy bu işlə elə Nicatinin özü məşğul olsun, - deyə öz-özünə pıçıldadı. Elə bu vaxt qapı bərk-bərk döyüldü. Leytenant Cəfərov iş icraçısını tapıb özü ilə gətirmişdi.

●●●

Xəfiyyə Turan Ələsgərlinin otağından çıxandan sonra Ceyran xanımın telefon nömrəsini özünün qeyd dəftərçəsinə köçürərək ondan ayrıldı. Birbaşa metronun “Neftçilər” stansiyasının lap yaxınlığında ev alqı-satqısı və kirayəsi ilə məşğul olan

dəllalların toplaşdığı bağa yollandı. Gözü bağın metroya tərəf olan yuxarı başında akrobatik hərəkətləri, qeyri-adi jestləri, musiqisiz rəqsləri ilə hamının diqqətini özünə yönəldən bir nəfərə sataşdı. Yaxınlaşıb diqqətlə baxdı. Buludlu payız havasında arıq sifətinə yaraşmayan böyük ölçülü gün eynəyi taxmış şlyapalı adamı ortaya salaraq oynadıb məzələnirdilər.

Nicati şlyapalı adamı dərhal tanıdı. Onun surətini bir neçə dəfə əvvəlcə ayrıca, daha sonra ətrafındakı adamlarla birlikdə cibində gəzdirdiyi rəqəmsal fotokameranın yaddaşına köçürdü. Xeyli dayanıb qeyri-adi hərəkətlərini müşahidə elədi. Eynəkli adamın bu hərəkətlərinə dəyər verməyə, onun əqli cə-hətdən normal olub-olmadığını aydınlaşdırmağa çalışsa da dəqiqləşdirə bilmədi. Həmin adamın bir-birindən fərqli çoxsaylı hərəkətləri psixoloji durumunun qiymətləndirilməsini çətinləşdirirdi. Ona görə də xəfiyyə "komediyanın" sonunu gözləməli oldu. Nəhayət eynəkli adamın əyləncəli səhnəsi başa çatdı. Nicati cəld irəli atılıb onu yanladı. Nəzakətlə salam verib şirin dilini işə salaraq:

- Qardaşım, mən sənə həsəd aparıram, hərəkətlərin çox xoşuma gəldi, idmançısan, yoxsa rəqqas? - deyə bic-bic soruşdu.

Eynəkli adam devikmiş halda alçaqdan, həm də qırıq səslə dilləndi:

- Yox əşi… Nə danışırsan? Heç birindən… Nəyə görə soruşursan ki?

- Heç, elə-belə, nəsə xoşuma gəldin, çox istərdim ki, səninlə tanış olam - Nicati cavab verdi. - Razısan?

Eynəkli adamın qoltuğu qarpızlandı. Sifətinin ifadəsi qəflətən dəyişdi, yüngülcə gülümsündü. Səsini yumşaldıb dedi:

- Hə, olar, əlbəttə olar.

- Kofe xoşlayırsan, yoxsa çay? - Nicati soruşdu.

- Nəyinə lazımdır?

- Elə-belə soruşdum. Bəlkə çayxanaya gedək, hə?

- Gedək, də.

- Adınızı bilmək olar?

- Olar, olar. Niyə olmur ki, adım Malpaşadır.

Nicatini gülmək tutsa da özünü güclə saxlayıb dedi:

- Çox gözəl addır.

- Bəs sənin adın nədir? - eynəkli adam soruşdu.

Xəfiyyə özündən başqa ad uydurdu:

- Gülpaşa.

Eynəkli adam gülməkdən uğunub getdi. Dedi:

- Nə fərqi var ki, hər ikisi paşadır, Gülpaşa, ya Malpaşa, gəl verək baş-başa… Hə, bax, indi səninlə çayxanaya da gedərəm, toyxanaya da.

Şlyapasını qaşının üstünə qədər endirmiş eynəkli adamın tük basmış kir-pasaqlı sifəti Nicatini iyrəndirsə də, dodaqlarını yaxınlaşdırıb yüngülcə öpdü. Onun

qoluna girib yaxınlıqdakı çayxanaya apardı. Çay masalarının birinin arxasında əyləşib sifariş verdi. Gözü qəflətən özünü Malpaşa kimi təqdim edən "dostunun" nimdaş gödəkcəsinin cibindən yenicə çıxardığı mobil telefona sataşdı. Dedi:

- Bura bax, dostum, telefonu mənə verərsən?

- Niyə verməliyəm ki?

Xəfiyyə əlində tutduğu hərəsindən bir ədəd "sim-sim" və "cin" kontur kartlarını ona göstərərək:

- Bura bax, bunu yükləyib dostumla danışmaq olar? - deyə soruşdu.

- Məndən başqa da dostun var ki? Adı nədir?

- Adı Əlipaşadır.

- Hə, onda danış, paşalar hamısı bizim dostumuzdur - Malpaşa yenə uğunub getdi.

Nicati telefonu alıb baxdı, menyusuna girərək altdan vurub üstdən çıxdı. Kontur kartlarından birini yükləyib kiminləsə əlaqə yaratdı. Xəttin o başından cavab gəldi:

- Alo, sizə kim lazımdır?

- Mənəm - Nicati cavab verdi.

- Siz kimsiniz ki?

- Danışan Nicatidir, tez bura, metronun "Neftçilər" stansiyasına gəl. Və bir də, adının "Əlipaşa" olduğunu unutma.

- Hə, sizi başa düşdüm, cənab Nicati, yaxındayam, 10-15 dəqiqəyə gəlirəm, - deyə həmin adam bildirdi. - Bəs, sənin adın?

- Mənim adım "Gülpaşadır" - xəfiyyə əyləşdikləri çayxananın adını nişan verib telefonu söndürdü. Onu sahibinə qaytarıb, ofisiantın yenicə gətirdiyi çayı stəkanlara süzdü. Birinci çaynikdən çay yenicə qurtarmışdı ki, enlikürək, hündür boylu, təxminən 40-45 yaşlarında bir kişi onlara yaxınlaşıb salam verdi. O, Nicatinin şərti olaraq Əlipaşa adlandırdığı köməkçisi idi. Əsl adı Kənan, soyadı Cəfərli olan bu adam Nicati ilə birlikdə illərlə bağlı qalan bir neçə ağır cinayətin üstünü açmışdı. O, masa arxasında əyləşərək özünü eynəkli adama Əlipaşa kimi təqdim edib dedi:

- Səninlə tanışlığa şadam, barəndə çox eşitmişəm. Bildiyimə görə çox mərd adamsan, dostluqda möhkəmsən, özün də idmançı adamsan. Düz tapdım?

Eynəkli adam lovğalanaraq:

- Hə, hə, bəs nə bilmişdin, mən beləyəm, də - dedi. - Sən bunu bilmirdin?

Kənanın əvəzinə Nicati cavab verldi:

- Bilir, əlbəttə, bilir.

Malpaşa birdən-birə hirsləndi:

- Bəs nə üçün çərənləyib baş-beynimizi aparır?

Nicati ayağa durub əlini onun kürəyinə qoydu. Yuxarıdan aşağı 3-4 dəfə sığal çəkib dedi:

- Dostum, sən Əlipaşaya fikir vermə, yaxşı adamdır, amma hərdən çaşmağı var.

Eynəkli adam yumşaldı. Bu dəfə qalxıb nəyinsə təsirindən cadarlanmış dodaqları ilə "Gülpaşa"nın da, "Əlipaşa"nın da alnından öpərək: - Yanaşı durun, şəklinizi çəkirəm, - dedi. Və telefonu götürüb düz gözünün 1-2 santimetrliyinə tutdu. O tərəf-bu tərəfə fırladıb ağzını çaqqıldatdı. Sanki kimsə əlindən alacaqmış kimi, telefonu dərhal nimdaş gödəkçəsinin cırt-cırtlı cibinə qoyub ağzını bağladı.

Bayaqdan bəri ona göz qoyan xəfiyyə öz köməkçisinə baxıb mənalı-mənalı gülümsədi. Köməkçi isə bu müəmmalı him-cimin mənasını anlayırmış kimi, başını tərpədib sanki onun fikrini təsdiqlədi. Sonra üzünü eynəkli adama tutub dedi:

- Bura bax, dostum, sən şəkil çəkməyi bacarırsan?

Malpaşa yenə də acıqlı cavab verdi:

- Məni dolamısan? Özün görmədin ki, çəkirəm?

- Yox, yox, mən sənə inanıram, - deyə Kənan bildirdi. - Sadəcə bilmək istəyirdim ki, çəkdiklərin təkcə budur, yoxsa başqa şəkillər də var?

- Var, var, çoxdur.

- Göstərə bilərsən?

- Yox, göstərmirəm.

- Bəs biz dostuq axı - bu dəfə xəfiyyə özü dilləndi.

- Dost nə cür olur ki?

- Məsələn, birlikdə oğurluğa gedir, ev yarır, adam öldürüb, pulların götürür.

Eynəkli adam bu sözləri eşidən kimi qorxusundan əlləri əsdi, dizləri titrədi. Tük basmış sifətinin rəngi sapsarı saraldı. Özünü saxlaya bilmədi, için-için ağladı:

- Nə? Adam öldürmək? Yox, mən qorxuram, çox qorxuram. Siz adam öldürürsünüz? Mən sizinlə dost olmuram. Dostlar ancaq birlikdə şəkil çəkə bilirlər.

Xəfiyyə onu güclə sakitləşdirib cibinə 5 manat pul qoydu. Çayın pulunu ödəyib ayağa qalxdı. Eynəkli adamla sağollaşıb çayxananı tərk etdi. Köməkçisi ilə birlikdə bağa qayıtdı. Onlar oturacaqlardan birində lap yaxın əyləşib yalnız özlərinin eşidə biləcəyi səslə Yavər Əsədlinin qətlində şübhəli bilinənlər barəsində müzakirə aparmağa başladılar. Birdən hardansa Nicatinin burnuna kəskin qoxu gəldi. "Püff" eləyib burnunu tutdu. Nəsə demək istədi. Köməkçi ondan əvvəl tərpəndi:

- Bura bax, mən sənin hərəkətlərinə çox təəccübləndim.

- Nə olub ki? - Nicati soruşdu.

- O adamdan ağlım bir şey kəsmədi. Gərək onu buraxmayaydıq.

- Onunla nə etməliydik ki?

- Əlbəttə, polisə təhvil verilməliydi.

- Yəni sən o bədbəxti doğrudan şübhəli hesab edirsən? Axı onun davranışını özün gördün ki.

- Nə demək istədiyini anladım. Amma mənə elə gəlir ki, o adam çox hiyləgərdir. Özünü qəsdən ruhi xəstə kimi göstərir. Görkəmi, davranışı, səsinin tonu və danışığı da cinayətkarı xatırladır. Çəkdiyi şəkillərə baxmağa da icazə vermədi. Məgər sən bunu hiss etmədin?

Nədənsə xəfiyyə öz köməkçisi ilə daha mübahisə eləmək istəmədi. Dedi:

- Malpaşanı ələ keçirmək həmişə mümkündür. İndi bizə Bəhruz adında başqa birisinin qətldə əlinin olub-olmadığını araşdırmaq lazımdır. Bu gün onu təcili tapmalıyıq.

Kənan Cəfərli Nicati ilə razılaşsa da sualından qalmadı. Soruşdu:

- Bəs sən onun ünvanını tanıyırsan?

- Xəfiyyə gülüb dedi:

- Tanıyıram. Əminəm ki, hazırda sənin qonşuluğundadır.

- Nə danışırsan, yəni o da bağ evində yaşayır?

- Yox, yox, sadəcə təmir-tikinti işləri gedən bağ evlərinin birində işləyir.

- Həmin adamın zahiri əlamətlərini təsvir edə bilərsən?

Nicati bir neçə dəfə gördüyü Bəhruzun təsvirini verən kimi köməkçi dilləndi:

- Hə, doğrudur, xatırladım, o adam doğrudan da orda fəhlə işləyir. Əminəm ki, yanılmamısan, hərəkətləri lap qatilin özünə oxşayır.

- Ola bilər - xəfiyyə saymazyana cavab verdi. - Vaxt ötür, biz getməliyik.

- Hə, elədir, gedək - deyə Kənan təsdiqlədi. Və ayağa qalxıb barmağının işarəsi ilə bağın lap yaxınlığındakı “PORSCHE” markalı avtomobili göstərdi.

Xəfiyyə soruşdu:

- “PORSCHE” sənindir?

- Mənimdir - köməkçi cavab verdi.

- Səhv etmirəmsə, sənin avtomobilin...

Kənan onun sözünü kəsdi:

- Hə, bildim, “Mercedes”i deyirsən, artıq mən onu satmışam.

- Çoxdan?

- Yox, elə bu yaxınlarda. Üstünü də düzəldib “PORSCHE” aldım. Necədir, xoşun gəldi?

- Hə, əlbəttə, sağlığına qismət, amma indi əlim aşağıdır, şirinliyi sonraya qalsın.

- Yox, əşi, nə danışırsan, bunu heç ağlına da gətirmə.

Onlar parkı tərk edib maşına əyləşdilər. “PORSCHE” şəhərdən çıxıb yüksək sürət götürərək, mərhum Yavər Əsədlinin bağ evinə tərəf istiqamətləndi. Avtomobil iyirmi dəqiqədən sonra həmin ərazidə tikinti işlərinin getdiyi bağın darvazasına çatıb dayandı. Nicati maşından düşüb həyətə daxil oldu.

Bağda xeyli adam işləyirdi. Xəfiyyə kənardan baxıb Bəhruzu dərhal tanıdı. İş icraçısını tapıb onunla nə danışdısa Bəhruzu da özü ilə götürüb geri qayıtdı. Birlikdə maşına əyləşib Kənan Cəfərlinin lap yaxınlıqdakı bağ evinə getdilər. “PORSCHE” Yavər Əsədlinin darvazasına yaxınlaşanda Bəhruz pəncərədən boylanıb ora-bura baxdı. Onun qeyri-adi baxışları xəfiyyənin diqqətindən yayınmadı. Onlar köməkçinin həyətinə daxil olanda da eyni vəziyyət təkrar olundu. Bəhruzun ağzı heyrətdən açıq qalmışdı.

Kənanın Şərq üslubunda tikilmiş dəbdəbəli bağ evi, könül oxşayan həyəti, səliqə ilə salınmış meyvə bağı Bəhruzu dəhşətə gətirmişdi. O, içini çəkib köks ötürdü. Onunla yanaşı addımlayan xəfiyyə bunu açıq-aşkar eşitsə də hiss etdirmədi. Onlar ev sahibinin dəvəti ilə xüsusi bəzədilmiş qonaq otağına keçdilər.

Masa arxasında əyləşən kimi xəfiyyə onu sorğu-suala tutdu:

- Cənab, bildiyimizə görə siz Yavər müəllimlə qonşu olmusunuz.

Bəhruz köks ötürüb dedi:

- Bəli, biz qonşu olmuşuq, amma…

Nicati ona imkan vermədi:

- Eşitmişik ki, o, çox varlı adamdır və bu ərazidə bağ evi də var. Onun yerini bizə göstərə bilərsənmi?

Bəhruz həyəcandan kəkələyə-kəkələyə cavab verdi:

- Yox, bilmirəm. Bir qonşu kimi təkcə onu bilirəm ki, Yavər müəllim bu yaxınlarda rəhmətə gedib. Daha doğrusu, onu qətlə yetiriblər.

Köməkçi özünü bilməzliyə vurdu:

- Nə dedin? Rəhmətə gedib? Sizcə onu kim qətlə yetirib?

- Bilmirəm, rəhmətlik çox yaxşı adam idi. Həmişə kasıb qonşularına əl tutardı.

- Bəlkə onu kasıb qonşuları qətlə yetirib, necə bilirsən?

Köməkçinin qəflətən verdiyi bu sual Bəhruzu çaşdırdı. Qobustan qayalıqlarına bənzəyən kobud sifəti allandı. Amma tez də özünü ələ ala bildi. Kələ-kötür çöhrəsinə tam ciddi ifadə verdi. Sanki yaxınlarının, qohum-qonşularının qaraqabaq, hədsiz dərəcədə savadsız adam kimi tanıdığı Bəhruz deyildi. Başını qaldıraraq Kənanın düz gözlərinin içinə baxdı. Nə fikirləşdisə gözlənilmədən dedi:

- Kim olduğunuzu bilmirəm, amma Yavər müəllimi kasıb yox, varlı qonşuları da öldürə bilərdi. Mən rəhmətliyin xətrini çox istəyirdim.

Bu dəfə Kənan Cəfərli gözləmədiyi cavabdan özünü itirən kimi oldu. Bir qədər əsəbi tonda:

- Bura bax, kişi, deyəsən lap həddini aşırsan - dedi. - Yəni sən bununla nə demək istəyirsən?

- Axı Yavər müəllimin bağ qonşuları da var.

- Elə bu? - Kənan ucadan güldü.

Onların qısa mübahisəsini diqqətlə müşahidə edən xəfiyyə də köməkçisinə qoşulub qəh-qəhə çəkdi. Üzünü Bəhruza tutub dedi:

- Yaxşı, yaxşı, kifayətdir, dur get.

Köməkçi Nicatinin qərarından narazı qalsa da, onun qətiyyətli və inadkar olduğunu nəzərə alıb səsini çıxarmadı. Amma Bəhruzu yola salıb geriyə qayıtdıqdan sonra "dikbaş" qonağının "başından yekə danışmasına" dözə bilmədi. Nicatiyə müraciətlə:

- Bura bax, biz bu adamı nahaqdan sərbəst buraxdıq - dedi. - Onun sir-sifəti də, kobud danışığı da əsl cinayətkarı xatırladır.

Xəfiyyə güldü:

- Əlbəttə, biz onun qatil olmadığını deyə bilmərik, amma ünvanına da, imkanına da yaxşı bələdik, əminəm ki, əlimizdən heç yerə qaça bilməz, - deyə köməkçisini sakitləşdirdi.

●●●

Müstəntiqin tapşırığı ilə mərhum Yavər Əsədlinin daş karxanasına yollanan leytenant Cəfərov qətldə şübhəli bilinən iş icraçısını Polis İdarəsinə gətirmişdi. Cahangir Ağabəylinin fağır görkəmi Turan Ələsgərlidə heç bir şübhə oyatmasa da, Ceyran xanımın yazılı izahatındakı bəzi müəmmalı məqamlar bu adamın istintaqa cəlb edilməsinə əsas yaradırdı. Onunla üz-üzə dayanan müstəntiq bir neçə dəqiqəlik sükutdan sonra ilk sualını verdi:

- Yəqin bura çağırılmağınızın səbəbi sizə məlumdur, elə deyilmi?

- Səbəbləri əlbəttə ki bəllidir, cənab müstəntiq, bu haqda leytenant Cəfərov izahat verib. Amma…

- Amması da məlumdur, - deyə Turan Ələsgərli iş icraçısının sözünü kəsdi. - Hamı belədir, yəqin deyəcəksiniz ki, heç nədən xəbəriniz yoxdu.

- Əlbəttə, Yavər müəllimin qətlə yetirilməsindən hamı kimi mənim də xəbərim var. Ancaq nəyə görə məndən şübhələnmənizin səbəbini anlamıram. Yəni bunun üçün əsasınız varmı?

Müstəntiq kinayə ilə gülərək:

- Bəs siz necə, bizim ədalətimizə şübhə ilə yanaşırsınız? - deyə soruşdu.

- Xeyr, cənab müstəntiq, sadəcə təqsirimin nədən ibarət olduğunu bilmək istəyirdim.

Turan Ələsgərli başını bulayıb ayağa qalxdı. Otaqda iki dəfə dövrə vuraraq qayıdıb yerində oturdu. Deyəsən iş icraçısının belə özündən razı danışması xoşuna gəlməmişdi. Dedi:

- Mən hələ sizin günahkar olduğunuzu deməmişəm. Özünüz necə, buna inanırsız?

- Bəli, cənab müstəntiq. Özü də adımın Cahangir olduğuna əmin olduğum kimi. Bir də ki, Yavər müəllim kimi gözəl rəhbəri, səxavətli insanı qətlə yetirmək mənə nə üçün lazımdır?

- Vətəndaş, mən dedim axı, siz bura ifadə vermək üçün çağırılmısınız. Qatil olub-olmadığınız isə istintaq başa çatandan sonra dəqiqləşəcək. Hazırda siz yalnız şübhəli şəxs hesab olunursunuz.

- Yəni şübhəli hesab etdiyiniz təkcə mənəm, yoxsa?..

- Bunun artıq sizə aidiyyatı yoxdur, cənab Ağabəyli.

- Onda rica edirəm, cənab müstəntiq, əgər mümkündürsə, mənə aidiyyatı olan nə varsa soruşun. Mən buna hazıram.

- Hə, əlbəttə, sizi elə buna görə çağırmışıq - müstəntiq dedi. Və masanın siyirtməsini açıb Yavər Əsədlinin qətli ilə bağlı cinayət işinin əldə edilən ilkin materiallarının toplandığı qovluğu götürdü. Açmaq istəyirdi ki, Nicati qapını döyüb köməkçisi Kənan Cəfərli ilə birlikdə dəvət gözləmədən otağa daxil oldu. Müstəntiq ayağa qalxıb hər ikisi ilə görüşərək yer göstərdi. Xəfiyyə isə Kənanı təqdim edərək:

- Mənim həmkarımdır, cənab müstəntiq, biz birlikdə işləyirik - dedi. - Çox təcrübəli adamdır, əgər etirazınız yoxdursa, istintaqın tez başa çatdırılması üçün bizə yardımçı olar.

- Sözüm yoxdur, bir halda ki iş təcrübəsi sizi qane edir, qoy olsun, - deyə Turan Ələsgərli razılığını bldirdi. Və qovluğu açıb qarşısına qoydu. Kağızların arasından bir vəsiqə çıxararaq əsəbindən dodaqlarını çeynəyən Cahangir Ağabəyliyə göstərib astadan soruşdu:

- Bu vəsiqə sizə tanış gəlir?

İş icraçısının qaşları düyünləndi. Mərhum Yavər Əsədlinin imzası və rəhbərlik etdiyi müəssisənin möhürü ilə təsdiqlənərək ona verilmiş vəsiqənin, müstəntiqin əlinə hansı yolla keçdiyinə təəccübləndi. Rəng verib rəng aldı. Soyuq payız səhərində bədənini tər basdı. Nə cavab verəcəyini kəsdirə bilmədi. Yalnız müstəntiqin təkrar verdiyi sualdan sonra dillənməyə məcbur oldu. Çox zəif səslə:

- Bu ki mənimdir, cənab müstəntiq, onu çoxdan itirmişəm - dedi. - Bəs necə olub ki, sizin əlinizə keçib? Yoxsa kimsə onu taparaq Polis İdarəsinə təhvil verib?

- Yox, cənab, təəssüflər olsun ki, belə deyil, - deyə müstəntiq cavab verdi. - Məsələ ondadır ki, vəsiqə mərhumun iş otağından tapılıb.

- Ola bilər. Burda nə var ki?

- Burda əlbəttə, qeyri-adi heç nə yoxdur. Siz nə vaxtsa Yavər Əsədlinin çağırışı ilə, yaxud hansısa başqa səbəbdən onun kabinetinə gələ və geriyə dönəndə vəsiqəni elə otaqdaca döşəməyə sala bilərdiniz. Amma sənəd tapılan gün mərhumun otağının qapısı açıq olub. Qəribədir ki, səhər tezdən işə gələn Yavər

Əsədli də buna təəccüblənib. Digər tərəfdən vəsiqənin masanın düz altından tapılması da başqa cür düşünməyə əsas verir.

- Sənədin masanın altından tapılmasının qəribəliyi nədədir ki? - deyə Cahangir kinayə ilə soruşdu.

Bu dəfə xəfiyyə işə qarışdı:

- Qəribəlik ondadır ki, yalnız girdə əşya dığırlanıb masanın altına qədər gedə bilərdi. Ya da forması hamımıza bəlli olan vəsiqə kiminsə cibindən təsadüfən düşübsə, onda həmin adam masanın altında eşələnməliydi. Yəni siz doğrudanmı masanın altına girmişdiniz?

- Xeyr, mən nə masanın altında, nə də üstündə olmamışam - iş icraçısı dilləndi.

- Hər halda vəsiqənizi itirmisiniz, elə deyilmi? - müstəntiq soruşdu.

- Elədir, elədir.

- Amma bu haqda rəhbərliyə məlumat verməmisiniz. Sizcə bu fakt maraqlı deyil?

- Sizdən ötrü maraqlı ola bilər, ancaq and içə bilərəm ki, mən sadəcə səhlənkarlıq etmişəm, başqa heç nə.

Bu yerdə Nicati üzünü Turan Ələsgərliyə tutaraq:

- Cənab müstəntiq, bayaq dediniz ki, vəsiqə tapılan gün mərhum səhər tezdən şəxsən özü açmadığı iş otağının qapısının müəmmalı şəkildə açıq qaldığına təəccüblənib - deyə maraqlandı. - Yəni otaqda nəyinsə oğurlandığı barədə sizdə məlumat yoxdur ki?

Müstəntiq ağzını açmağa macal tapmamış Kənan Cəfərli dərhal dilləndi:

- Ən maraqlısı və şübhə doğuranı da elə budur, cənablar. Bildiyimə görə səhər tezdən bu cənabın vəsiqəsi tapılan gün hələ məlum olmayan səbəblərdən qapı açıq qalsa da otaqdan heç nə yoxa çıxmayıb.

- Hə, elədir - müstəntiq təsdiqlədi. Və üzünü Nicatiyə tərəf çevirərək təəccüblə soruşdu: - Bəs siz bunu hardan bilirsiniz?

Əslində həmişə lovğa-lovğa danışan təkəbbürlü Nicatinin bundan xəbəri yoxuydu. Nə Ceyran xanımla, nə də müstəntiqlə bu haqda söhbətləri olmamışdı. Müzakirələrə yenicə qoşulan köməkçisinin isə indi birdən-birə dəqiq mühakimə yürütməsi onu təəccübləndirsə də özünü o yerə qoymadı: - Hə, mənim şagirdimdir, də, başqa nə cür olmalıdır ki? - deyə dodaqaltı pıçıldayıb yenə də lovğalandı. Və köməkçisinin yerinə müstəntiqə cavab vermək əvəzinə, mühakimə yürütməklə onun diqqətini özünə cəlb etməyə çalışdı:

- Görünür, vəsiqə masanın altına doğrudan da ya hansısa təsadüf nəticəsində düşüb, ya da kimsə onu iş icraçısından oğurlayaraq mərhumun iş otağına atmaqla qarşıdakı planlarını heç bir iz buraxmadan həyata keçirməyə çalışıb.

- Hər halda baş verənlər onu göstərir ki, həmin adamın hərəkəti qarət məqsədi daşımayıb, elə deyilmi? - köməkçi soruşdu.

Müstəntiq də Kənan Cəfərli ilə razılaşdığını bildirərək eyni sualı təkrarladı.

Nicati alnını qırışdırıb dərin fikrə getdi. Onların dedikləri ilə barışmadımı, ya nədənsə saymazyana cavab verdi:

- Elədir.

Köməkçi öz mühakiməsinin xəfiyyə tərəfindən təsdiqləndiyinə sevinsə də, deyəsən müstəntiq onun səmimiyyətinə inanmadı. Amma həmişə ciddi adam kimi tanıdığı Nicatinin boğazdan yuxarı verdiyi cavabın səbəbini anlaya bilmədi. Adəti üzrə ayağa qalxıb otaqda dövrə vurdu. Elə gəzinə-gəzinə sualını davam etdirərək:

- Cənab Ağabəyli, siz son bir neçə həftə işdə olmamısınız, bunu necə, təsdiq edirsinizmi? - deyə soruşdu. - Nəzərə alın ki, bunun səbəbləri də bizimçün maraqlıdır.

- Doğru buyurursuz, cənab müstəntiq, təxminən iki həftə işdə olmamışam - iş icraçısı cavab verdi. - Səbəb isə səhhətimlə bağlı olub və bunu hamı təsdiqləyə bilər.

- Sizin intizamlı işçi olduğunuz mənə bəllidir. Bə inanmaq istərdim ki, hər şey bəlkə də siz deyən kimidir. Amma intizamlı işçilər hansısa səbəbdən işə gəlməyəndə adətən bu haqda rəhbərliyə məlumat verirlər. Sizi isə, deyəsən, mərhumun özü axtarmalı olub. Hətta tetefonu da qapalı saxlamısınız. Bunu nə ilə izah edərdiniz?

Müstəntiqin sonuncu sualı iş icraçısını çətin vəziyyətə saldı. Nə qədər fikirləşsə də özünü müdafiə etmək üçün söz tapa bilmədi. Handan-hana ağzını doldurub nəsə demək istəsə də susmağa üstünlük verdi. Elə bil kimdənsə çəkinirdi. Bunu xəfiyyənin köməkçisi də hiss etdi. Nicatiyə göz vuraraq: - Gəl gedək, bizə ehtiyac qalmadı, deyəsən, müstəntiq özü kələfin ucunu ələ keçirə bildi, - deyə astadan pıçıldadı. Xəfiyyə köməkçisinin sifətinə baxıb gülümsədi. Onunla razılaşıb ayağa qalxdı. Üzünü Ələsgərliyə tutub soruşdu:

- Cənab müstəntiq, biz gedə bilərik?

- Məsləhət sizinkidir - müstəntiq cavab verdi. - Bəs Bəhruzla bağlı məsələyə aydınlıq gətirə bildiniz?

- Gətirdik, amma məsləhətdirsə bunu nahardan sonraya saxlaya bilərikmi?

- Olar - müstəntiq dedi. Və Cahangiri göstərərək: - Yəqin ki, nahara qədər bununla işimizi qurtararıq, - deyə bildirdi.

Nicati və onun köməkçisi müstəntiqin otağından çıxandan sonra bayaqdan üç nəfərin əhatəsində qalan iş icraçısı sanki yüngüllük tapdı. Xüsusən də pəzəvəng köməkçinin zəhmli baxışlarından azad olduğuna görə sevindi. Bayaqdan onun sıxıldığını görən müstəntiq də bunu hiss etdi. Masanın arxasına keçib yerini rahatladı. Oğrun-oğrun Cahangirin sifətinə baxdı. Hansısa naməlum bir kabusun

yaratdığı vahimənin təsirindən gah allanan, gah da saralıb-solan çöhrəsində üzücü bir kədərin əlamətlərini gördü. Elə bil nəsə ürəyinə dammışdı. İlk dəfə şübhəli şəxs kimi dindirilən adamın halına acıdı. Yerindən durub ona yaxınlaşdı. Əlini yavaşca kürəyinə vurub lap astadan dedi:

- Bura bax, hiss olunur ki, pis adam deyilsən. Mərhum Yavər Əsədlinin həmişə sənə etibar etdiyi də bizə məlumdur. Amma mən sənin əzab çəkdiyini, hansısa səbəbə görə bizdən nəyisə gizlətdiyini hiss edirəm. Biz sənin və ailənin təhlükəsizliyinə yüz faiz zəmanət verə bilərik. Bəlkə hər şeyi açıq danışasan?

Elə bil iş icraçısının ağzına qıfıl vurmuşdular. Müstəntiqin sözləri onu bir qədər yumşaltsa da udqunub susdu. Bunu görən Turan Ələsgərli bir az əvvəlki cavabsız sualını xatırlatmalı oldu:

- İfadənizdən aydın oldu ki, səhhətiniz pisləşəndə təxminən iki həftə işə gəlməsəniz də, rəhbərliyə məlumat verməmisiz. Bunu nə ilə izah edə bilərsiniz?

Cahangir əvvəlcə müstəntiqin haqlı sualından yayınmaq, heç olmasa susmaq istədi. Amma bununla onsuz da düşdüyü çətin vəziyyəti bir qədər də ağırlaşdıracağından ehtiyatlanıb dedi:

- Mən bunun səbəbini rəhmətlik Yavər müəllimə də bildirmişdim, cənab müstəntiq. O vaxt səhhətimin ağırlığı buna imkan vermirdi.

- Dediklərinizə inanmaq olardı, amma telefonu bir neçə gün bağlı saxlamağınız adamda başqa təsəvvür yaradır, - deyə müstəntiq kinayə ilə güldü. - Üstəlik mərhumun zənglərinə cavab verməyərək, telefonu onun üzünə qapatmısan.

Müstəntiqin sonuncu kəlmələri iş icraçısının xoşuna gəlmədi. Dedi:

- Hansısa səbəbdən telefon bağlana bilərdi, cənab müstəntiq. Amma mən Yavər müəllimin zənglərini heç vaxt cavabsız qoya, yaxud telefonu onun üzünə qapada bilməzdim. Bu lap "ağ" olardı.

Turan Ələsgərli Cahangirdən belə asanlıqla söz ala bilməyəcəyini görüb bərk əsəbiləşdi. Hirsini soyutmaq üçün qapını açıb bayıra çıxdı. Dəhlizdə Nicatiyə rast gəldi. Saatına baxdı. Artıq nahar vaxtından keçmişdi. Məsələnin nə yerdə olduğunu anlayan xəfiyyə soruşdu:

- Ağabəylidən nəsə öyrənə bildiniz, cənab müstəntiq?

- Təəssüf ki, hələ yox. Bu adam sanki nədənsə ehtiyatlanır, heç nə demək istəmir.

Müstəntiq bunu deyib Nicati ilə birlikdə otağa qayıtdı. Xəfiyyə Cahangirlə köhnə tanışlar kimi bərk-bərk görüşüb stullardan birində əyləşdi. Üzünü Turan Ələsgərliyə tutaraq:

- Xəbəriniz var? - soruşdu. - Bu gün Yavər Əsədlini qətlə yetirməkdə ittiham olunan adamlar tünd yaşıl rəngli "Mercedes"də qaçmağa hazırlaşarkən gömrük polisi tərəfindən həbs ediliblər.

İş icraçısı xəbəri eşidən kimi dik ayağa qalxaraq soruşdu:

- Nə dediniz? Bu doğrudur? O adamlar məni iş yerinin lap yaxınlığındakı dayanacaqdan oğurlayıb aparmışdılar. Vəsiqəmi də onlar götürmüşdülər. Hətta tələb də qoymuşdular ki, əmək haqlarının nə vaxt və hansı bankdan götürüldüyü barədə onları məlumatlandırım.

- Siz də buna əməl etdiniz?

- Bəli.

- Bəs nə üçün indiyə qədər bu barədə heç kimə məlumat verməmisən? - müstəntiq maraqlandı.

- Mənə işgəncə verib hədələdilər, "ailəni də, özünü də öldürəcəyik" dedilər, - deyə Cahangir fağır-fağır cavab verdi.

Müstəntiq üzünü Nicatiyə tutdu:

- Qatilin şəxsiyyəti sizə bəllidir?

- Hələ ki yox, amma bunlar yalnız mənim eşitdiklərimdir, cənab müstəntiq, bu xəbər yalan da ola bilər, - xəfiyyə dedi.

- Bəs köməkçiniz hardadır, bizimlə işləmək istəmir? - müstəntiq soruşdu.

- Niyə ki? Bu gün təcili işləri vardı, sabah özümlə gətirəcəyəm, - Nicati bunu deyib otaqdan çıxdı. Müstəntiq isə iş icraçısı ilə bağlı istintaqı davam etdirdi.

●●●

Yavər Əsədinin qətlindən artıq beş gün keçirdi. Polis rəisi Cəmşid Əlibəylinin müstəntiqə verdiyi vaxtın başa çatmasına isə cəmi iki-üç gün qalmışdı. İş icraçısı ilə aparılan qısamüddətli sorğu-sualın uğurlu nəticəsi, xəfiyyənin köməkliyi sayəsində Cahangirin istintaqdan ötrü nəhayət son dərəcə əhəmiyyətli məlumat verməsi Turan Ələsgərlinin kefini durultmuş, qəlbində ümid çırağı yandırmışdı. Amma dünya, sevimli ərini itirmiş Ceyran xanımın başına fırlanırdı elə bil. Son beş gündə gülümsər çöhrəli qadının sifəti tamamilə dəyişmişdi. Qara buludlar Ayın üzünü tutub gecəni zülmətə döndərdiyi kimi, beş günün kədəri də onun parlaq simasını boz bulanıq axan selə döndərmişdi sanki.

Ceyran xanım tənha, darıxdırıcı həyatın üzüntüsündən müvəqqəti də olsa yaxa qurtarmaq, ən əsası isə heç olmasa ərinin qətli ilə bağlı istintaqın gedişi barədə məlumat almaq üçün mənzildən çıxıb Turan Ələsgərlinin qəbuluna yollandı. Qadın Polis İdarəsinə yetişəndə müstəntiq yır-yığış edib evə getməyə hazırlaşırdı. O, otağın qapısını bağlayıb otaqdan çıxdı. Binanın giriş qapısında Ceyran xanımla rastlaşıb onunla birlikdə geriyə - özünün iş otağına qayıtdı. Bir az əvvəl xəfiyyədən eşitdiyi və vacib hesab etdiyi xəbəri qadına çatdırmaq istədi. Əvvəlcə ona təsəlli verdi, sınıq qəlbini ovutmağa çalışdı. Dedi:

- Xanım, biləsiniz ki, ölkəmizin iqtisadiyyatının inkişafında mühüm rolu olan məşhur iş adamı kimi Yavər müəllimin qətli sizinlə bərabər bizləri də sarsıdıb.

Rəis Cəmşid Əlibəylinin bu məsələyə xüsusi diqqət ayırması da təsadüfi deyil. Respublikanın bütün bölgələrində iş aparılır. Hələ dəqiqləşdirə bilməsək də, bir az əvvəl aldığımız məlumata görə, qətldə şübhəli bilindiyi daha çox ehtimal edilən bir neçə nəfər artıq həbs edilib.

- Onların kimliyi məlumdur? - qadın tələsik soruşdu.

- Düzünü deyim ki, yox - müstəntiq cavab verdi. - Doğrusu, bu məlumatı bizə Nicati çatdırıb. Onun dediyinə görə, həmin adamlar tünd yaşıl rəngli “Mercedes”də ölkə ərazisini tərk edərkən yaxalanıblar.

- Nicati düz deyir, Nicati düz deyir, cənab müstəntiq! - qadın həyəcəndan ayağa qalxıb dəlicəsinə qışqırdı. - Rəhmətlik bir dəfə bağ evinə gedərkən yolda tünd yaşıl rəngli “Mercedes”in onu izlədiyini, hətta o tərəf-bu tərəfinə keçib qəza şəraiti yaratdığını mənə danışmışdı.

- Bəs sonra? - müstəntiq soruşdu.

- Sonra rəhmətliyin göstərişi ilə sürücü “Bugattı”nı saxlayıb. Hər ikisi yerə düşərək bu hərəkəti onlara irad tutublar. “Mercedes”dən düşən adamlardan biri sürücünün üstünə qışqırsa da, Yavərin sifətinə bir xeyli baxaraq, əvvəlcə onunla sərt, sonra isə mülayim danışıb. Daha sonra üzr istəyərək yoluna davam edib…

- Amma siz…

Hələ izahatını sona çatdırmayan qadın müstəntiqin sözünü kəsdi:

- Sürücünün dediyinə görə, şəhərdən xeyli kənarda, bağ evinin bir neçə kilometrliyindəki yolayrıcında eyni rəngli “Mercedes”in arxasında gizlənən bir neçə nəfər də barmağını rəhmətliyin avtomobilinə tərəf tuşlayıbmış.

- Amma siz bunu öz yazılı izahatınızda qeyd etməmsiniz, - deyə müstəntiq təəccübləndi.

- Elədir, cənab müstəntiq, görünür, mən bunu tamamilə unutmuşam - qadın təəssüf hissi ilə cavab verdi.

- Bəs avtomobilin dövlət nömrəsini necə, qeydə almaq mümkün olub?

- Xeyr, alınmayıb, cənab miüstəntiq, görünür, bunu adi avtoxuliqanlıq kimi qəbul ediblər.

- Hə, ola bilsin ki, elədir - müstəntiq qadının fikrini təsdiqlədi. - Amma təsvirini verdiyiniz avtomobilin başqa bir ərazidə də rəhmətliyi izləməsi məsələnin ciddiliyindən xəbər verir.

- Düz deyirsiniz - bu dəfə də qadın Turan Ələsgərli ilə razılaşdı. Onunla vidalaşıb otaqdan çıxdı...

Ceyran xanım çox yorulmuşdu. Bir tərəfdən yol yorğunluğu, bir tərəfdən də tənhalığın üzüntüsü onu lap əldən salmışdı. Mənzilinə qayıdan kimi özünü güclə çarpayıya çatdırıb uzandı. Yarım saat yuxuya gedib həm gözünün acısını, həm də yorğunluğunu çıxardı. Ərinin qətli ilə bağlı müstəntiqdən eşitdiyi xəbər yadına düşdü. Nicatiyə olan inamı, eşitdiyi bu xəbərin dəqiqləşdirilməsinə ehtiyac yaratdı.

Telefon kitabçasını tapıb xəfiyyənin nömrəsini yığdı. Nicati dəstəyi qaldırıb Ceyran xanımın səsini elə o dəqiqə tanıdı:

- Axşamınız xeyir, Ceyran xanım, yəqin sizi müstəntiqdən eşitdiyiniz xəbər maraqlandırır, deyilmi?

- Elədir, cənab - qadın cavab verdi.

- Yaxşı ki, zəng etdiniz, xanım, amma biz sabah tezdən görüşə bilərikmi?

- Sizi başa düşdüm, cənab, qoy olsun, sabah görüşərik - Ceyran xanım dedi. Və Nicati ilə sağollaşıb dəstəyi yerinə qoydu. Kitab rəfindən gündəliyi çıxartdı. Son iki həftədə həyatında baş verən hadisələrin qeydiyyatını apardığı vərəqləri diqqətlə nəzərdən keçirdi. Yaşıl "Mercedes"lə bağlı əhvalata rast gəldi. Həmin adamların şəxsiyyəti haqda məlumatı olmasa da ərinin qətli ilə bu əhvalat arasında hansısa bağlılığın olduğuna şübhəsi qalmadı. Sabah Nicati ilə görüşəcəkdi deyə gündəliyi də özü ilə götürməyi qərara aldı. Onu əl çantasına qoyub çarpayıya uzandı. Xəyal onu xeyli əvvələ - Yavərli günlərə apardı. Elə bu xəyallarla da yuxuya getdi…

Ceyran xanım səhər erkən oyanmışdı. Axşamdan şərtləşdikləri kimi xəfiyyə ilə lap tezdən görüşməli idi. Telefonun dəstəyini qaldırıb Nicatiyə zəng vurdu. Xəttin o başından xəfiyyənin səsi eşidildi:

- Bəli, Ceyran xanım. Biz yarım saatdan sonra yaşadığınız binanın qarşısında görüşə bilərikmi?

- Əlbəttə, necə istəyirsinizsə, qoy elə də olsun, - deyə qadın təşəkkürünü bildirib telefonu qapatdı.

Yarım saatdan sonra Nicati öz köməkçisi Kənan Cəfərli ilə birlikdə binanın qarşısında daynmışdı. Bayaqdan eyvandan baxan Ceyran xanım həyətdə yad avtomobil görçək mənzilin qapısını bağlayıb aşağı düşdü. Elə kənardanca xəfiyyənin yanında tanımadığı başqa birisini görəndə təəccübləndi. Dərhal bunu hiss edən Nicati avtomobildən düşərək:

- Narahat olmayın, xanım, bu mənim köməkçimdir, adı Kənandır - dedi. - Bu sahədə çox yaxşı təcrübəsi və bacarığı var.

Köməkçinin baz-burutu, zəhmli görkəmi qadının xoşuna gəlməsə də, özünü o yerə qoymadı. Çöhrəsinə azacıq gülümsər ifadə verib nəzakət xatirinə: - tanışlığımıza çox şadam - dedi.

Nicati "PORSCHE"nin arxa qapısını açaraq Ceyran xanımı əyləşməyə dəvət etdi. Qadın bir anlığa tutulan kimi oldu, - Hara gedirik, - deyə maraqlandı.

Xəfiyyə qadının hisslərini başa düşüb onu arxayınlaşdıraraq:

- Narahatlığa əsas yoxdur, xanım, siz ki, məni yaxşı tanıyırsız. - dedi. Və barmağını Kənan Cəfərliyə tuşladı: - Bax, biz burdan birbaşa sizin bağ evinizin qonşuluğuna - bu cənabın mənzilinə gedirik, - deyə bildirdi. - Ümid edirəm ki, üçümüz birlikdə rəhmətliyin qətli ilə bağlı çox şeyi aydınlaşdıra biləcəyik.

- Hə, elədir - köməkçi təsdiqlədi. Avtomobili işə salıb gözdən itdi. Çox keçmədi ki, şəhərdən çıxıb bağ evinə doğru istiqamət götürdü.

"PORSCHE" sürətlə irəlilədikcə Ceyran xanımın hələ qaysaq bağlamamış yarası göyüm-göyüm göynəyir, ömür-gün yoldaşının yoxluğuna dözə bilməyən zərif qəlbi daha sürətlə döyünürdü. Maşın bağ evinə yaxınlaşdıqca ürəyi az qala sinəsini yarıb bayıra çıxacaqdı. Kənan Cəfərli nəhayət həyət evlərinin birinin darvazası ağzında əyləci basdı.

Burdan Yavər Əsədlinin darvazasına qədər təxminən 50-60 metr qalırdı. Başını qaldırıb bağ evinin hasarına baxan qadının ürəyi dözmədi, halı pisləşdi. Bunu əvvəlcədən hesablayan Nicati özü ilə götürdüyü həblərdən birini onun dilinin altına qoydu. Ceyran xanım özünə gəlib avtomobildən düşdü. Heç yerə baxmadan köməkçinin açıq darvazasından içəri, ordan da otaqlardan birinə keçdi.

Nicatinin dərin məntiqi təfəkkürünə, yüksək müşahidə qabiliyyətinə, ağıllı mühakiməsinə, son dərəcə dəqiq təhlilinə, söylənən fikirləri süzgəcdən keçirərək yeni ideyalar sintez etmək bacarığına heyran qalan Ceyran xanımın bu dəfə ondan xoşu gəlmədi. "Məgər bu adamın başına yermi qəhətdir?", - deyə öz-özünə gileyləndi. Onu bura gətirən xəfiyyənin və köməkçisinin hələ də susması qadını təəccübləndirdi. Araya çökən sükutu elə onun özü pozdu. Üzünü Nicatiyə tərəf tutaraq:

- Eşidirəm sizi, cənab, mənə sualınız varsa verə bilərsiniz - dedi. - Bir də ki, səhv etmirəmsə, qatilin həbsi barədə xəbərə aydınlıq gətirməli idiniz.

- Hə, hə, səhv etmirsiniz, yadımdadır, mən sizə söz vermişdim - xəfiyyə dilləndi. Və köməkçinin sifətinə baxıb gülümsədi. Kənan Cəfərli onun bu bic gülüşündən heç nə anlamadı. Elə indicə eşitdiyi xəbər isə onu bir az sarsıtdı. Deyəsən həmkarından incimişdi. Əlini kürəyinə vurub ərklə dedi:

- Bura bax, Yavər Əsədli kimi məşhur, alicənab, hörmətli bir iş adamını qətlə yetirənlər həbs olunur, amma siz bunu məndən gizlədirsiniz. Nə üçün?

- Yox, yox, gizlətmirəm, mən elə bundan ötrü gəlmişəm - Nicati onu sakitləşdirməyə çalışdı. - Mən bunu dünən axşama yaxın eşitmişəm.

- Hər halda eyni cinayət işini birlikdə araşdıran adam kimi bunu sizdən dərhal eşitməliydim, - deyə köməkçi incidiyini açıq şəkildə büruzə verdi.

Nicati həmkarından üzr istəsə də, onunla razılaşmadığını bildirdi:

- Bəlkə də haqlısan, amma ciddi məsələlərlə bağlı hələ tam dəqiqləşməmiş xəbər barədə ciddi adamlara məlumat ötürmək istəməzdim.

Köməkçi bir az yumşaldı:

- Doğrudur, doğrudur - dedi. - Yəni bu xəbər həqiqətə uyğun deyil?

Nicati həmkarının qolundan tutaraq:

- Dünən gecə aldığım son məlumata görə, qatillərin həbsi təsdiqlənməsə də, onların şəxsiyyəti istintaqa məlumdur - deyə cavab verdi. - İndi onlar bütün ölkə boyu axtarışdadır.

- Bəs bu adamların şəxsiyyəti sizə necə, bəllidir? - köməkçi maraqlandı.

- Hələ ki məlum deyil - Nicati təəssüfləndi. - Yalnız orası bəllidir ki, həmin adamlar milliyyətcə azərbaycanlı olsalar da, Rusiya vətəndaşlarıdır.

- Yəni onların Rusiya vətəndaşı olduqları artıq təsdiqlənib? - Kənan Cəfərli eşitdiklərini dəqiqləşdirməyə çalışdı.

- Hə - xəfiyyə qısaca cavab verdi. Əlini köməkçisinin qolundan çəkib ayağa qalxdı. Masa arxasından bir qədər kənara çəkildi. Gözlərini oğrun-oğrun Ceyran xanımın sifətində gəzdirdi. Qadın boşalmağa hazırlaşan qara bulud kimi dolmuşdu. Elə bil indicə hönkürüb göz yaşı axıdacaqdı. Nicati bunu hiss edib dərhal qadına yaxınlaşdı. Amma nədənsə üzünü ona yox, Kənan Cəfərliyə tərəf çevirdi. Yenidən onun əlindən tutaraq:

- Biz and içirik və söz veririk ki, çox qısa müddətdə, hətta bir-iki günə Yavər Əsədlinin qatillərini tapıb istintaqa təhvil verə biləcəyik, - deyə qətiyyətlə bildirdi.

Köməkçi müəmmalı qətl hadisəsinin üstünün bu qədər tezliklə açılmasına inanmasa da, qadının nəmli gözlərinə baxıb xəfiyyənin dediklərini təsdiqləməli oldu. Və eyni qətiyyətlə: - and içirik! - dedi. Əlini həmkarının əlindən çəkərək ona müraciətlə:

- Mümkündürsə hadisənin baş verdiyi yerlə mən də tanış olardım - deyə təklif verdi. - Əlbəttə, əgər xanım razıdırsa.

- Hə, elə bayaqdan mən də bunu fikirləşirdim - Nicati onunla razılaşdı. - Hər halda cinayət işini araşdıran bir adam kimi buna haqqın var.

Nicatinin və köməkçisinin qətiyyəti qadında ümid çırağı yandırmış, əhvalını bir az yaxşılaşdırmışdı. Belə nəcib və bacarıqlı adamların sözünü yerə salmaq istəmədi. Cəld ayağa qalxaraq:

- Gedək - dedi. - Nə vaxt istəsəniz müraciət edə bilərsiniz, əsas odur ki, qatillər tezliklə tapılıb cəzalarına çatsınlar.

Onlar mənzili tərk edib mərhumun qətlə yetirildiyi bağ evinə yollandılar. İkinci mərtəbəyə qalxıb altı gün əvvəl meyitin tapıldığı çarpayıya baxış keçirdilər. Qəflətən xəfiyyənin burnuna kəskin qoxu gəldi. Çarpayının ətrafına baxdı. Ayaq tərəfdə gözünə əzilib-bükülmüş burun dəsmalı sataşdı. Cəld götürüb cibinə qoydu. Sonra əyilib çarpayının altına baxdı. Sona qədər çəkilmiş iki siqaret kötüyü tapdı. Ceyran xanıma göstərib soruşdu:

- Mərhum siqaret çəkən olub?

- Heç vaxt - qadın cavab verdi.

- Hə, bax, bu bizim işimizə yaraya bilər, - deyə köməkçi fikrini bildirdi. - Özü də səhv etmirəmsə, Rusiya istehsalı olan əla növ original siqaretlərdir. Görünür, qatillərin Rusiya vətəndaşı olmaları haqda eşitdiyiniz xəbər səhihdir.

- Hə, doğrudan da bunlar çox əhəmiyyətli dəlillərdir - Nicati təsdiqlədi. Ev sahibəsi və köməkçi ilə birlikdə birinci mərtəbəyə endi. Zalı keçib arxa otaqlardan birinə daxil oldu. Sol tərəfdə qoyulmuş kiçik şkafın qarşısına keçdi. İlk baxışdan diqqəti cəlb edən heç nəyə rast gəlmədi. Küncə çəkilib otağı diqqətlə nəzərdən keçirdi. Gözləri şkafın altında güclə görünən gümüş müştüyə sataşdı. Cəld əyilib götürərək gödəkçəsinin cibində gizlətdi. Ceyran xanımla köməkçinin baxış keçirdikləri otağa keçərək: - Bu günlük kifayətdir, işlərimiz çoxdur, tələsməliyik, gəlin getdik - dedi…

●●●

Qatillərin ələ keçirilməsi barədə xəfiyyənin verdiyi hələ təsdiqlənməmiş qeyri-rəsmi məlumat müstəntiqdə bir qədər arxayınçılıq yaratsa da, Yavər Əsədlinin müavini Cabir Tağızadə ilə sürücü Tahirin müəmmalı şəkildə yoxa çıxması onu rahat buraxmırdı. Ona elə gəlirdi ki, polis rəisi polkovnik Cəmşid Əlibəylinin verdiyi vaxt sona yaxınlaşdıqca illər ərzində qazandığı etimad və nüfuzu da sürətlə aşağı düşür. Xəcalətindən özünə yer tapa bilməyən müstəntiq, nəyin bahasına olursa olsun qısa müddət ərzində şübhəli hesab etdiyi həmin şəxslərin yerinin müəyyən edilməsi barədə qəti tapşırıq vermiş, bu işlə şəxsən özü məşğul olmağı qərara almışdı.

Nicati Cahangir Ağabəylini şübhəlilər siyahısından çıxardığına baxmayaraq, müstəntiq onu da, hətta özünü Malpaşa kimi təqdim edən şlyapalı adamı da xüsusi nəzarət altında saxlayırdı. Bundan ötrü bir neçə nəfərdən ibarət xüsusi polis dəstəsi ayrılmışdı. Turan Ələsgərli leytenant Cəfərovu əvvəlki mövqeyinə qaytarmaq, hazırladığı əməliyyat planını təqdim etmək üçün onu öz otağına çağıraraq, mülki geyimli bir neçə nəfərlik əlavə polis dəstəsi ilə birlikdə yenidən bağ evinin ətrafında gizli keşik çəkməyə göndərdi. Leytenant əvvəlki kimi dəstəyə rəhbərlik edəcəkdi…

Yavər Əsədlinin qətlindən artıq yeddi gün keçirdi. Mərhumun mərasimi keçirilən gün bağ evinin ətrafında xeyli polis əməkdaşı  cəmlənmiş, həmin gün şəxsən Turan Ələsgərli də əraziyə baş çəkməyə gəlmişdi. Polslərin bir hissəsinin xeyli kənarda keşik çəkdiyi bu ərazi kol-kos basmış, növbə ilə sıralanan yastı təpəlik və düzənliklərdən ibarət idi. Bir qədər kə-narda isə əsasən sıx qamışlığın yerləşdiyi çox böyük, həm də sucaq bir ərazi gəlirdi.

Turan Ələsgərli polis əməkdaşlarının mövqe tutduğu yerdə dayanıb tez-tez ətrafa baxır, mərhum Yavər Əsədlinin bağ evinin həndəvərini nəzarətdə saxlayırdı.

Amma evin həyət darvazasının qarşısından keçən yolda təkəm-seyrək gəlib-gedən, bir də yaxınlıqdakı bağda təmir-tikinti işləri ilə məşğul olan adamlardan başqa heç kəs gözə dəymirdi. Hərəkətləri heç bir şübhə doğurmayan bu adamların əksəriyyətinin siması isə artıq altı gündür ki, burda keşik çəkən polis əməkdaşlarına tanış idi.

Müstəntiq bir az fasilə verib durbini yenə də əlinə götürdü. Bu vaxt mobil telefonuna zəng gəldi. Gözucu ekrana baxdı. Zəng edən polkovnik Cəmşid Əlibəyli idi. Düz darvazanın ağzında dayanmışdı. Polis əməkdaşlarının mövqe tutduqları yerə getmək, vəziyyətlə yerində tanış olmaq istəyirdi. Müstəntiq əlaqə saxlayıb mülki geyimli əməkdaşlardan birini onun yanına göndərdi. Polis rəisi düşərgəyə yetişən kimi leytenant Cəfərov dərhal irəli çıxıb məlumat verdi. Cəmşid Əlibəyli müstəntiqdən durbini alıb gözünə yaxınlaşdırdı. Əvvəlcə mərhumun bağ evinə tərəf baxdı. Evin darvazası və yaxın ətrafı uzaq məsafədən lap aydın görünürdü. Bir xeyli baxsa da heç kəs gözə dəymədi. İstiqamətini dəyişə-dəyişə bütün ətrafı nəzərdən keçirməyə başladı. Təxmi-nən 180 dərəcə fırlanıb diqqətlə baxdı. Uzaqda, qamışlığın kənarında kimsə gəzinir, ora-bura vurnuxur, elə bil nəsə axtarırdı. Rəis durbini polislərdən birinə verərək:

- Siz çoxdan burdasınız, belə demək mümkünsə, buranın adamlarına az-çox bələdsiniz - dedi. - Bir baxın, təsadüfən bu adamı tanımırsız ki?

- Xeyr - polis əməkdaşı dilləndi. - Bu adamı ilk dəfədir görürəm.

Müstəntiq irəli yeriyib durbini onun əlindən aldı. Gözlərinə yaxınlaşdırıb qamışlığa tərəf baxaraq öz-özünə:

- Bu odur, Nicatidir - dedi. - Görəsən, orda nə axtarır?

Turan Ələsgərli xəfiyyəni görüncə, təəccübündən yerində donub qaldı. Cəmşid Əlibəyli isə hələ də cavab gözləyirdi. Lap yaxına gələrək, yuxudan oyadırmış kimi müstəntiqin çiyninə bir-iki dəfə yüngülcə vurub yavaşca soruşdu:

- Sizə nə oldu, o adam kimdir? Yəni onu tanıyırsız?

- Bəli, cənab polkovnik, mən onu tanıyıram, - müstəntiq astadan cavab verdi. - Bu adam yüksək dərəcədə məntiqli, ağıllı və çox bacarıqlı bir xəfiyyədir.

- Adı nədir? - polkovnik təəccübləndi.

- Soyadı Nicati, adı isə, səhv etmirəmsə, Arazdır.

Cəmşid Əlibəyli bir qədər fikrə getdi. Nəsə xatırlayıb dedi:

- Yox, yox, siz səhv etmirsiniz. Belə bir soyad mənə də tanış gəlir.

- Nicati əksər hallarda özünün köməkçisi ilə birlikdə olur - müstəntiq dedi. - Ancaq, deyəsən, bu dəfə tək idi.

Cəmşid Əlibəyli müstəntiqdən durbini alıb bu dəfə diqqətlə baxdı. Xəfiyyə sürətli addımlarla onlara tərəf gəlirdi. Polkovnik tez-tez onu müşahidə edir, gözdən qoymurdu. Təxminən yarım saatdan sonra Nicati polis düşərgəsinin lap yaxınlığında idi. Bir az da yaxınlaşıb müstəntiqin bərabərinə çatdı. Nəyinsə

təsirindən çox həyəcanlı idi. Bunu gizlətmək istəsə də bacarmadı. Onun təşviş içərisində olduğu müstəntiqin nəzərindən qaçmadı. Soruşdu:

- Sizə nəsə olub?

- Yox - xəfiyyə qısaca cavab verdi.

- Rica edirəm, cənab, bizdən heç nəyi gizlətməyin, - deyə polkovnik işə qarışdı.

- Hə, hə, haqlısınız, amma icazə versəydiniz mən əvvəlcə öz köməkçimi çağırardım - Nicati dedi. - Ümid edirəm ki, biz onunla birlikdə istəyimizə daha tez nail ola biləcəyik. Amma bir şərtlə ki, siz hər şeyə hazır olub bizim işarəmizi gözləyəsiniz.

Cəmşid Əlibəyli xəfiyyə ilə razılaşdı. Nicati: - Mən on beş dəqiqəyə gəlirəm, - deyib onu Yavər Əsədlinin bağ evinin darvazası ağzında gözləyən Kənan Cəfərlinin yanına tələsdi. Və verdiyi vaxtın tamamında polis düşərgəsinə qayıdaraq:

- Hə, indi gedə bilərik - dedi.

- Biz hara gedirik? - polkovniklə köməkçi ikisi də birdən soruşdu.

Nicati barmağını bayaq gəldiyi istiqamətə tuşladı. - Bir ora baxın, orda böyük bir sahədə qamışlıq yerləşir - dedi. - Mən ordan gəlirəm, həmin ərazidə insan ayağının şübhəli izlərinə rast gəldim və bir də burnuma hansısa canlının cəsədinin kəskin qoxusu gəldi.

- Çox maraqlıdır, mən burda, mərhumun qonşuluğunda yaşayıram, amma bildiyimə görə qamışlıq insan ayağı dəyməyən bir ərazidir, - deyə köməkçi təəccüblə bildirdi.

- Hə, ola bilsin ki, belədir, amma biz ora mütləq baş çəkməliyik - polis rəisi xəfiyyənin sözünə qüvvət verdi.

Söhbət burda da bitdi. Xəfiyyə və köməkçisi qabaqda, polis əməkdaşlarından bir neçəsi ilə birlikdə müstəntiq və polkovnik isə onların ardınca qamışlığa tərəf üz qoydular. Nicati onları qamışlığın təxminən ortasında yerləşən böyük bir yarğanın kənarına gətirdi. İki gün əvvəl yağış yağsa da yarğan boyunca uzanan ayaq izləri aydın görünürdü. Nicati barmağı ilə yarğanın dibini göstərərək:

- O adamları görürsüz? - deyə soruşdu.

Yarğanın düz dibində iki nəfər görünürdü. Müstəntiq kiçik çantasını açıb içərisindən iki fotoşəkil çıxartdı. Ətrafındakılara göstərərək: - Baxın, onlardır, sürücü Tahirlə mərhum Yavər Əsədlinin müavini Cabirdir - dedi.

Polis əməkdaşları Cəmşid Əlibəylinin göstərişi ilə Kənanla birlikdə nisbətən təhlükəsiz yolla yarğanın dibinə endilər. Bir neçə dəqiqədən sonra sürücünün və Cabir Tağızadənin cansız cəsədi müstəntiqin, polis rəisinin və xəfiyyənin qarşısında idi. Nicatinin məharətinə heyran qalan polkovnik üzünü ona tutaraq:

- Bu nədir, cənab, məni başa sala bilərsiniz? - deyə soruşdu.

- Bunlar hələ hamısı deyil - xəfiyyə yenə də lovğalandı. Köməkçini yanına çağırıb: - Ümid edirəm ki, birlikdə qatilin də şəxsiyyətini müəyyən edə biləcəyik - dedi. Və bağ evinin mənzilindən tapdığı, üzərində "Nicatidən Kənana" sözləri yazılmış gümüş müştüyü cibindən çıxarıb havaya qaldırdı. Köməkçini göstərərək: - Yavər Əsədlini qətlə yetirəndən sonra evi yağmalayarkən təsadüfən cibindən düşüb, - deyə ucadan qışqırdı.

Köməkçi qüvvətli zərbə ilə xəfiyyənin alnından vurub əlini gödəkcəsinin cibində gizlətdiyi tapançaya atdı. Tətiyi çəkməyə macal tapmamış, leytenant Cəfərovun təpiklə vurduğu güclü zərbə tapançanı havaya qaldırdı. Polis əməkdaşları dərhal özlərini yetirərək, Kənan Cəfərlinin əl-qolunu bağlayıb yarğandan indicə çıxarılan cansız cəsədlərin yanına uzatdılar…

●●●

Qatilin həbsindən iki gün sonra Turan Ələsgərli Ceyran xanımla Nicatini özünün iş otağına dəvət etmişdi. Dünən qamışlıqda baş verənlər gözlərinin qarşısından hələ də çəkilmək bilmirdi. Xəfiyyənin belə gözlənilmədən qatiliin şəxsiyyətini müəyyən etməsi, üstəlik peşəkarcasına, əməliyyatsız-filansız çox rahat şəkildə onu ələ keçirməsi polis rəisini də, müstəntiqi də dəhşətə gətirmişdi. O, dünən, ümumiyyətlə son bir neçə gündə baş verənlərin izahatını elə bu saat öyrənmək istəsə də, Ceyran xanımın üzüntülü baxışlarına dözməyib əvvəlcə onun intizarına son qoymaq istədi. Dedi:

- Yəqin ki, Yavər müəllimin qatilinin həbsi barədə məlumatınız var, deyilmi?

- Yox! - deyə eşitdiyinə inanmayan Ceyran xanımın həyəcandan bütün bədəni titrədi. - Doğrudur? - soruşdu. - Bu nə vaxt və necə baş verib, qatil kimdir?

Müstəntiq onu sakitləşdirməyə çalışdı:

- Hər şey elə dünən, mərhumun yeddi mərasimi keçirilən gün baş verdi…

- Təşəkkür edirəm - qadın müstəntiqin sözünü kəsdi.

- Təşəkkür Nicatiyə düşür, xanım, qatil yalnız onun fövqəladə bacarığı sayəsində aşkar olundu, - deyə müstəntiq bildirdi. - Doğrusu, hər şeyin birdən-birə baş verməsi məni də, yəqin elə sizin özünüzü də maraqlandırır. Elə isə bu haqda qoy cənabın özü izahat versin. Yəni doğrudanmı hər şey qəflətən baş verdi?

Xəfiyyə özünəməxsus lovğalıqla asta-asta cavab verdi:

- Əlbəttə, hər şey birdən-birə baş vermir. Mən bunu eşidən kimi məlumat toplamaq üçün sizin yanınızda oldum. İlk anda Ceyran xanımın istintaqa təqdim etdiyi maddi sübutlar diqqətimi cəlb etdi. Xüsusilə də şlyapalı adamın qəribə hərəkətləri şübhələrə yol açırdı. Amma fotoşəklə baxan kimi onun surəti mənə tanış gəldi. Elə bil bu adamı hardasa görmüşdüm. Özü də fotoşəkildə və izahatda

təsvir edildiyi kimi qəribə hərəkətləri ilə bir yerdə. Bundan sonra mən onu şübhəli adamlar sırasından çıxarmağa başladım.

- Yəni bu fakt yetərli idi? - müstəntiq soruşdu.

- Sözsüz ki, yetərli ola bilməzdi. Mən onun şübhəli şəxs kimi qeydə alındığını öyrənəndə daha yaxından maraqlanmağa başladım. Onu sonuncu dəfə "Neftçilər" metrosunun lap yaxınlığında, mənzil dəllallarının toplaşdığı bağda tapdım. Həmişəki kimi dəlisov, yüngül hərəkətləri ilə hamını əyləndirirdi. Başını tovlayıb çayxanaya apardım. Kənan Cəfərlinini də dəvət etdim. Eynəkli adam ayağa qalxıb şəklimizi çəkirmiş kimi əlindəki telefonu gözünə yaxınlaşdırdı. Amma mən həmin telefonun kameralı olmadığını bilirdim.

- Bəs bunu necə öyrənə bildiniz?

- Köməkçi gəlməzdən əvvəl girəvələyib baxmışdım. Ona dostluq təklif edəndə bunun nə olduğunu soruşdu. - Dostlar birlikdə adam öldürürlər - dedim. Eynəkli adam bu sözləri eşidən kimi qorxusundan əlləri əsdi, dizləri titrədi. Rəngi sapsarı saraldı. Özünü saxlaya bilmədi, için-için ağladı. - Mən sizinlə dost olmuram, dostlar ancaq birlikdə şəkil çəkə bilirlər - dedi. Köməkçi isə eynəkli adamın açıq-aşkar ruhi xəstə olduğunu görsə də, mənimlə razılaşmayıb onu elə birbaşa məlum qətldə suçladı. Kənanın peşəkar olduğunu bildiyim üçün onun bu mövqeyi mənə qəribə gəldi. Köməkçiyə qarşı ilk şübhəm də elə bu zaman oyandı.

- Bəs Cahangir necə, axı onun müəmmalı hərəkətləri çox şübhə doğururdu? - deyə müstəntiq maraqlandı.

- Hə, elədir, ilk baxışdan şübhəli görünürdü - deyə xəfiyyə cavab verdi. - Amma prosesə elə həmin gün qoşulan və qətldən xəbəri olmadığını bildirən Kənanın "Bildiyimə görə səhər tezdən bu cənabın vəsiqəsi tapılan gün hələ məlum olmayan səbəblərdən qapı açıq qalsa da otaqdan heç nə yoxa çıxmayıb" deməsi, eyni zamanda vəsiqəni otağa atan naməlum şəxsin hərəkətlərinin qarət məqsədi daşımadığını bildirməsi məndə ikinci dəfə şübhə oyatdı.

- Amma mənimlə birlikdə siz də onun fikirlərini təsdiqlədiniz - müstəntiq azacıq gülümsədi.

- Əslində isə belə deyildi, mən sadəcə şübhələrimi köməkçimdən gizlətməyə çalışırdım - Nicati dedi. - Mənə elə gəlir ki, Kənan bundan məmnun qalsa da, siz mənim səmimiyyətimə inanmadınız.

- Elədir - müstəntiq xəfiyyənin dediklərini təsdiqlədi. - Amma hər halda iş icraçısının "Mercedes" markalı avtomobildə oğurlanması da öz təsdiqini tapmalı, əlamətləri artıq müəyyənləşən həmin adamların Kənan Cəfərli ilə əlaqəsi araşdırılmalıdır, elə deyilmi?

- Güman edirəm ki, buna da ehtiyac olmayacaq, - deyə Nicati bildirdi. - Çünki Cahangirin oğurlandığı həmin "Mercedes" elə köməkçinin özünə məxsus olub.

- Nə dediniz, bu doğrudur? - Turan Ələsgərli təəccübləndi.

- Buna şübhəniz olmasın - Nicati cavab verdi. - Həmin yaşıl “Mercedes” qətldən iki gün əvvəl başqasına satılıb.

Bu yerdə heyrətini gizlədə bilməyən Ceyran xanım söhbətə müdaxilə etdi:

- Cənab doğru buyurur, yaşıl “Mercedes” rəhmətliyi iki dəfə izləyib. Hətta xidməti avtomobilində bağ evinə gedərkən həmin maşında olan üç nəfər cüssəli naməlum gənc qəza şəraiti yaradıb. Onlardan biri yerə düşərək nalayiq ifadələr işlədib. Səhv etmirəmsə artıq mən bunu cənab müstəntiqə demişəm.

- Elədir, - müstəntiq razılaşdı. - Cahangir Ağabəyli də istintaqa verdiyi ifadəsində oğurlandığı avtomobilin rənginin yaşıl olduğunu bildirmişdi.

Müstəntiq sözünü qurtarar-qurtarmaz xəfiyyə dedi:

- Qatillərin məlum olduğunu özümdən uydurmuşdum. Bu, həm iş icraçısının həqiqəti söyləməsinə imkan verər, həm də köməkçinin reaksiyasını öyrənməyimə kömək edə bilərdi. Elə gözlədiyim kimi də oldu. Bunu Kənana deyərkən onun qolundan tutdum. Həmin an bədəni titrədi. Amma qatilin guya Rusiya vətəndaşı olduğunu deyəndə həyəcanı ötüb keçdi. Elə sürücünün, bağ evinin həyətindən tapılan papağı da izi azdırmaq üçün gecə Kənan tərəfindən maşından oğurlanaraq ora atılmışdı. Səhv etmirəmsə, artıq ekspertiza da papaqda köməkçinin əl izlərini tapıb.

- Bu belədir - müstəntiq dedi. - Bəs qatillərin Rusiya vətəndaşı olduğunu söyləmək nəyə lazımıydı ki?

- Biz Ceyran xanımla evə baxış keçirərkən meyitin tapıldığı çarpayının altındakı iki ədəd siqaret kötüyü diqqətimi cəlb etdi. Mərhumun siqaret çəkmədiyi ayıdınlaşan kimi köməkçi bunun Rusiya istehsalı olduğunu dedi. Kənanın da eyni adlı siqaret çəkdiyini bilirdim. Çarpayının ayaq tərəfindən tapdığım dəsmal isə sarımsaq qoxuyurdu. Köməkçidən də həmişə belə qoxu gələrdi. Bundan əlavə, yadınıza gəlirsə, mən qamışlığa baxmağı təklif edəndə Kənan buna etirazını bildirdi. Bütün bunlar mənim şübhələrimi artırdı.

- Hə, cənab, yadımdadır. Bəs müştüklə bağlı nə deyə bilərsiz?

- Nəhayət müştük mənim şübhələrimi tam təsdiqlədi. Mən onun üstünü yazdırıb Kənana hədiyyə etmişdim.

Müstəntiq masanın siyirtməsini açıb polis rəisi polkovnik Cəmşid Əlibəylinin mükafat olaraq Nicati üçün ayırdığı yarım milyon manatı ona uzadaraq:

- Rica edirəm, cənab, bu mükafatı qəbul edin - dedi. - Siz çox böyük zəhmət çəkmisiniz.

Nəriman Mahmud
(Mahmudov Nəriman Məhəmməd oğlu)

# Bağ evinin sirri

(roman)

“Təfəkkür”
Bakı-2011

Redaktor: Yusif Dirili
Texniki redaktor: Turan
Korrektor: Fəridə
Yığıcı: Günel

Yığılmağa verilib: 25.04.2011
Çapa imzalanıb: 26.05.2011
Kağız formatı: 70x100
Həcmi: 10 ş.ç.v
Sayı: 500 nüsxə
Müqavilə qiyməti